Təcrübə sahəsində vegetasiya müddətində variantlar üzrə 50% və 100% cücərtilərin alınması, bitkilərin boyunun hündürlüyü, bir bitkidə qıcanın sayı, qıcanın dən çıxımı, dənin mütləq çəkisi və dən məhsuldarlığı müəyyən edilmiş, məhsuldarlıq üzrə məlumatların dəqiqliyi B.A. Dospexovun dispersiya üsulu ilə hesablanmışdır.

Bitki sıxlığının qarğıdalının təsərrüfat xüsusiyyətlərinə və toxum məhsuldarlığına təsirinin öyrənilməsi üzrə təcrübədə əldə edilən məlumatlar 1 saylı cədvəldə verilmişdir.

**Cədvəl 1.**

**Bitki sıxlığının qarğıdalının təsərrüfat xüsusiyyətlərinə və dən məhsuldarlığına təsiri**

| Təcrübənin variantları | Bitkinin boyu, sm – lə | Bir bitkidə qıcanın sayı, əd – lə | Qıcanın dən çıxımı % - lə | Dənin mütləq çəkisi qr - la | Dən məhsulu h/s – lə | | |
|---|---|---|---|---|---|---|---|
| | | | | | Cəmi | Nəzarətə görə fərq | |
| | | | | | | h/s – lə | %- lə |
| Bitki sıxlığı 42 min əd/ha (nəzarət) | 284,6 | 2,2 | 82,8 | 317,4 | 81,6 | _ | _ |
| Bitki sıxlığı 48 min əd/ha | 284,3 | 2,2 | 82,6 | 317,1 | 84,2 | 2,6 | 3,1 |
| Bitki sıxlığı 55 min əd/ha | 283,4 | 2,1 | 82,4 | 316,7 | 87,5 | 5,9 | 7,2 |
| Bitki sıxlığı 67 min əd/ha | 283,7 | 2,1 | 82,1 | 316,2 | 88,7 | 7,1 | 8,5 |

Cədvəldən göründüyü kimi bitki sıxlığının artması qarğıdalının məhsuldarlıq göstəricilərinin əhəmiyyətsiz dərəcədə olsa da azalmasına səbəb olmuşdur.

Bununla yanaşı variantlar üzrə bitki sıxlığının artması qarğıdalının hektardan əldə edilən dən məhsuldarlığının yüksəlməsinə gətirib çıxartmışdır.

Təcrübədə yüksək keyfiyyətli toxumlardan istifadə edilmiş və tələb olunan aqrotexniki tədbirlər vaxtında, tələb olunan qaydada yerinə yetirilmişdir. Nəticədə bütün variantlarda bitkilərin böyümə və inkişafı üçün əlverişli şəraitin yaranması ilə əlaqədar məhsuldarlıq göstəriciləri üzrə yüksək nəticələr əldə edilmişdir.

Yeni fərqli bitki sıxlığına malik olan variantlarda bitkilərin boyunun hündürlüyü 283,4 – 284,6sm, bir bitkidə qıcanın sayı 2,1 – 2,2 ədəd, qıcanın dən çıxımı 82,1 – 82,8%, dənin mütləq çəkisi 316,2 – 317,4qr və hektardan əldə edilən dən məhsuldarlığı 81,6 – 88,7 sentner arasında dəyişmişdir.

## NƏTİCƏ

Bitki sıxlığının qarğıdalının təsərrüfat xüsusiyyətlərinə və toxum məhsuldarlığına təsiri mövzusunda elmi tədqiqat işinin tarla təcrübəsində aparılan müşahidə və hesabatlarda əldə edilən məlumatların təhlili əsasında aşağıdakı nəticələr müəyyən edilmişdir:

1. Bitki sıxlığından asılı olaraq qarğıdalının struktur göstəriciləri və dən məhsuldarlığı əhəmiyyətli dərəcədə dəyişir.
2. Optimal bitki sıxlığında qarğıdalının həyat amillərinə tələbatı daha yaxşı ödənildiyinə görə onun struktur göstəriciləri və dən məhsuldarlığı xeyli yüksəlir.

**№ 1/2026** **səh.14-19**

3. Bitki sıxlığından asılı olmayaraq təcrübənin bütün variantlarda cücərtilərin 50% alınması 14 gündə, 100% alınması isə 23 gündə başa çatmışdır.

4. Hektarda olan bitkilərin sayının artması qida sahəsinin azalmasına səbəb olduğuna görə öz növbəsində qarğıdalının struktur göstəricilərində və dən məhsuldarlığında qismən azalmanın baş verməsinə gətirib çıxartmışdır.

5. Bitki sıxlığı hektarda 42min götürülən nəzarət variantına nisbətən hektarda bitkilərin sayının 55 və 67 min ədəd götürülən variantlarda uyğun olaraq bitkilərin boyunun hündürlüyü 1,2 və 0,9sm, bitkidə qıcanın sayı 0,1 ədəd, qıcanın dən çıxımı 0,4 və 0,7%, dənin mütləq çəkisi isə 0,7 və 1,2 qram azalmışdır.

6. Hektarda bitki sıxlığı 42 min olan nəzarət variantı ilə müqayisədə bitki sıxlığı 55 və 67 min. ədəd olan variantlarda qarğıdalının dən məhsuldarlığı uyğun olaraq 5,9 – 7,1 s/ha. artmışdır

7. Hektarda əldə edilən dən məhsuldarlığının artması variantlar üzrə iqtisadi göstəricilərin dəyişməsinə müsbət təsir etmişdir.

8. Bitki sıxlığı hektarda 42min. ədəd olan nəzarət variantına nisbətən 55 və 67 min. əd/ha bitki sıxlığı olan variantlarda uyğun olaraq hektarda əldə edilən ümumi gəlir 265,5 və 319,5 manat xalis gəlir 260,7 və 309,4 manat, rentabellik səviyyəsi isə 17,2 və 20,0% yüksəlmiş bir sentner məhsulun maya dəyəri 1,1 – 1,7 azalmışdır.

## ƏDƏBİYYAT

1.Əhmədov S. N., Təlai S. M., Rzayev M. J. – Becərmə amillərinin buğda sortlarının məhsuldarlığına təsiri. Akademik C.Ə. Əliyevin 90 illik yubileyinə həsr edilmiş Respublika elmi praktiki konfransının materialları. Gəncə, 2019, səh. 63 - 65

2. Həsənova A, O., Səlimli N.N. – Lentvari səpində səpin normasının buğdanın məhsuldarlığına təsiri. ADAU – nun elmi əsərləri, 2017, № 4, səh. 20 – 21

3. Hüseynov M.M., İbrahimov A. Q., Həsənova A, O. – Aqronomiyanın əsasları, Bakı 2015. 396 səh.

4. Məmmədov Q. J., İsmayılov M.M. – Bitkişilik, Bakı 2012, 356 səh.

5. Vəliyeva M.A., - Əkinçiliyin və bitkiçiliyin əsasları, Bakı 2014, 660 səh.

6. Васин В. Г., Васин Н. Н. – Растеневодство. Самара РИЦ СГСХА 2009, 256 стр.

7. Гулидова В.А. – Кукуруза на зерно. Современное возделования технология. Практическое руководство М. Колос 2017 51 стр.

8. Djalović, I. *Optimal Plant Density Is Key for Maximizing Maize Yield in Semiarid Conditions.* (2024).

**УДК 631.4**

# ВЛИЯНИЕ ГУСТОТЫ РАСТЕНИЙ НА НА СТРУКТУРНЫЕ ПОКАЗАТЕЛИ И УРОЖАЙНОСТЬ ЗЕРНА КУКУРУЗЫ

**Лаля Елшан Мехдиева**
**Азербайджанский Государственный Аграрный Университет**
**mehdiyevalale.e @gmail.com**

***Резюме.*** *В настоящее время, в условиях происходящих глобальных изменений климата, значительного роста численности населения и выведения существенной части пригодных земель из сельскохозяйственного оборота с использованием их в несельскохозяйственных целях, обеспечение продовольственной безопасности мирового населения является важной и стратегически значимой задачей. В решении этой задачи особую роль играет развитие сельского хозяйства в целом, в том числе зерноводства как одной из основных отраслей аграрного сектора. Это обусловлено тем, что зерновое хозяйство играет важную роль в обеспечении потребностей населения в продуктах питания, животноводства — в кормах, а промышленности — в сырье.*

**№ 1/2026** **səh.14-19**

*Среди зерновых культур кукуруза занимает особое место по площади посевов, объему валовой продукции и уровню использования.*

*В статье описано результаты исследования по влияние густоты стояния растений на структурные показатели и урожайность зерна кукурузы на светло-серых бурых почвах Самухского района.*

*Полевые опыты проводились в 2024–2025 годах на опытных участках «Agrodairy» ООО. Объектом исследования был сорт кукурузы «ADAU-80».*

*Наивысшие показатели были получены при густоте стояния растений 55000 раст/га. По сравнению с вариантом с густотой 42 тыс. растений на гектар, при густоте 55 тыс. и 67 тыс. растений урожайность зерна сорта «ADAU-80» увеличилась соответственно на 5,9 ц/га (7,2%) и 7,1 ц/га (8,5%).*

***Ключевые слова:*** *густота растений, структурные показатели, урожайность зерна кукурузы, продовольственная безопасность.*

**UDC 631.4**

## THE EFFECT OF PLANT DENSITY ON THE YIELD COMPONENTS AND GRAIN YIELD OF MAIZE

**Lala Elshen Mehdiyeva**
**Azerbaijan State Agrarian University**
**mehdiyevalale.e @gmail.com**

***Summary.*** *Ensuring food security of world population has a strategically importance under conditions of global climate change risks, the rapid population growth, and the withdrawal of a significant part of arable land from agricultural use for non-agricultural purposes,. In this context, the development of agriculture in general, and grain production as one of its key sectors, plays a crucial role. Grain crops are essential for meeting human food needs, providing feed for livestock, and supplying raw materials for industry.*

*Among grain crops, maize occupies a leading position in terms of cultivated area, total production volume, and level of utilization.*

*This article describes the results of study on effect of plant density on the yield components and grain yield of maize grown on light gray-brown soils of the Samukh district.*

*Field experiments were conducted in 2024–2025 at the experimental fields of «Agrodairy» LLC. The maize variety ADAU-80 was used in trials.*

*The highest results were obtained at a plant density of 55000 plants per a hectare. The grain yield of the ADAU-80 maize variety increased by 5.9 c/ha (7.2%) and 7.1 c/ha (8.5%) at 55000 and 67000 plants per a hectare, respectively compared to the variant with 42000 plants per a hectare,.*

***Keywords:*** *plant density, the yield components, grain yield of maize, food security.*

Redaksiyaya daxilolma: 05.02.2026
Çapa qəbul olunma: 19.03.2026

**№ 1/2026** **səh.20-25**

| | |
|---|---|
| **UOT 631** | |
| **DOI 10.30546/JIECM.2026.001.2037** | |

# OPTİMAL SƏPİN MÜDDƏTİ VƏ BİTKİ SIXLIĞINDA CƏRGƏARASI BECƏRMƏ SAYININ QARĞIDALININ DƏN MƏHSULDARLIĞA TƏSİRİ

**Tünzalə Niyaz qızı Əliyeva**
**Azərbaycan Dövlət Aqrar Universiteti**
**tunzale.yeraz@gmail.com**

***Xülasə.*** *Məqalədə optimal səpin müddəti və bitki sıxlığında cərgəarası becərmə sayının qarğıdalının struktur göstəricilərinə və dən məhsuldarlığına təsiri öyrənilmişdir. Tədqiqatın tarla təcrübəsi 2024– 2025 – ci illərdə Bitki Mühafizəsi və Texniki bitkilər ETİ – da aparılmışdır.*

*Tədqiqat obyekti kimi ADAU – 80 qarğıdalı sortundan istifadə edilmişdir.*

*Optimal səpin müddəti və bitki sıxlığında cərgəarası becərmə sayının qarğıdalının struktur göstəricilərinə və dən məhsuldarlığına təsirini müəyyən etmək üçün elmi tədqiqat işi aşağıdakı variantlarda yerinə yetirilmişdir.*

*1.Cərgəaralarının bir dəfə becərilməsi, 2.Cərgəaralarının iki dəfə becərilməsi,3. Cərgəaralarının üç dəfə becərilməsi, 4. Cərgəaralarının dörd dəfə becərilməsi*

*Təcrübənin bütün variantlarında səpin müddəti1 14 aprel 2025 – ci tarixi, bitki sıxlığı isə hektarda 55min. ədəd olmuşdur.*

*Əvvəlcədən nəzərdə tutulan işçi proqramına əsasən aparılan müşahidə və hesabatların nəticələri əsasında müəyyən edilmişdir ki, cərgəaralarının bir dəfə becərildiyi nəzarət variantı ilə müqayisədə üç dəfə becərmə aparan variantda: bir bitkidə qıcanın sayı 0,2 ədəd, qıcanın dən çıxımı 0,6%, dənin mütləq çəkisi 5,1 qram, bitkinin boyunun hündürlüyü 8,4sm artmış, dən məhsuldarlığı 5,8s/ha (10%), rentabellik səviyyəsi isə12,5% yüksəlmişdir.*

***Açar sözlər:*** *Səpin müddəti, bitki sıxlığı, cərgəarası becərmə sayı, qarğıdalının dən məhsuldarlığı.*

**Giriş.** İnsanların sayının artdığı və yararlı torpaq sahələrinin əhəmiyyətli hissəsinin qeyri istehsal sahələri üçün istifadə edildiyi müasir dövrdə aqrar sahənin qarşısında duran əsas məsələ istehsalın sabit artımını təmin etməklə və yerli istehsal hesabına olmaqla ölkədə əhalinin ərzaq məhsullarına olan tələbatını ödəməkdən ibarətdir.

Son illərdə dövlətin aqrar bölmədə həyata keçirdiyi bir sıra tədbirlər: - islahatların başa çatdırılması, yeni yaradılan kiçik həcmli, maddi texniki bazası zəif olan təsərrüfat formalarının inkişaf etdirilməsi üçün uzun müddətli və güzəştli kreditlərin verilməsi və s. nəticəsində bir çox sahələrdə məhsul istehsalının həcmi xeyli artmışdır.

Bununla yanaşı kənd təsərrüfatı məhsulları istehsalının artırılması yeni, yüksək məhsuldar sortların istifadə olunması və ərazinin torpaq – iqlim şəraitinə uyğun müasir mütərəqqi becərmə üsulların tətbiq edilməsi ilə həyata keçirilməlidir.

Aparılan çoxsaylı elmi – tədqiqat işlərinin nəticələri göstərir ki, torpağın becərilməsinin optimal variantları tətbiq edildikdə əkin sahələrinin məhsuldarlığı torpağın düzgün becərilmədiyi sahənin məhsuldarlığına nisbətən 20 – 30% artır.

Burada torpağın əsas, səpinqabağı və vegetasiya becərmələrin vaxtının, sayının, dərinliyinin və üsulunun düzgün seçilməsi əsas şərtdir.

Torpağın becərilmə üsulları, qaydaları və sistemləri həmişə əkinçiliyin inkişaf səviyyəsinə uyğun olaraq təkminləşdirilmiş və elmi əsaslandırılaraq dəyişdirilmişdir. Bu inkişaf bütün dövrlərdə sistemli şəkildə baş verməmiş cəmiyyətin sosial vəziyyətindən, torpaq münasibətlərinin formalarından və əkinçiliyin maddi texniki təminatından asılı olaraq baş vermişdir.

**№ 1/2026** **səh.20-25**

Əkin sahələrində torpağın becərilməsi zamanı ağır və çox enerji sərfiyyatlı texnikalardan istifadə edildikdə torpağın üst qatı daha çox tozlaşmaya, aşağı qatları isə artıq kipləşməyə məruz qalır.

Müəyyən edilmişdir ki, becərmələrin intensiv aparıldığı sahələrdə torpağın kipləşməsi 30 – 80% artır. Bu isə tırtıllı traktorların torpağa 1,5 – 2,0 kq/sm$^3$, rezin təkərli traktorların 2,0 – 3,0 kq/sm3, təzyiq göstərməsi ilə əlaqədardır.

Hazırda bu ziddiyyəti aradan qaldırmaq üçün becərmələrin minimallaşdırılması üzrə aşağıdakı istiqamətlərdə tədqiqatlar aparılır:

1. Becərmənin torpaq eroziyasına təsirinin öyrənilməsi.
2. Becərmənin təsiri ilə torpağın deqradasiyasının öyrənilməsi
3. Becərmə traktorlarının və alətlərinin hərəkəti ilə torpağın kipləşməsinin öyrənilməsi
4. Enerji ehtiyatlarına qənaət olunması

Torpağın becərilməsinin minimallaşdırılması sahə alaqlardan təmiz olduqda və yaxud onların məhv edilməsi üçün kimyəvi üsullardan istifadə edildikdə, torpağın təbii tarazlıq kipliyi kənd təsərrüfatı bitkilərinin normal inkişafı üçün optimal həddə yaxın olduqda istifadə oluna bilər.

Müasir torpaqmühafizəli və enerjiyəqənaətedici əkinçilik sistemlərinin qurulmasında becərmələrin sayının minimallaşdırılması becərmələrin həm sayının, həm də dərinliyinin azaldılması yolu ilə mümkündür.

Torpağın kipliyi onun münbitliyinin əsas göstəricisidir. Yəni kiplik torpağın strukturasının, mexaniki tərkibinin, tərkibində olan humusun miqdarının və s. əsas göstəricisidir.

Cərgəaralarının becərilmə sayının azaldılması, həm də onun dayaz aparılması torpaqda toplanan üzvi maddələrin səmərəli istifadə olunmasına imkan verir, bitkinin kök sistemi az zədələnir, yanacaq az sərf olunur və məhsuldarlıq yüksəlir.

Suvarılan torpaqlarda cərgəaralarının becərilməsinin sayı və dərinliyi, dəmyə torpaqlarda müqayisədə artıq götürülür. Cərgəarası becərmələr həm də vegetasiya suvarmaları ilə əlaqələndirilməlidir. Az kipləşən və alaqlardan təmiz olan torpaqlarda cərgəarası becərmələrin sayı azaldıla bilər.

Azərbaycan Respublikasının mövcud əlverişli iqlim – torpaq şəraiti becərilən kənd təsərrüfatı bitkilərinin məhsuldarlığını yüksəltməklə yerli istehsal hesabına ölkə əhalisinin qida məhsullarına tələbatını ödəməyə və dayanıqlı ərzaq təhlükəsizliyini təmin etməyə imkan verir

Istənilən ölkədə etibarlı ərzaq təhlükəsizliyi ilk növbədə taxılçılığın inkişaf etdirilməsi ilə təmin edilə bilər. Ona görə də taxılçılığın inkişafı həll edilməsi vacib olan strateji əhəmiyyətli məsələ kimi nəzərdən keçirilir.

Əkin sahəsinə, istehsal edilən məhsulun həcminə və istifadə olunma dərəcəsinə görə taxıl bitkiləri sırasında qarğıdalı önəmli yer tutur.

Qarğıdalının dənindən insanlar üçün müxtəlif çeşiddə ərzaq məhsulları hazırlanır, onun yaşıl kütləsi isə heyvandarlıqda qiymətli yem kimi geniş istifadə olunur. Bu isə qarğıdalının yaşıl kütlə və dən məhsuldarlığının artırılmasını tələb edir.

Təcrübələr göstərir ki, respublikamızın suvarılan və dəmyə torpaqlara malik olan bütün bölgələrində qarğıdalının tövsiyə edilən sortlarının becərilməsində elmi əsaslandırılmış becərmə texnologiyaları tətbiq edilməklə yüksək və keyfiyyətli məhsul əldə etmək olar. Qarğıdalı bitkisinin məhsuldarlığının səviyyəsi optimal səpin müddəti və bitki sıxlığında cərgəarası becərmə sayını düzgün müəyyən etməklə artırıla bilər. Çünki səpin optimal müddətdə aparıldıqda bitkilərin normal böyüməsi və inkişafı üçün lazım olan yaşayış amilləri ilə tam təmin olunur.

Eyni qayda ilə hektarda olan bitkilərin sayı ayrılıqda götürülmüş hər bir bitkinin işıqlanma şəraitinə, nəmlik və qida maddələri ilə təmin olunmasına birbaşa təsir göstərir.

Azərbaycan Respublikasının Zaqatala rayonunun suvarılan boz qəhvəyi torpaqları şəraitində aparılan tədqiqatda müəyyən edilmişdir ki, suvarılan torpaqlarda sahədə alaqlar çox inkişaf etdiyinə və torpaqda kipləşmə artdığına görə dən üçün becərilən qarğıdalının cərgəarası becərmələrin sayı üç – dörd dəfə olmalıdır (Abbasov R.B., 2017, səh 15 – 18).

**№ 1/2026** **səh.20-25**

Qarğıdalının müxtəlif sort və hibridləri becərildiyi ərazinin aqroekoloji şəraitinə uyğun becərilmə texnologiyası tələb edir. Qarğıdalı bitkisi işığa və tələbkar olduğuna görə optimal bitki sıxlığında və səpin müddətində müasir mütərəqqi becərmə texnologiyalarında daha yüksək dən məhsulu verir (İbrahimov A.Q. və b. 2017, 240 səh.).

Struktur məlumatlara görə son illər Azərbaycanda dənli taxıl bitkilərinin, o cümlədən dən üçün becərilən qarğıdalının əkin sahəsi xeyli genişləndirilmiş, onun becərilmə texnologiyaların işlənməsi istiqamətində tədqiqatlar genişləndirilimiş ümumi məhsul yığımı əhəmiyyətli dərəcədə artırılmışdır (Hüseynov M.M. və b. 2015, səh. 396).

Müxtəlif torpaq – iqlim şəraitlərində dən üçün becərilən qarğıdalı əkinlərində bitki sıxlığı məhsuldarlığa fərqli dərəcədə təsir göstərir.

Hektarda olan bitkilərin sayı və vegetasiya müddətində aparılan becərmələrin sayı əkin sahələrin vəziyyətinə uyğun seçilir (Məmmədov Q.Y. 2012 səh. 356).

Azərbaycanın Qərb bölgəsinin açıq boz qəhvəyi torpaqlarında fərqli becərmə texnologiyalarının qarğıdalının yaş və quru kütləsinə təsirinin öyrənilməsi üzrə aparılan tədqiqatda optimal cərgəarası becərmə sayında qarğıdalının məhsuldarlığının 20 – 30% yüksəldiyi qeydə alınmışdır (Məmmədov V.Ə., 2009, səh. 159).

Rusiya şəraitində müxtəlif kənd təsərrüfatı bitkilərinin torpaqmühafizəli və enerjiyəqənaətedici becərmələri geniş araşdırılmışdır.

Tədqiqatlarda əldə edilən məlumatlar təsdiq edir ki, cərgəarası becərilən bitki əkinlərində kultivasiya aparıldıqda torpaq yaşayış amilləri optimallaşdığına görə məhsuldarlıq xeyli yüksəlir (Çepelev Q.P. və b. 2020, səh. 20 – 25, Xaydarov A. 1991, səh. 17 – 19).

Qarğıdalının dən məhsuldarlığı mütərəqqi texnologiya ilə becərilən variantda, ənənəvi becərmə aparılan variantla müqayisədə hektardan 3,4 – 3,9 sentner artır (Qulidova B.A. 2017, səh. 51).

**Mövzunun aktuallığı.** Optimal səpin müddəti və bitki sıxlığında cərgəarası becərmə sayının qarğıdalının dən məhsuldarlığına təsiri mövzusunda elmi tədqiqat işinin tarla təcrübəsində əldə edilən müsbət nəticələrin istənilən təsərrüfat formalarında və analoji aqroekoloji şəraitlərdə tətbiq edilməsinin mümkünlüyü onun aktuallığının göstəricisidir.

**Tədqiqatın məqsədi.** Samux rayonunun açıq boz qəhvəyi torpaqlarında optimal səpin müddəti və bitki sıxlığında cərgəarası becərmə sayının ADAU – 80 qarğıdalı sortunun struktur göstəricilərinə və dən məhsuldarlığına təsirini öyrənməkdir.

**Tədqiqatın obyekti.** Tədqiqat obyekti kimi ADAU – 80 qarğıdalı sortu və optimal səpin müddəti və sıxlığında cərgəarası becərmə sayının müəyyən edilməsindən ibarətdir.

**Tədqiqatın elmi yeniliyi.** Samux rayonu şəraitində optimal səpin müddəti və bitki sıxlığında cərgəarası becərmə sayının ADAU – 80 qarğıdalı sortunun struktur göstəricilərinə və dən məhsuldarlığına təsiri ilk dəfə araşdırılır.

**Tədqiqatın metodları.** Tədqiqatın tarla təcrübəsində aparılan müşahidə və hesabatlar Kənd təsərrüfatı bitkilərinin dövlət sort sınağı metodikası ilə yerinə yetirilmişdir.

**Materiallar və müzakirələr.** Tədqiqatın tarla təcrübəsində optimal səpin müddəti və bitki sıxlığında cərgəarası becərmə sayının qarğıdalının ADAU – 80 sortunun struktur göstəricilərinə və dən məhsuldarlığına təsiri öyrənilmişdir.

Təcrübə aparılacaq sahədə sələf bitkisi payızlıq buda olduğuna görə 28 iyul 2024 – cü il tarixdə sahənin məhsulu yığıldıqdan dərhal sonra LD – 10 markalı alətdən istifadə etməklə 4 – 5 sm dərinlikdə üzləmə aparılmışdır. Sahədə çoxillik kökü – pöhrəli alaqlar cücərti əmələ gətirdiyinə görə 26 avqustda 10 – 12sm dərinlikdə təkrar üzləmə aparılmışdır. Torpağın əsas becərilməsi T – 74 traktoruna qoşulan P – 4 – 35 markalı kotanla 28 – 30sm dərinlikdə olmaqla 18 oktyabrda aparılmışdır.

Torpaqda nəmliyi saxlamaq üçün martın 14 – də ziq – mala çəkməklə torpaq becərilmiş həmin gün SKNK – 6 aqreqatından istifadə etməklə səpin aparılmışdır.

Səpici aqreqatda cərgəarası məsafə 60sm, cərgələrin sayı isə 4 olduğuna görə hər ləkin sahəsi 2,4 x 50 = 120m$^2$, variantların və təkrarların hər birinin sayı 4 olduğuna görə təcrübənin ümumi sahəsi 120m$^2$ x 4 x4 =1920m$^2$ təşkil etmişdir.

Tədqiqatın plan metodikasına uyğun olaraq qarğıdalının vegetasiya müddətində: - cücərtilərin 50% və 100% alınması, bir bitkidə əmələ gələn qıcanın sayı, qıcanın dən sıxımı, dənin mütləq çəkisi, bitkilərin boyunun hündürlüyü və dən məhsuldarlığı müəyyən edilmişdir.

Optimal bitki sıxlığı və səpin müddətində cərgəarası becərmə sayının qarğıdalının struktur göstəricilərinə və dən məhsuldarlığına təsirini müəyyən etmək üçün elmi tədqiqat işi aşağıdakı variantlarda öyrənilmişdir:

1 – ci variant: - cərgəaralarının bir dəfə becərilməsi (nəzarət)
2 – ci variant: - cərgəaralarının iki dəfə becərilməsi
3 – cü variant: - cərgəaralarının üç dəfə becərilməsi
4 – cü variant: - cərgəaralarının dörd dəfə becərilməsi

Təcrübənin bütün variantlarında bitki sıxlığı hektarda 55 min ədəd, səpin müddəti isə 14 aprel 2025 – ci il tarixi götürülmüşdür

Birinci kultivasiya bütün variantlarda olmaqla cücərtilər tam alındıqdan sonra, ikinci kultivasiya 2 – ci, 3 – cü və 4 – cü variantlarda birinci vegetasiya suvarmasından sonra, üçüncü kultivasiya 3 – cü və 4 – cü variantlarda ikinci vegetasiya suvarmasından sonra, dördüncü kultivasiya isə 4 – cü variantda olmaqla üçüncü vegetasiya suvarmasından sonra aparılmışdır.

Bitki sıxlığının, səpin müddətinin və cərgəarası becərmə sayının qarğıdalının struktur göstəricilərinə və dən məhsuldarlığına təsirini öyrənilməsi üzrə tədqiqatın tarla təcrübəsində əldə edilən nəticələr 1 saylı cədvəldə verilmişdir

**Cədvəl 1.**

**Optimal bitki sıxlığı və səpin müddətində cərgəarası becərmə sayının qarğıdalının struktur göstəricilərinə və dən məhsuldarlığına təsiri**

| Təcrübənin variantları | | | Bitkinin boyunun hündürlüyü, sm lə | Bir bitkidə qıcanın sayı, ədədlə | Qıcanın dən çıxımı % - lə | Dənin mütləq çəkisi qr - la | Dən məhsulu h/s – lə | Nəzarətə görə fərq | |
|---|---|---|---|---|---|---|---|---|---|
| Cərgəaralarının becərilmə sayı | Bitki sıxlığı əd/ha | Səpin müddəti | | | | | | h/s – lə | %-lə |
| Cərgəaralarının bir dəfə becərilməsi (nəzarət) | 55 | 14 ıv | 273,4 | 1,9 | 81,9 | 312,7 | 78,2 | - | - |
| Cərgəaralarının iki dəfə becərilməsi | 55 | 14 ıv | 278,6 | 2,0 | 82,3 | 315,4 | 79,6 | 1,4 | 2,4 |
| Cərgəaralarının üç dəfə becərilməsi | 55 | 14 ıv | 281,8 | 2,1 | 82,5 | 317,8 | 84,0 | 5,8 | 10,0 |
| Cərgəaralarının dörd dəfə becərilməsi | 55 | 14 ıv | 282,3 | 2,1 | 82,6 | 318,2 | 85,5 | 7,3 | 12,5 |

Cədvəldən aydın olur ki, optimal bitki sıxlığı və səpin müddətində cərgəarası becərmə sayının bir dəfədən üç və dörd dəfəyədək artırılması qarğıdalının struktur göstəricilərinə və dən məhsuldarlığına müsbət təsir göstərmişdir.

Cərgəaralarının bir dəfə becərildiyi nəzarət variantında orta hesabla bitkinin boyunun hündürlüyü 273,4sm, bir bitkidə qıcanın sayı 1,9 ədəd, qıcanın dən çıxımı 81,9%, dənin mütləq çəkisi 312,7 qram və hektardan əldə edilən dən məhsuldarlığı 78,2 sentner təşkil etmişdir.

Cərgəaralarının iki dəfə becərildiyi variantda nəzarət variantına nisbətən bitkilərin boyunun hündürlüyü 5,2sm, bir bitkidə qıcanın sayı 0,1 ədəd qıcanın dən çıxımı 0,4%, dənin mütləq çəkisi 2,4 qram və dən məhsuldarlığı 1,4s/ha artıq olmuşdur.

Cərgəaralarının bir dəfə becərildiyi nəzarət variantı ilə müqayisədə cərgəaralarının üç və dörd dəfə becərildiyi variantlarda uyğun olaraq bitkilərin boyunun hündürlüyü 8,4 və 8,9 sm, bir bitkidə qıcanın sayı 0,2 ədəd, qıcanın dən çıxımı 0,6 və 0,7%, dənin mütləq çəkisi 5,1 və 5,5 qr artmış, hektarda əldə edilən dən məhsuldarlığı isə 5,8 sen. (10%) və 7,3 sen. (12,5%) yüksəlmişdir.

## NƏTİCƏ

Samux rayonu açıq boz qəhvəyi torpaqları şəraitində optimal səpin müddəti və bitki sıxlığında cərgəarası becərmə sayının qarğıdalının struktur göstəricilərinə və dən məhsuldarlığına təsirinin öyrənilməsi üzrə tədqiqatın tarla təcrübəsində əldə edilən məlumatlara əsasən aşağıdakı nəticələr müəyyən edilmişdir:

- Optimal səpin müddəti və bitki sıxlığında qarğıdalının cərgəaralarının becərilmə sayı bitkilərin böyüməsinə, inkişafına və dən məhsuldarlığına fərqli təsir göstərir.
- Cərgəarası becərmə sayının vegetasiya suvarmaları ilə əlaqələndirilməsi bitkilərin torpaq yaşayış amillərinə tələbatının ödənilməsi əlverişli şərait yaradır.
- Cərgəaralarının bir dəfə becərildiyi varianta nisbətən üç və dörd dəfə becərmə aparılan variantlarda qarğıdalının struktur göstəriciləri üzrə üstün nəticələri əldə edilmişdir. Bu üstünlüklər uyğun olaraq: bitkinin boyunun hündürlüyünün 4,4 – 8,9sm, bitkidə qıcanın sayının 0,2 ədəd, qıcanın dən çıxımının 0,6 – 0,7%, dənin mütləq çəkisinin 5,1 – 5,5 qram çox və dən məhsuldarlığının 5,8 s/ha (10%) və 7,3 s/ha (12,5%) yüksəlməsi ilə xarakterizə edilir.

## ƏDƏBİYYAT

1. Abbasov R. B. – Влияние основных приемов возделования на урожайности зерно кукурузы в условиях Закаталинского района Азербайджанской Республике. Успехи современного наука 2015 №5, стр 15 - 18
2. İbrahimov A. Q., Qurbanov F. H., Hüseynov M.S. - Qarğıdalının sort və hibridləri, onların becərilmə texnologiyası. Bakı 2017. 240 səh.
3. Hüseynov M.M., İbrahimov A. Q., Həsənova A, O - Aqronomiyanın əsasları, Bakı 2015. 396 səh.
4. Məmmədov Q. J., İsmayılov M.M. – Bitkişilik, Bakı 2012, 356 səh.
5. Məmmədov V. Ə. – Qərb bölgəsi şəraitində bitki sıxlığının qarğıdalının yaş və quru kütləsinin toplanmasına təsiri: Azərbaycan Aqrar elmi № 5, 2009, səh. 159
6. Чепелев Г.П., Михайлова М. П. – Влияние структуры посева и нормы высева семян на формирование урожая сои сорта Кутроса. Ж. Земледелие №4, 2020, стр22 – 25
7.Хайдаров А. – Глубина и кратности междурядных обработок, 1991, №3, стр 17 – 19
8. Гулидова В.А. – Кукуруза на зерно. Современное возделования технология. Практическое руководство М. Колос 2017 51 стр.

**УДК 631**

# ВЛИЯНИЕ КОЛИЧЕСТВА МЕЖДУРЯДНЫХ ОБРАБОТОК НА УРОЖАЙНОСТЬ ЗЕРНА КУКУРУЗЫ ПРИ ОПТИМАЛЬНОМ ВРЕМЕНИ ПОСЕВА И ГУСТОТЕ СТОЯНИЯ РАСТЕНИЙ

**Тюнзаля Нияз Алиева**
**Азербайджанский Государственный Аграрный Университет**
**tunzale.yeraz@gmail.com**

***Резюме.*** *В статье изучено влияние количества междурядных обработок при оптимальном сроке посева и густоте стояния растений на структурные показатели и урожайность зерна*

*кукурузы. Полевые опыты проводились в 2020–2025 годах в Научно-Исследовательском Институте Защиты Растений и Технических Культур.*

*Объектом исследования является сорт кукурузы «ADAU-80». Для оценка влияния количества междурядных обработок на структурные показатели и урожайность зерна кукурузы при оптимальном сроке посева и густоте стояния растений исследования были выполнены по следующим вариантам:*

1. *однократная междурядная обработка;*
2. *двукратная междурядная обработка;*
3. *трехкратная междурядная обработка;*
4. *четырехкратная междурядная обработка.*

*Во всех вариантах опыта срок посева был проведен 14 апреля 2025 года и густота стояния растений составляла 55 тыс. раст./га.*

*Результаты наблюдений и учетов, проведенных в соответствии с рабочей программой, показали, что по сравнению с контрольным вариантом (однократная междурядная обработка) при трехкратной обработке междурядий количество початков на одном растении увеличилось на 0,2 шт., выход зерна из початка — на 0,6%, масса 1000 зерен — на 5,1 г, высота растений — на 8,4 см. Урожайность зерна возросла на 5,8 ц/га (10%), а уровень рентабельности повысился на12,5%*

***Ключевые слова:*** *срок посева, густота стояния растений, количество междурядных обработок, урожайность зерна кукурузы.*

**UDC 631**

## THE EFFECT OF THE NUMBER OF INTER-ROW CULTIVATIONS ON THE GRAIN YIELD OF MAIZE AT THE OPTIMAL SOWING TIME AND PLANT DENSITIES.

**Tunzala Niaz Aliyeva**
**Azerbaijan State Agrarian University**
**tunzale.yeraz@gmail.com**

***Summary.*** *The article describes the effect of the number of inter-row cultivations on the yield components and grain yield of maize at the optimal sowing time and plant densities. Field experiments were conducted during 2020–2025 at the Research Institute of Plant Protection and Technical Crops.*

*The maize variety ADAU-80 was used in trials. To determine the effect of the number of inter-row cultivation on components and grain yield of maize under optimal sowing time and plant density, the experimental variants include the followings:*

1. *single inter-row cultivation;*
2. *double inter-row cultivation;*
3. *triple inter-row cultivation;*
4. *quadruple inter-row cultivation.*

*In all experimental variants, sowing was conducted on April 14, 2025 and the plant density was consisted of 55000 plants per hectare.*

*The results of observations and determinations showed that conducting inter-row cultivation up to three times increased the number of ears per plant by 0.2, the grain weigh per an ear by 0.6%, the weight of 1000 kernels by 5.1 g and plant height by 8.4 cm compared to the control variant with (single inter-row cultivation). Grain yield increased by 5.8 cent/ha (10%), and profitability level also improved 12,5%*

***Keywords:*** *sowing time, plant density, number of inter-row cultivations, maize grain yield.*

Redaksiyaya daxilolma: 12.01.2026
Çapa qəbul olunma: 19.03.2026

№ 1/2026 səh.26-31

UOT:631.4:631.527:631.6

DOI 10.30546/JIECM.2026.001.2042

# HAMARLAYICI İŞÇİ ORQANIN PERFORMANS VƏ ENERJİ SƏMƏRƏLİLİYİNİN ARTIRILMASI

**Rəhimova Fəridə Ceyhun qızı**
**Azərbaycan Texnologiya Universiteti**
**f.rehimova@atu.edu.az**

***Xülasə.*** *Torpaqqoruyucu zolaqlarla becərmə texnologiyası torpağın münbitliyini qorumaq, eroziyanın qarşısını almaq və enerji sərfiyyatını optimallaşdırmaq məqsədilə tətbiq olunur. Lakin zolaqların formalaşdırılması zamanı səthdə qeyri-bərabər paylanma yaranır ki, bu da toxum səpin keyfiyyətinə, mexaniki yüklərə və yanacaq sərfiyyatına mənfi təsir göstərir. Məqalədə şum səthini hamarlayan işçi orqanın təkmilləşdirilmiş konstruksiyası təqdim olunur və onun aqrotexniki göstəricilərə təsiri araşdırılır. Aparılan sınaqlar göstərir ki, təkmilləşdirilmiş işçi orqan səthi daha bərabər formalaşdırır, enerji səmərəliliyini artırır və yanacaq sərfiyyatını azaldır. Təklif olunan yanaşma torpaqqoruyucu zolaqlarla becərmə texnologiyasının səmərəliliyini yüksəldir və resursqoruyucu kənd təsərrüfatı praktikası üçün perspektivlidir.*

***Açar sözlər:*** *zolaqlarla becərmə, torpaqqoruyucu texnologiya, işçi orqan, şum səthi, səthin hamarlanması, enerji səmərəliliyi, aqrotexnika.*

**Giriş.** Müasir kənd təsərrüfatında torpaq münbitliyinin qorunması və enerji resurslarının səmərəli istifadəsi prioritet məsələlərdəndir. Torpaqqoruyucu zolaqlarla becərmə texnologiyası yalnız səpin aparılacaq zolaqlarda torpağın işlənməsini nəzərdə tutur, qalan sahə toxunulmaz qalır. Bu yanaşma torpaq eroziyasının qarşısını alır, rütubətin saxlanmasına kömək edir və yanacaq sərfiyyatını azaldır.

Zolaqların formalaşdırılması zamanı torpaq kütlələrinin qeyri-bərabər paylanması səthdə mikrorelyef fərqləri yaradır. Bu, toxum səpin keyfiyyətinə, texnika və traktorların mexaniki yüklərinə mənfi təsir göstərir və enerji sərfiyyatını artırır. Ənənəvi şum orqanları bu problemlərin qarşısını tam ala bilmir. Bu səbəbdən innovativ işçi orqanların təkmilləşdirilməsi kənd təsərrüfatında məhsuldarlığın artırılması və enerji səmərəliliyinin optimallaşdırılması baxımından vacibdir. Zolaqlarla becərmə texnologiyası torpaqqoruyucu texnologiya olaraq, eyni bir sahədə növbəli əkin sisteminə imkan yaradır, traktor aqreqatının bir gedişində iki texnoloji əməliyyatın, yəni şumlama ilə eyni vaxtda torpağın səpinqabağı malalanmasını təmin edir. Kotanın üzərinə quraşdırılan tərtibat həm iqtisadi, həm də aqrotexniki cəhətdən səmərəlidir. Iqtisadi cəhətdən fermer malalama əməliyyatına sərf olunan vəsaitə qənaət etmiş olur, torpağın tapdalanaraq strukturunun, münbitliyinin qorunması baxımdan traktor aqreqatının sahədə gedişlərinin sayını azaldır, torpağın tapdalanmasını və sıxılmasını azaltmış olur [2,3,4].

Torpaqqoruyucu zolaqlarla becərmə sistemində əsas məqsədlərdən biri eroziyanın minimuma endirilməsidir. Səthin düzgün formalaşdırılması su axınının sürətini azaldır və torpaq hissəciklərinin yuyulmasının qarşısını alır.

Hamarlanmış səth:

Yağış sularının infiltrasiya qabiliyyətini artırır;

Yamaclarda suyun istiqamətli axınının qarşısını alır;

Torpağın struktur dayanıqlığını qoruyur.

Beləliklə, təklif olunan konstruksiya yalnız enerji qənaəti deyil, həm də torpağın uzunmüddətli münbitliyinin qorunmasına xidmət edir.

Şumlama əməliyyatından sonra torpağın malalanmasına "Aqrolizing ASC" xidmətinin normativlərinə görə bir ha. sahəyə 15 manat pul vəsaiti tələb olunur və malalamaya orta hesabla 16 kq/ha yanaqcaq sərf edilir.

**Tədqiqatın obyekti və metodikası.** Tədqiqatın obyekti torpaqqoruyucu zolaqlarla becərmə texnologiyasında şum səthini hamarlayan işçi orqandır.

İşçi orqanın konstruksiyası. Təkmilləşdirilmiş şum səthini hamarlayan işçi orqan uzunluğu 800 mm, qalınlığı 4 mm olmaqla polad vərəqdən hazırlanmışdır. Bu hamarlayıcı 3 gövdəli kotan gövdələrinin arxasında müəyyən bucaq altında nizamlana bilir. Şum aqreqatının hərəkət sürətindən asılı olaraq işçi orqan 30°, 40°, 60° və 70° bucaqlarda tədqiq edilmişdir [1,5].

*Metodika.* Təcrübələr aqreqatın 1,4 m/san və 1,8 m/san hərəkət sürətlərində aparılmışdır. Alınan nəticələr aşağıdakı cədvəllərdə öz əksini tapmışdır. Eksperimentlər sürətdən və hücum bucağından asılı olaraq torpağın xırdalanma dərəcəsi və şum səthinin kələkötürlüyü təyin edilmişdir.

**Cədvəl 1.**

**Hücum bucağından asılı olaraq torpağın xırdalanması aqreqatın hərəkət sürəti, $V_1$=1,4 m/san**

| Hücum bucağı,dərəcə / torpaq fraksiyası, mm | $\alpha_1=30^\circ$ | | $\alpha_2=40^\circ$ | | $\alpha_3=60^\circ$ | | $\alpha_4=70^\circ$ | |
|---|---|---|---|---|---|---|---|---|
| | Kq | % | Kq | % | kq | % | Kq | % |
| Ø100-dən kiçik | 3,68 | 4,33 | 3,24 | 35,6 | 2,29 | 25,7 | 1,5 | 20,9 |
| Ø 50-dək | 2,16 | 25,4 | 2,95 | 32,4 | 3,40 | 38,2 | 3,2 | 44,7 |
| Ø25-dək | 2,20 | 25,9 | 2,27 | 25,0 | 2,06 | 23,1 | 1,28 | 17,9 |
| Ø25-dən kiçik | 0,45 | 5,4 | 0,67 | 7,0 | 1,16 | 13,0 | 1,17 | 16,4 |
| Cəmi | 8,5 | 100 | 9,1 | 100 | 8,9 | 100 | 7,15 | 100 |

Cədvəl 1-dən göründüyü kimi şum aqreqatının 1,4 m/san hərəkət sürətində hamarlayıcının $\alpha_1=30^\circ$ hücum bucağında torpağın xırdalanma dərəcəsi Ø100 mm-dək torpaq hissəcikləri 43,3%, Ø50 mm-dək -25,4%, Ø25mm-dən-25,9%, Ø25 mm-dən kiçik torpaq hissəcikləri 5,4% təşkil edir. Hücum bucağının $\alpha_2=40^\circ$ qiymətini də uyğun olaraq 35,6%; 32,4%; 25,0% və 7,0%-ə bərabərdir,: $\alpha_3=60^\circ$ hücum bucağında torpağın xırdalanma dərəcəsi Ø100 mm-dək ölçüdə olan hissəciklər 25,7%, Ø50 mm-dək-38,2%, Ø25mm-dək-23,1%, Ø25 mm-dən kiçik hissəciklər isə 13,0% təşkil edir. Hamarlayıcı işçi orqanın hücum bucağı $\alpha_4=70^\circ$ olduqda xırdalanma dərəcəsi 20,9%; 44,7%; 17,9%; 16,4% olur [2,3].

Beləliklə, aqreqatın hərəkət sürətinin $V_1$=1,4 m/san qiymətində hamarlayıcının hücum bucağının $\alpha_1=30^\circ$-dən $\alpha_4=70^\circ$-dək artması ilə torpaq kəltəciklərinin ən iri hesab edilən Ø100 mm-dək hissəcikləri tədricən azalmağa başlayır, yəni əgər $\alpha_1=30^\circ$-də xırdalanma dərəcəsi 43,3% təşkil edirsə, $\alpha_4=70^\circ$-də xırdalanma 20,9%-ə dək azalır. Bu o deməkdir ki, Ø100 mm ölçüdə olan kəltənciklər təxminən 2 dəfə azalmış olur və torpağın xırdalanması yüksəlir.

Hamarlayıcının hücum bucağının artması ilə torpağın xırdalanması artır və iri kəltənciklərin faizi uyğun olaraq azalması ilə orta ölçülü kəltənciklərin (Ø50 mm, Ø25 mm və s.) faizi yüksəlir.

Əgər $\alpha_1=30^\circ$-də Ø50 mm-dən olan kəltənciklərin fraksiya tərkibi 25,4%-dirsə $\alpha_4=70^\circ$-də hücum bucağında 44,7%-ə dək artmış olur. Deməli, Ø100 mm-lik kəltənciklər hücum bucağının $\alpha_1=30^\circ$-dən $\alpha_4=70^\circ$-dək artması ilə 2 dəfə azalırsa, Ø50 mm-lik kəltənciklərin miqdarı dəfə artmış olur.

Ancaq Ø25 mm-ə dək hissəciklərin fraksiya tərkibi cüzi dərəcədə yəni 25,9%-dən 17,9%-ə dək azalır. Torpağın fraksiya tərkibində Ø25 mm-ə dən kiçik hissəciklərin faizinin artması tozlaşmasına gətirib çıxara bilər. Ona görə də hücum bucağını $\alpha_4=70^\circ$-dən yuxarı qaldırılması məqsədə uyğun deyil.

№ 1/2026 səh.26-31

Cədvəl 2.

**Aqreqatın hərəkət sürəti, $V_2$=1,8 m/san**

| hücum bucağı,dərəcə / torpaq fraksiyası, mm | $\alpha_1$=30° | | $\alpha_2$=40° | | $\alpha_3$=60° | | $\alpha_4$=70° | |
|---|---|---|---|---|---|---|---|---|
| | kq | % | Kq | % | kq | % | kq | % |
| Ø100-dən kiçik | 0,71 | 7,5 | 0,63 | 6,2 | 0,51 | 5,7 | 0,43 | 5,4 |
| Ø 50-dək | 2,61 | 27,4 | 3,79 | 37,2 | 3,60 | 40,4 | 3,65 | 46,2 |
| Ø25-dək | 5,56 | 58,6 | 4,89 | 37,2 | 3,50 | 39,4 | 2,39 | 30,3 |
| Ø25-dən kiçik | 0,62 | 6,5 | 0,89 | 8,6 | 1,29 | 14,5 | 1,43 | 18,1 |
| Cəmi | 9,5 | 100 | 10,2 | 100 | 8,9 | 100 | 7,9 | 100 |

Cədvəl 2-dən göründüyü kimi aqreqatın hərəkət sürətinin $V_{1=}$1,4 m/san-dən $V_{2=}$1,8 m/san-dək yüksəlməsi torpağın xırdalanma dərəcəsinə kəskin təsir edir. Əgər sürətin $V_{1=}$1,4 m/san və hücum bucağının $\alpha_1$=30° qiymətlərində Ø100 mm-ölşüsündə torpaq kəltənciklərinin miqdarı 43,3 % olarsa, aqreqatın hərəkət sürətini $V_{2=}$1,8 m/san-dək qaldırmaqla Ø100 mm ölçüsündə olan torpaq kəltənciklərinin miqdarı 7,5% təşkil edir, yəni torpağın xırdalanma dərəcəsi 6 dəfəyə yaxın yüksəlmiş olur.

Eyni sürətdə və hücum bucağının $\alpha_1$=30°, $\alpha_2$=40°, $\alpha_3$=60°, $\alpha_4$=70° qiymətlərində Ø25 mm-dən kiçik torpaq hissəciklərinin miqdarı uyğun olaraq 6,5%, 8,5%, 14,5%, və 18,1% təşkil edir.

Sınaqlar zamanı əsas qiymətləndirmə meyarları aşağıdakılardır:

Şum səthinin bərabərliyi

Toxum səpin keyfiyyəti

Yanacaq sərfiyyatı

Mexaniki yüklərin paylanması

Sınaqlar müqayisəli şəkildə aparılmışdır: ənənəvi şum orqanı ilə və təkmilləşdirilmiş işçi orqan ilə [8,10].

**Tədqiqatın nəticəsinin müzakirəsi və təhlili.**

Aparılmış eksperimental tədqiqatların nəticələri göstərir ki, şum səthinin hamarlanma dərəcəsi aqrotexniki göstəricilərlə birbaşa funksional asılılıq təşkil edir. Ənənəvi şum zamanı torpaq layının çevrilməsi nəticəsində səthdə 4–8 sm intervalında mikrorelyef fərqləri müşahidə olunmuşdur. Bu isə toxumun səpin dərinliyində variasiyalara səbəb olmuş, nəticədə bitkilərin cücərmə fazasında qeyri-bərabərlik yaranmışdır.

Təkmilləşdirilmiş işçi orqanın tətbiqi zamanı isə səth qeyri-bərabərliyi 2–3 sm intervalında sabitləşmişdir. Bu göstərici səpin aqreqatının iş sabitliyinə müsbət təsir göstərmiş, toxumun torpaqda yerləşmə dərinliyi optimallaşmış və cücərmə enerjisi yüksəlmişdir.

Şum aqreqatının dartı müqaviməti torpaq qatının strukturundan, rütubətindən və səth qeyri-bərabərliyindən asılıdır. Sınaqlar göstərmişdir ki, hamarlayıcı işçi orqanın optimal 40°–60° bucaq altında yerləşdirilməsi zamanı:

Dartı müqaviməti azalır;

Traktor mühərrikinin yüklənməsi sabitləşir;

Yanacaq sərfiyyatı orta hesabla 10–15% azalır.

Ənənəvi şum + ayrıca malalama əməliyyatı ilə müqayisədə birgə əməliyyatın tətbiqi:

Sahədə gediş sayını azaldır; vaxt itkisini minimuma endirir; torpağın ikinci dəfə tapdalanmasının qarşısını alır.

**№ 1/2026** **səh.26-31**

Bu isə yalnız iqtisadi deyil, həm də ekoloji baxımdan mühüm göstəricidir. Çünki torpağın sıxılma dərəcəsi azaldıqca onun su və hava rejimi yaxşılaşdırmış, mikrobioloji aktivliyini artırmış olur.

Sınaqlar göstərmişdir ki, təkmilləşdirilmiş işçi orqan:

Şum səthini daha bərabər formalaşdırır, mikrorelyef fərqlərini əhəmiyyətli dərəcədə azaldır,

Toxum səpin keyfiyyətini artırır,

Yanacaq sərfiyyatını azaldır,

Mexaniki yüklərin paylanmasını tarazlaşdırır.

Fermerlər əgər şum əməliyyatı ilə eyni vaxtda şum səthinin hamarlanmasını yerinə yetirsələr, bölgə üzrə (Gəncə-Qazax) təxminən 24 milyon manat vəsaitə qənaət edə bilərlər ki, bu da hər hektar sahədən 16 manat əlavə qənaət deməkdir.

**Elmi yenilik.** Təkmilləşdirilmiş şum səthini hamarlayan işçi orqanın tətbiqi ilə torpağın mikrorelyefi optimallaşdırılır və səpin keyfiyyəti artırılır. Bu yanaşma enerji səmərəliliyini yüksəldir, yanacaq sərfiyyatını azaldır və mexaniki yüklərin paylanmasını tarazlaşdırır. Beləliklə, tədqiqat yeni konstruksiya yanaşmasının torpaqqoruyucu zolaqlarla becərmənin effektivliyini artırdığını sübut edir.

**Praktiki əhəmiyyəti.**Təklif olunan işçi orqanın tətbiqi fermerlər üçün birbaşa praktik üstünlüklər yaradır:

Toxum səpin keyfiyyətinin yüksəlməsi məhsuldarlığı artırır;

Torpaq eroziyasının qarşısı alınır;

Traktor və texnika servis xərcləri azalır;

Enerji və yanacaq resurslarına qənaət olunur;

Təcrübələrdən aydın olur ki, ənənəvi şum zamanı gövdələr üzrə yük paylanması qeyri-bərabər olur. Bu, konstruktiv elementlərin sürətli aşınmasına səbəb olur.

Təkmilləşdirilmiş hamarlayıcı qurğu torpaq axınının istiqamətini tənzimləyərək gövdələr üzrə yükü balanslaşdırır. Nəticədə:

Konstruktiv elementlərin istismar müddəti uzanır;

Vibrasiya səviyyəsi azalır;

Aqreqatın stabilliyi yüksəlir.

Bu isə texniki xidmət xərclərinin azalmasına və maşın parkının istismar effektivliyinin artmasına səbəb olur.

**İqtisadi səmərəliliyi.** Təkmilləşdirilmiş işçi orqanın istifadəsi ilə:

Yanacaq və enerji sərfiyyatında əhəmiyyətli azalma

Mexaniki texnika xidmət xərclərində qənaət

Şum əməliyyatının effektivliyinin artması

Hər hektar üçün 16 manat əlavə qənaət

Bölgə üzrə 24 milyon manat iqtisadi səmərə

Bu göstəricilər fermerlər üçün maliyyə baxımından ciddi üstünlük təmin edir və resursqoruyucu kənd təsərrüfatı praktikası üçün perspektivlidir [6,7,9].

**Nəticə**. Beləliklə, tədqiqat göstərir ki, təkmilləşdirilmiş şum səthini hamarlayan işçi orqan torpaqqoruyucu zolaqlarla becərmə texnologiyasının effektivliyini artırır. Aparılmış tədqiqat sübut edir ki, şum səthini hamarlayan işçi orqanın konstruktiv təkmilləşdirilməsi:

Aqrotexniki keyfiyyət göstəricilərini yüksəldir;

Enerji səmərəliliyini artırır;

İqtisadi qənaət yaradır;

Ekoloji dayanıqlılığı təmin edir.

Təklif olunan konstruksiya torpaqqoruyucu zolaqlarla becərmə texnologiyasında kompleks optimallaşdırma mexanizmi kimi qiymətləndirilə bilər. İşçi orqanın tətbiqi səpin keyfiyyətini yüksəldir, enerji və yanacaq sərfiyyatını azaldır, mexaniki yükləri balanslaşdırır və məhsuldarlığı artırır. Bu yanaşma resursqoruyucu kənd təsərrüfatı praktikası üçün perspektivlidir və geniş tətbiq imkanına malikdir.

## ƏDƏBİYYAT

1. Abbasov Z.M., Bostan bitkilərinin zolaqlarla becərilməsi texnologiyası və maşınlar kompleksinin nəzəri və eksperimental əsasları, doktorluq dissertasiyası, Gəncə, 2009.
2. Abbasov Z.M, F.C.Rəhimova, Ş.M.Babayev və b. Yamaclarda şum səthini hamarlayan qurğu (Azərbaycan Respublikası Patent və Əmtəə Nişanları Mərkəzi, Patent, Faydalı model: ***A01B 15/04*** (2006.01). Bülleten № 10; Bakı 2022.
3. Abbasov Z.M, F.C.Rəhimova. Zolaqlarla becərmə texnlogiyasında şum səthini hamarlayan işçi orqanın tədqiqi. AMEA-Gəncə bölməsi 2019, №4(78), s.165-169.
4. F.C.Rəhimova.Torpaqqoruyucu Zolaqlarla becərmə texnlogiyasının və texniki vasitənin tədqiqi, Aşıq Ələsgərin anadan olmasının 200 illiyinə həsr olunmuş beynəlxalq elmi konfrans. Türkiyə,Kars. Səh..308-311.
5. Ş.M.Babayev, F.C.Rəhimova. Yamaclarda şum səthini hamarlayan qurğunun avtomatlaşdırılmış intiqal mexanizminin işlənməsi SCIENTIFIC WORK International scientific journal. Impact Factor 1.790. Bakı,2022.səh.155-159.
6. Arina Mixailova, jurnal Aqroinvestor, Moskva, 2 iyul 2021, s.1-27
7. Аббасов З.М., Валиев С.Ш. Применение почвозащитной технологии и система машин в Азербайджане. Сб. Научных работ Евроазийского союза Ученых, часть 5, Технические науки, Москва, 2014, стр 6-10
8. А.С.14644922. СССР, МНИ A01B79/02, Способ обработка почвы при полослвой земледелии// Аббасов.З.М. (СССР) №4190161/30-15 заявлено 09.02.87: опубл. 15.03.89. Бюл. №10.
9. З.М.Аббасов,Ф.Дж.Рагимова,Полосовое возделывание сельскохоз-яйственных культур. UTECA,Elmi xəbərlər,Gəncə 2018.səh.61-64.
10. Аббасов З.М, Рагимова Ф.Дж,.Теоретический анализ процесса пахоты при полосовой технологии. ЕВРАЗИЙСКИЙ СОЮЗ УЧЕНЫХ (ЕСУ) Ежемесячный научный журнал № 5 (62) / 2019 1 часть, ст 62-65.

Аббасов З.М, Ра

**УДК:631.4:631.527:631.6**

# ИННОВАЦИОННЫЙ ПОДХОД К СОВЕРШЕНСТВОВАНИЮ ВЫРАВНИВАЮЩЕГО РАБОЧЕГО ОРГАНА

**Фарида Джейхун кызы Рагимова**
**Азербайджанский Технологический Университет**
f.rehimova@atu.edu.az

***Резюме.*** *Технология полосного возделывания широко применяется для сохранения плодородия почвы, снижения эрозии и оптимизации расхода энергии. Однако при формировании полос происходит неравномерное распределение почвы, что отрицательно влияет на качество посева семян, механические нагрузки и расход топлива. В статье представлена усовершенствованная конструкция рабочего органа для выравнивания поверхности борозды и исследовано её влияние на агротехнические показатели. Проведённые испытания показали, что усовершенствованный рабочий орган формирует более ровную поверхность, повышает энергоэффективность и снижает расход топлива. Предлагаемый подход повышает эффективность технологии полосного возделывания и перспективен для ресурсосберегающего сельского хозяйства.*

***Ключевые слова:*** *полосное возделывание, почвозащитная технология, рабочий орган, поверхность борозды, выравнивание поверхности, энергоэффективность, агрономия.*

№ 1/2026 səh.26-31
UOT:631.4:631.527:631.6

## INNOVATIVE APPROACH TO IMPROVING THE LEVELING WORKING ELEMENT

**Farida Jeyhun Rahimova**
**Azerbaijan Technological University**
**f.rehimova@atu.edu.az**

***Summary.*** *Strip-tillage technology is widely applied to preserve soil fertility, reduce erosion, and optimize energy consumption. However, during strip formation, uneven soil distribution occurs, negatively affecting seed placement quality, mechanical loads, and fuel consumption. This paper presents an improved design of a furrow-smoothing implement and examines its effect on agro-technical indicators. Tests show that the improved implement forms a more even surface, enhances energy efficiency, and reduces fuel consumption. The proposed approach increases the efficiency of strip-tillage technology and is promising for resource-conserving agricultural practices.*

***Keywords:*** *strip-tillage, soil-conserving technology, implement, furrow surface, surface leveling, energy efficiency, agronomy.*

Redaksiyaya daxilolma: 03.02.2026
Çapa qəbul olunma: 19.03.2026

**№ 1/2026** **səh.32-39**

**UOT 636.082.251**
**DOI 10.30546/JIECM.2026.001.2046**

# HOLŞTİN CİNSLİ DÜYƏLƏRİN BALAVERMƏ QABİLİYYƏTİNƏ MÜXTƏLİF SELEKSİYALI TÖRƏDİCİ BUĞALARIN TƏSİRİ

**Sənəm Zabit qızı Ibrahimova, Vüsal Adil oğlu Mirzəyev, Asəf Eyyub oğlu Ruşanov**
**Azərbaycan Dövlət Aqrar Universiteti, Naxçıvan Dövlət Universiteti**
**senem.ibrahimova@mail.ru**

***Xülasə.*** *Son dövrlərə qədər dünyada maldarlıqda seleksiya termini süd və ya ət kimi istehsal xüsusiyyətləri ilə məhdudlaşırdı. Bazarda süd və ət məhsullarının yetəri qədər olması südün və ətin əhəmiyyətli dərəcədə ucuzlaşmasına gətirib çıxarmışdır. Belə olduğu halda istehsal xərclərinin azaldılmasının əhəmiyyəti xeyli artmışdır. Funksional əlamətlərin artan əhəmiyyəti ilə, damazlıq dəyərləri təxmin edilən əlamətlərin sayı da əhəmiyyətli dərəcədə artmışdır. Damazlıq təsərrüfatlar artıq ildə üç dəfə hər öküz üçün 45-dən çox damazlıq dəyəri əldə edə bilərlər. Ümumi Damazlıq Dəyərində (ÜDD) damazlıq dəyərlərinə və ya iqtisadi əhəmiyyətinə görə ümumiləşdirmə beynəlxalq təcrübədir.*

***Açar sözlər:*** *damazlıq dəyəri, törədici, mayalanma, buzov, funksional xüsusiyyət, eksteryer, məhsuldarlıq*

**Giriş.**İnəklərin dərin dondurulmuş sperma ilə süni mayalanma metodunun geniş istifadəsi şəraitlərində heyvanların müxtəlif damazlıq kateqoriyalarının seçim intensivliyində müxtəliflik müşahidə olunur. Ən intensiv seçim buğaların ata və analarının üzərinə düşür. Bu vəziyyətlə bağlı olaraq Şəki-Zaqatala və Dağlıq Şirvan iqtisadi rayonunun aparıcı təsərrüfatlarında müxtəlif seleksiyalı Holştin cinsli heyvanların ana və törədici buğaların atalarının anaları vasitəsilə məhsuldar uzunömürlülüyünün qiymətləndirilməsi aparılmışdır.

**Material və metodika.** Törədici buğaların damazlıq dəyərlərinin proqnozlaşdırılması üçün onların məhsuldarlıq xüsusiyyətləri bilinməlidir. Süd = Süd üçün nəsilə proqnozlaşdırılan ötürmə qabiliyyəti, kq ilə göstərilir. Müsbət rəqəmlər üstünlük təşkil edir. Yağ = Yağ üçün nəslə proqnozlaşdırılan ötürmə qabiliyyəti, kq və faizlə göstərilir. Müsbət kq və faizlərə üstünlük verilir. Protein = protein üçün nəslə proqnozlaşdırılan ötürmə qabiliyyəti, kq və faizlə göstərilir. Müsbət kq və faizlə olan göstəricilərə üstünlük verilir. Rel = etibarlılıq. Qızların/sürülərin/laktasiyaların sayından təsirlənən ata nəslinin faizlə etibarlılığı. İlk laktasiyanın məhsul istehsalı = 305 gün ərzində törədcilərin qızlarından əldə edilmiş süd (kq), yağ və zülala (%) görə faktiki orta göstərici.

Funksional xüsusiyyətlərdən hesab edilən Somatik Hüceyrə Sayının (SHS) mənfi göstəricilərinə üstünlük verilir. Qızın məhsuldarlığı = boğazlığa qədər olan mayalanmaların sayı – 100 %, məsələn, hər boğazlığa 2 mayalanma olarsa 50 % - ə bərabər olur. Qızların törəmə qabiliyyətinin 1 % artımı boş günlərinin 4 gün azalamasına bərabərdir. Müsbət fazilərə üstünlük verilir. Məhsuldarlığın davamlılığı = 180 gün ərzində proqnozlaşdırılan süd istehsalı pik istehsala bölünür (%). Müsbət faizlərə üstünlük verilir. Uzunömürlülük = məhsuldar ömür törədicinin qızlarından ömür boyu gözləyə biləcəyiniz əlavə və ya az məhsuldar günlərin (ilk doğumdan kəsimə qədər) ümumi sayı kimi ölçülür. Yaşlı heyvanlarda bu əmsal gənc heyvanlara nisbətən daha azdır. Müsbət günlərə üstünlük verilir [2].

Ölü doğuş = buzov ölümü ilk laktasiya edən heyvanlarda doğuşdan sonra 24 saat ərzində ölü doğulmuş buzovların faizi olmaqla mənfi göstəricilərə üstünlük verilir.

Doğuşun çətinliyi = ilk laktasiya edən heyvanlarda buğaların toxumundan alınan buzovların çətin hesab edilən doğuş faizidir. Mənfi faizlərə üstünlük verilir.

Uyğunluq xüsusiyyətləri.

**№ 1/2026** **səh.32-39**

Ölçü = proqnozlaşdırılan bədən ölçüsü və formasının nəsilə ötürmə qabiliyyətidir. Bu xüsusiyyətdə kiçik ölçülərə üstünlük verilir.
Südlük xarakteri = Sağım qabiliyyətinin fiziki sübutu. Bu xarakteri qoruyarkən ümumi məhsuldarlığa əsas diqqət yetirilir. 100-dən yuxarı müsbət qiymətlərə üstünlük verilir.
Yelin = yelin ölçüsü və forması üçün nəslə proqnozlaşdırılan ötürmə qabiliyyəti. 100-dən yuxarı müsbət qiymətlərə üstünlük verilir.
Ayaqlar = ayaq və ətrafların ölçüsü və forması üçün nəslə proqnozlaşdırılan ötürmə qabiliyyəti. 100-dən yuxarı müsbət qiymətlərə üstünlük verilir.
Ümumi dəyər = Tip üçün proqnozlaşdırılan ötürmə qabiliyyətinin xülasəsi. 100-dən yuxarı müsbət qiymətlərə üstünlük verilir [4].

Törədicilərin nəsil şəcərəsi, funksional, məhsuldarlıq və eksteryer xüsusiyyətləri öyrənildikdən sonra məqsədə nail olmaq üçün təcrübə və nəzarət qruplarındakı heyvanların süni mayalandırılması üçün Almaniya seleksiyası və İsrail seleksiyasına mənsub törədici buğaların nəsil şəcərəsi, məhsuldarlıq, funksional, irsiyyət, eksteryer göstəriciləri, eləcə də, dişi balalarının 1 – ci laktasiyada süd məhsuldarlığı göstəriciləri öyrənilmişdir. Tədqiqatların birinci mərhələsində törədici buğaların analarının məhsuldar uzunömürlülük göstəriciləri hesablanmışdır. Alınmış məlumatlar əsasında Almanya (10 baş) və İsrail (baş) seleksiyasına məxsus nəzarət və təcrübə qrupu olmaqla 20 baş buğa törədici olaraq seçilmişdir (Cədvəl 1). Həmin törədicilərdən F1 nəslinin alınması üçün istifadə edilmişdir.

**Cədvəl 1**

**İsrail seleksiyasına mənsub törədicilərin nəsil şəcərəsi və məhsuldarlıq xüsusiyyətləri**

| S/S | Şəcərə | | | | | | | Məhsuldarlıq xüsusiyyətləri | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | Rel% | Süd,kq | Protein | | Yağ | |
| | Törədici adı | İdentifikasiya (ISRM0000000) | Atası- | Anası | Doğulduğu tarix | Qızları | Naxırları | | | kq | % | kq | % |
| 1. | Garden | 7851 | Jermin | Dogit | 22.12.2011 | 1144 | 367 | 99 | 239 | 18,3 | 0,09 | 31,3 | 0,19 |
| 2. | Jacer | 7968 | Jerom | Sigar | 14.08.2013 | 100 | 76 | 88 | 219 | 13,9 | 0,06 | 13,4 | 0,05 |
| 3. | Mesufon | 7977 | Massey | Sufon | 15.09.2013 | 472 | 223 | 97 | 71 | 5,7 | 0,03 | 18,5 | 0,13 |
| 4. | Shizaf | 7989 | Santana | Dogit | 27.09.2013 | 343 | 194 | 96 | 305 | 12,1 | 0,02 | 41,8 | 0,25 |
| 5. | Vegas | 7972 | Wins | Gasper | 30.11.2013 | 15 | 13 | 63 | 391 | 13,3 | 0,01 | 17,6 | 0,03 |
| 6. | Yoel | 7854 | Jermin | Sigar | 26.12.2011 | 106 | 77 | 91 | 237 | 4,7 | -0,02 | 13,3 | 0,04 |
| 7. | Arizin | 9175 | Erdman | Zaka | 02.12.2016 | 720 | 306 | 53 | 747 | 18,9 | -0,03 | 17,1 | -0,08 |
| 8. | Busni | 9033 | Borussia | Sadash | 15.08.2014 | 544 | 281 | 55 | 520 | 22,0 | 0,05 | 23,4 | 0,04 |
| 9. | Macon | 9130 | Moonray | Argaman | 03.01.2016 | 263 | 120 | 55 | 730 | 20,3 | -0,02 | 39,1 | 0,10 |
| 10 | Rosario | 9120 | Raleb | Sted | 10.10.2015 | 199 | 95 | 56 | 581 | 22,8 | 0,04 | 36,2 | 0,12 |

Nəzarət və təcrübə qrupunda olan inəklərin mayalandırılması, eyni zamanda onların məhsuldarlıq göstəricilərinin yaxşılaşdırılması məqsədilə hər bir törədici buğanın məhsuldarlıq xüsusuiyyətləri araşdırılmışdır. Bu zaman onların funksional xüsusiyyətləri, o cümlədən, həmin xüsusiyyətlərin nəslə ötürülməsi qabiliyyəti nəzərə alınmışdır (Cədvəl 2).

№ 1/2026 səh.32-39

Cədvəl 2

**İsrail seleksiyasına mənsub törədicilərin funksional və eksteryer xüsusiyəttləri**

| Törədicilər | Funksional xüsusiyyətlər | | | | | | | | 1 – ci laktasiyada məhsuldarlıq | | | | Eksteryer | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | SHS | Atanın buzovları | | Qızın buzovları | | Uzunömürlülük (günlə) | Dözümlülük % | Qızın məhsuldarlığı, % | Süd, kq | Yağ, % | Protein, % | Rel., % | Bədən ölçüsü | Ətraflar | Yelin dərinliyi | Əmziklərin ölçüsü | Yelin |
| | | Ölü doğum, % | Doğuş çətinliyi % | Ölü doğum, % | Doğuş çətinliyi, % | | | | | | | | | | | | |
| Garden | 0,15 | -0,9 | -1,2 | 0,6 | -0,2 | 96 | -1,3 | -0,21 | 12397 | 3,82 | 3,27 | 85 | 107 | 104 | 103 | 99 | 104 |
| Jacer | 0,27 | 0,3 | -0,7 | -0,6 | -0,6 | -15 | -0,8 | 1,29 | 12148 | 3,71 | 3,23 | 64 | 102 | 100 | 99 | 105 | 101 |
| Mesufon | -0,21 | -0,3 | -0,2 | 0,5 | -0,2 | 28 | -2,2 | -1,36 | 12033 | 3,75 | 3,20 | 77 | 104 | 101 | 108 | 111 | 113 |
| Shizaf | 0,00 | 1,5 | 4,1 | -0,8 | -0,9 | 21 | -1,5 | -0,02 | 12429 | 3,85 | 3,16 | 80 | 116 | 106 | 106 | 115 | 114 |
| Vegas | 0,01 | -0,2 | 1,3 | -0,6 | -0,5 | 90 | 1,2 | 1,36 | 12714 | 3,56 | 3,11 | 58 | 98 | 101 | 102 | 103 | 104 |
| Yoel | -0,08 | 1,6 | 0,5 | 1,7 | 0,0 | 13 | -2,8 | 1,46 | 12344 | 3,63 | 3,13 | 64 | 105 | 102 | 101 | 101 | 103 |
| Arizin | -0,01 | 0,0 | 1,4 | -2,1 | 0,5 | 129 | 1.6 | 0,51 | 12257 | 3,71 | 3,21 | 56 | 103 | 101 | 106 | 106 | 107 |
| Busni | 0,36 | 0,1 | -1,3 | -3,0 | 0,0 | 35 | -0,8 | -0,53 | 12305 | 3,64 | 3,24 | 56 | 104 | 101 | 105 | 109 | 107 |
| Macon | 0,07 | 0,7 | 0,9 | -2,0 | -0,2 | 105 | -1,4 | 0,02 | 12146 | 3,80 | 3,15 | 56 | 102 | 102 | 99 | 107 | 102 |
| Rosario | -0,32 | 1,3 | 2,3 | 1,4 | 1,0 | 127 | 0,3 | -1,96 | 12311 | 3,68 | 3,20 | 56 | 103 | 103 | 100 | 99 | 102 |

İqtisadi səmərəliliyin artırılmasına yönəlmiş heyvandarlıqda bütün iqtisadi əhəmiyyətli xüsusiyyətlər nəzərə alınmalıdır. Yetişdirmə planında bir neçə xüsusiyyət nəzərə alınarsa, indeks seçiminin bütün digər seleksiya üsullarından üstünlüyü sübuta yetirilir. Yetişdirmə məqsədlərini təyin etmək üçün fərdi xüsusiyyətlərin iqtisadi əhəmiyyəti hesablanmalıdır.

Ümumi iqtisadi damazlıq dəyəri iqtisadi səmərəni maksimuma çatdırmağa yönəlib. Süd və ət məhsuldarlıq xüsusiyyətləri ilə yanaşı, xərcləri azaldan eksteryer xüsusiyyətləri də heyvanın damazlıq dəyərinə təsir edir. Ümumi Damazlıq Dəyəri (ÜDD - REL) seleksiya göstəricisidir və heyvandarlıq məqsədinin riyazi tərifini ifadə edir [1,3]. Fərdi xüsusiyyətlər üçün müvafiq dəqiqliklə hesablanmış damazlıq dəyərləri fərdi heyvan üçün ümumi damazlıq dəyərinin iqtisadi hesablanması üçün çox vacibdir. Ümumi damazlıq dəyərini hesablamaq üçün damazlıq hədəf əlamətlərinin iqtisadi göstəriciləri və müvafiq genetik parametrlər məlum olmalıdır (Cədvəl 3,4). Sadə dillə desək, ayrı-ayrı əlamətlər üçün təxmin edilən damazlıq dəyərləri əlamətlər və ya təxmin edilən damazlıq dəyərləri arasında müvafiq dəqiqlik və korrelyasiya nəzərə alınmaqla müvafiq iqtisadi əmsallara vurulur [5].

**Cədvəl 3**

**Almaniya seleksiyasına mənsub törədicilərin nəsil şəcərəsi və məhsuldarlıq xüsusiyyətləri**

| S/S | Şəcərə | | | | | | | Məhsuldarlıq xüsusiyyətləri | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | | | | | Rel% | Süd,kq | Protein | | Yağ | |
| | Törədici adı | İdentifikasiya (DE) | Atası | Atasının anası | Doğulduğu tarix | Qızları | Naxırları | | | kq | % | kq | % |
| 1. | Benstar | 10.833.521 | Bennie | Dollyanna | 18.06.2014 | 850 | 241 | 103 | 1681 | 55 | -0,02 | 59 | -0,06 |
| 2. | Freezer | 10.572.990 | Finder | Liesje | 23.03.2016 | 127 | 101 | 107 | 733 | 20 | -0,04 | 29 | 0,00 |
| 3. | Heli | 10.204.364 | Comedy | Eilen | 18.10.2014 | 255 | 173 | 105 | 102 | 4,2 | 0,05 | 16,1 | 0,06 |
| 4. | Hurley | 10.509.538 | Huey | Legndry | 27.05.2015 | 261 | 158 | 101 | 200 | 24 | 0,16 | 79 | 0,68 |
| 5. | Justinus | 10.204.783 | Justin | Paulina | 10.01.2016 | 116 | 88 | 72 | 145 | 11,7 | 0,04 | 20,3 | 0,11 |
| 6. | Lips | 10.203.307 | Martiz | Maike | 19.10.2015 | 130 | 80 | 69 | 154 | 10,9 | 0,11 | 18,4 | 0,20 |
| 7. | Niscala | 10.203.296 | Simon | Antje | 18.10.2016 | 87 | 62 | 60 | 355 | 18,4 | 0,08 | 20,3 | 0,16 |
| 8. | Nito | 10.203.257 | Nedap | Karen | 15.11.2015 | 187 | 121 | 78 | 217 | 18,2 | -0,05 | 14,6 | 0,20 |
| 9. | Rabin | 10.202.334 | Pellegro | Rooster | 25.10.2016 | 356 | 289 | 117 | 520 | 18,5 | 0,11 | 24,0 | 0,26 |
| 10. | Raddison | 10.833.493 | Radar | Huey | 10.12.2016 | 175 | 110 | 99 | 702 | 32 | 0.04 | 40 | 0,07 |

**№ 1/2026** **səh.32-39**

**Cədvəl 4**

**Almaniya seleksiyasına mənsub törədicilərin funksional, eksteryer xüsusiyyətləri**

| Törədicilər | Funksional xüsusiyyətlər | | | | | | | | | 1 – ci laktasiyada məhsuldarlıq | | | | Eksteryer | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | SHS | Atanın buzovları | | Qızın buzovları | | Uzunömürlülük (günlə) | Dözümlülük % | Qızın məhsuldarlığı, % | Süd, kq | Yağ, % | Protein, % | Rel., % | Bədən ölçüsü | Ətraflar | Yelin dərinliyi | Əmziklərin ölçüsü | Yelin |
| | | Ölü doğum, % | Doğuş çətinliyi,% | Ölü doğum, % | Doğuş çətinliyi, % | | | | | | | | | | | | |
| Benstar | 0,19 | -0,3 | 0,8 | 0,9 | 0,6 | 80 | -1,5 | -0,23 | 11189 | 3,71 | 3,22 | 79 | 110 | 103 | 103 | 101 | 117 |
| Freezer | 0,31 | 0,2 | 0,6 | 1,2 | 0,4 | 22 | 1,1 | -0,82 | 12050 | 3,68 | 3,22 | 70 | 112 | 104 | 108 | 104 | 112 |
| Heli | -0,14 | 0,2 | -0,2 | -1,0 | -0,6 | 29 | 1,0 | 1,44 | 12445 | 3,62 | 3,20 | 74 | 99 | 102 | 105 | 108 | 105 |
| Hurley | 0,06 | 0,7 | -0,3 | 0,2 | 0,6 | 43 | 2,1 | 1,11 | 12328 | 3,76 | 3,20 | 71 | 100 | 106 | 106 | 110 | 113 |
| Justinus | 0,10 | 0,4 | 0,4 | 0,8 | 0,9 | 70 | 1,2 | 1,41 | 12515 | 3,49 | 3,18 | 60 | 97 | 99 | 103 | 100 | 108 |
| Lips | 0,11 | -0,9 | -0,2 | -0,4 | -0,4 | 119 | -1,1 | 0,95 | 12187 | 3,57 | 3,12 | 71 | 101 | 101 | 101 | 102 | 104 |
| Niscala | 0,07 | 0,8 | 0,6 | 1,3 | -0,7 | 82 | -0,7 | -1,12 | 12237 | 3,63 | 3,15 | 68 | 105 | 100 | 100 | 104 | 108 |
| Nito | -0,19 | -0,6 | 0,5 | 0,6 | 0,5 | 43 | 1,1 | 0,88 | 12622 | 3,74 | 3,21 | 55 | 103 | 102 | 103 | 107 | 105 |
| Rabin | -0,02 | -0,1 | -1,6 | -0,7 | -0,9 | 86 | 1,0 | -0,46 | 12389 | 3,64 | 3,18 | 61 | 108 | 100 | 105 | 105 | 104 |
| Raddison | 0,13 | 2,1 | 1,7 | 0,9 | -0,6 | 67 | -1,3 | 1,55 | 12351 | 3,80 | 3,23 | 50 | 115 | 100 | 100 | 101 | 109 |

Nəzarət və təcrübə qrupu analoq üzrə təyin olunmuşdur. Belə ki, 2018 – ci ildə hər bir təsərrüfat üzrə 1 – ci laktasiya olan düyələr seçilmişdir. Nəzarət qrupu heyvanları Almaniya, təcrübə qrupu heyvanları isə İsrail seleksiyasına məxsus buğa toxumları ilə süni mayalandırılmışdır. Bu məqsədlə hər bir seleksiyaya məxsus 700 buğa toxumu sifariş verilmişdir. Süni mayalanma işlərinə 2018 – ci ildən başlanmışdır. Nəzarət qrupunda ümumilikdə 620 baş düyə süni mayandırılmışdır. Mayalanmış heyvanlardan 96 başı ovulyasiya ilə həvəsə gətirilmişdir. Boğazlığın müayinəsi zamanı 434 baş heyvanın, o cümlədən, 304 baş düyənin ilk mayalanmadan boğaz olduğu müəyyən olunmuşdur. Dövrün sonunda 431 baş heyvan, o cümlədən 19 başı əkiz doğmuşdur. Əldə edilmiş 450 baş buzovun 236 başı dişi, 214 başı isə erkək doğulmuşdur (Cədvəl 5). Nəzarət qrupunda əldə olunmuş birinci nəsil (F1) üzrə tədqiqat panı üzrə növbəti dövrlərdə istifadə edilmişdir.

**Cədvəl 5**

**2018 - ci il ərzində nəzarət qrupu heyvanlarının mayalandırılmasında istifadə olunan törədici toxumları və alınmış balalar (F1 nəsil)**

| Törədici | | Mayalanma | | Boğazlığın təyini | | | | Balavermə | | Buzovlar | | | | | | Uğursuz mayalanma |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | Cəm | | İlk mayalanma | | | | Dişi | | | Erkək | | | |
| İdentifikasiya (DE) | Adı | Cəm | Ovulyasiya | Baş | % | Baş | % | Cəmi | Əkiz | Cəm | Çətin doğuş | Ölü | Cəmi | Çətin doğuş | Ölü | |
| 10.833.521 | Benstar | 50 | 15 | 36 | 72,00 | 12 | 34,29 | 22 | 1 | 5 | | 1 | 8 | 1 | | 14 |
| 10.572.990 | Freezer | 30 | 9 | 21 | 70,00 | 10 | 47,62 | 14 | | 10 | | | 4 | | | 9 |
| 10.204.364 | Heli | 35 | 5 | 21 | 60,00 | 11 | 36,67 | 22 | 1 | 12 | | | 11 | | | 14 |
| 10.509.538 | Hurley | 35 | 9 | 22 | 62,86 | 13 | 50,00 | 20 | 3 | 14 | 2 | 1 | 9 | | 1 | 13 |
| 10.202.264 | Justin | 120 | 15 | 89 | 74,17 | 81 | 77,14 | 98 | 7 | 61 | 6 | 3 | 44 | 5 | 3 | 31 |
| 10.203.307 | Lips | 60 | 3 | 47 | 78,33 | 39 | 68,42 | 49 | 1 | 28 | 1 | | 22 | 2 | 1 | 13 |

| | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| 10.203.296 | Niscala | 100 | 10 | 68 | 68,00 | 45 | 50,00 | 72 | | 41 | | 2 | 31 | | | 23 |
| 10.203.257 | Nito | 35 | 5 | 23 | 65,71 | 21 | 70,00 | 24 | | 8 | | 1 | 16 | 1 | | 12 |
| 10.202.334 | Rabin | 115 | 20 | 79 | 68,70 | 57 | 60,00 | 87 | 5 | 41 | 5 | 3 | 51 | 7 | 1 | 29 |
| 10.833.493 | Raddison | 40 | 5 | 28 | 70,00 | 15 | 42,86 | 23 | 1 | 6 | | | 18 | | | 12 |
| | | 620 | 96 | 434 | | 304 | | 431 | 19 | 236 | 14 | 11 | 214 | 16 | 6 | 170 |

Holştin cinsli heyvanların İsrail seleksiyasına məxsus törədici buğaların toxumu ilə mayalandırılması təcrübə qrupunda yerinə yetirilmişdir. Təcrübə qrupunda 83 baş düyə ovulyasiya (nəzarət qrupundan 13 baş az) olmuşdur. Boğazlığın təyini zamanı 488 baş düyənin, o cümlədən, ilk mayalanmadan 366 baş düyənin boğaz olduğu aşkar edilmişdir. Bu göstərici nəzarət qrupu üzrə müvafiq olaraq 54 baş və 62 baş artıq olduğu məlum olmuşdur (Cədvəl 6).

**Cədvəl 6**

**2018 - ci ildə təcrübə qrupu heyvanlarının mayalandırılmasında istifadə olunan törədici toxumları və alınmış balalar (F1 nəsil)**

| Törədici | | Mayalanma | | Boğazlığın təyini | | | | Balavermə | | Buzovlar | | | | | | Uğursuz mayalanma |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | | | | Cəm | | İlk mayalanma | | | | Dişi | | | Erkək | | | |
| İdentifikasiya (DE) | Adı | Cəm | Ovulyasiya | Baş | % | Baş | % | Cəmi | Əkiz | Cəm | Çətin doğuş | Ölü | Cəmi | Çətin doğuş | Ölü | |
| 000000007851 | Garden | 65 | 20 | 48 | 73,85 | 32 | 71,11 | 55 | | 32 | | | 23 | | 1 | 17 |
| 000000007968 | Jacer | 70 | 14 | 56 | 80,00 | 31 | 55,36 | 46 | 2 | 29 | 2 | 1 | 19 | | | 14 |
| 000000007977 | Mesufon | 60 | 6 | 51 | 85,00 | 34 | 62,96 | 24 | | 13 | | 1 | 11 | | | 9 |
| 000000007989 | Shizaf | 100 | 8 | 83 | 83,00 | 73 | 79,35 | 80 | 5 | 58 | | | 27 | 1 | | 17 |
| 000000007972 | Vegas | 40 | 5 | 27 | 67,50 | 18 | 51,43 | 18 | | 11 | | | 7 | | | 13 |
| 000000007854 | Yoel | 60 | 3 | 41 | 68,33 | 38 | 66,67 | 60 | | 37 | 2 | 1 | 23 | 1 | 2 | 19 |
| 000000009175 | Arizin | 40 | 8 | 29 | 72,50 | 19 | 59,38 | 17 | 1 | 12 | 1 | 1 | 6 | 1 | | 11 |
| 000000009033 | Busni | 50 | 5 | 36 | 72,00 | 27 | 60,00 | 29 | 2 | 20 | | | 11 | | | 14 |
| 000000009130 | Macon | 45 | 6 | 40 | 88,89 | 35 | 89,74 | 31 | | 16 | 1 | | 15 | 2 | 1 | 5 |
| 000000009120 | Rosario | 90 | 8 | 77 | 85,56 | 59 | 71,95 | 84 | 3 | 55 | 4 | 4 | 32 | 6 | | 13 |
| | | 620 | **83** | **488** | | **366** | | **444** | **13** | **283** | **10** | **8** | **174** | **11** | **4** | **132** |

Məlumdur ki, inəklərin rahat doğum etməsi onların mayalandırıldığı törədici toxumundan asılıdır. Doğuşun asan və ya çətinliyi, ölü doğum, əkiz doğum və s. kimi göstəricilər birbaşa törədici toxumunun keyfiyyət və genetik göstəricisi hesab edilə bilər [5]. Cədvəl 6 – dan aydın olur ki, 444 baş doğmuş (13 baş əkiz) düyədən 457 baş buzov əldə edilmişdir. Doğulmuş buzovların 283 başı dişi, 174 başı isə erkək olmuşdur. Doğulmuş dişi buzovların sayı 47 baş çox, erkəklərin sayı isə 40 baş az olmuşdur. Uğursuz mayalanmaların sayı təcrübə qrupunda nəzarət qrupuna nisbətən 48 baş az olmuşdur.

**№ 1/2026** **səh.32-39**

Alınmış F1 nəslin dişi nümayəndələri tədqiqatın növbəti mərhələlərində nəzarət və təcrübə qruplarında istifadə olunmuşdur.

## ƏDƏBİYYAT

1. Шишкина, Т. В. Современные методы оценки племенных и продуктивных качеств животных : учебное пособие / Т. В. Шишкина. — Пенза : ПГАУ, 2022. — 200 с
2. Коханов, А. П. Селекция в животноводстве / А. П. Коханов, М. А. Коханов, Н. В. Журавлев. – Издание 2-е переработанное и дополненное. – Волгоград : Волгоградский государственный аграрный университет, 2014. – 140 с.
3. Taylor, V.J., Hattan, A.J., Bleach, E.C., Beever, D.E., Wathes, D.C. Reproductive function in average and high yielding dairy cows // Oss. Publ. 2001, No. 26, Brit. Soc. Anim. Sci.. S. 495-498.
4. Konersmann, Y., Wemheuer, W., Brenig, B. / Herkunft, Verbreitung und Bedeutung des CVM-Gendefekts in der HolsteinFriesian-Population. 2003, Züchtungskunde, 75. S. 9-15. Stuttgart, Eugen Ulmer Verlag
5. Caton, J., K. Vonnahme, J. Reed, T. Neville, C Effertz, C. Hammer, J. Luther, D. Redmer,and L. Reynolds. 2007. Effects of maternal nutrition on birth weight and postnatalnutrient metabolism. in: Proc. International Symposium on Energy and Protein Metabolism. EAAP Publication 124:101-102.

**УДК 636.082.251**

# ВЛИЯНИЕ РАЗНЫХ СЕЛЕКЦИОННЫХ ПОТОМСТВЕННЫХ БЫКОВ НА СПОСОБНОСТЬ ВОСПРОИЗВОДСТВО ТЕЛКОВ ГОЛШТИНСКОЙ ПОРОДЫ

**Санам Забит Ибрагимова, Вусал Адиль Мирзаев, Асаф Эйюб Рушанов**
**Азербайджанский государственный аграрный университет**
**Нахчыванский Государственный Университет**

***Резюме.****До недавнего времени термин «разведение» в животноводстве во всем мире ограничивался такими производственными признаками, как молоко или мясо. Достаточное предложение молочной и мясной продукции на рынке привело к значительному снижению цен на молоко и мясо. В этом случае значимость снижения издержек производства существенно возросла.С ростом значимости функциональных признаков значительно увеличилось и количество признаков, по которым оценивается племенная ценность. Племенные фермы теперь могут достигать более 45 племенных показателей на быка три раза в год. Агрегирование валовой племенной ценности (ВПЦ) на основе племенной ценности или экономической значимости является международной практикой.*

***Ключевые слова:*** *племенная ценность, прародитель,оплодотворение, теленок, функциональный признак, экстерьер, плодовитость.*

**UDC 636.082.251**

# INFLUENCE OF DIFFERENT SELECTION-PROVEN SIRE BULLS ON THE REPRODUCTIVE PERFORMANCE OF HOLSTEIN HEIFERS

**Sanam Zabit Ibrahimova, Vusal Adil Mirzayev, Asaf Eyyub Rushanov**
**Azerbaijan State Agrarian University**
**Nakhchivan State University**
**senem.ibrahimova@mail.ru**

***Summary.****Until recently, the concept of "breeding" in livestock production worldwide was primarily associated with production traits such as milk and meat yield. However, an adequate supply of milk and meat products on the market has led to a significant decrease in their prices, thereby substantially increasing the importance of reducing production costs.*

**№ 1/2026** **səh.32-39**

*Under these conditions, the role of functional traits has increased considerably, including reproductive performance, viability, and longevity of animals. Consequently, the number of traits used for breeding value evaluation has expanded significantly. At present, breeding farms are able to evaluate the breeding value of bulls based on more than 45 traits, with assessments conducted up to three times per year.*

*The aggregation of total breeding value (TBV) based on individual breeding values and their economic importance is a widely accepted international practice and allows for a more objective assessment of the influence of selection-proven sire bulls on the reproductive traits of their offspring.*

***Keywords:*** *breeding value, ancestor, fertilization rate, calf, functional traits, conformation, fertility.*

Redaksiyaya daxilolma: 15.01.2026
Çapa qəbul olunma: 19.03.2026

**№ 1/2026** **səh.40-45**

**UOT 551.465:551.583**
**DOI 10.30546/JIECM.2026.001.2049**

# AZƏRBAYCANIN DƏNİZ SAHİLİ ƏRAZİLƏRİNDƏ XƏZƏR DƏNİZİNİN SƏVİYYƏSİNİN DƏYİŞMƏSİNƏ UYĞUNLAŞMA

**[1]Rəhimova A.H., [1]Əliyeva M.G. [2]Əhmədova A.R.**
*[1] "Su və Meliorasiya Elmi Tədqiqat İnstitutu" Publik Huquqi Şəxsi, Bakı, Azərbaycan*
*[2]AR ETN "Coğrafiya İnstitutu" Publik Hüquqi Şəxs, Bakı, Azərbaycan*
afat.rahimova@smeti.gov.az, e.aygün1986@mail.ru

***Xülasə:*** *Dünyanın ən böyük daxili su hövzəsi olan Xəzər dənizində su səviyyəsi hazırda çoxillik müşahidələr əsasında qeydə alınan minimum həddə düşmüşdür. Xəzər dənizinin çoxillik səviyyə tərəddüdləri Azərbaycan Respublikasının sahilboyu ərazilərində ekoloji, sosial və iqtisadi risklərin artmasına səbəb olmuşdur. Son onilliklərdə dəniz səviyyəsinin enməsi, liman və nəqliyyat infrastrukturunun dayazlaşması, sahil ekosistemlərinin deqradasiyası və bioresursların azalması ilə müşayiət olunmuşdur. Məqalədə Xəzər dənizi səviyyə dəyişmələrinin Azərbaycan sahillərinə təsiri təhlil edilir, ekoloji və iqtisadi riskləri minimuma endirməyə yönəlmiş adaptasiya strategiyaları təklif olunur. Nəticələr göstərir ki, Xəzər dənizi səviyyəsinin dəyişkənliyinə effektiv uyğunlaşma elmi tədqiqatlar, davamlı sahil idarəçiliyi və regional əməkdaşlığı birləşdirən kompleks yanaşma tələb edir. Bu tədbirlərin həyata keçirilməsi davam edən qlobal iqlim dəyişikliyi şəraitində Azərbaycanın sahil ərazilərinin uzunmüddətli ekoloji təhlükəsizliyini və davamlı inkişafını təmin etmək üçün vacibdir.*

***Açar sözlər:*** *Xəzər dənizi, səviyyə dəyişməsi, adaptasiya strategiyaları, sahil zonası, iqlim dəyişiklikləri.*

**Giriş.**Xəzər dənizi dünyanın ən böyük qapalı su hövzəsidir. Sahəsinin böyüklüyünə görə onu Dəniz adlandırırlar. Xəzər dənizi Azərbaycan, Rusiya, Qazaxıstan, Türkmənistan və İranla əhatələnir. NASA-nın peşəkar peyk (radar altimetriya) ölçmələrindən əldə edilmiş modelləşdirmələrə görə, Xəzər dənizində su səviyyəsi əsrin sonuna qədər 9–18 metr arası düşə bilər, bu isə dünyanın ən böyük daxili su hövzəsinin səthinin 25 %-nin itirilməsi və təxminən 93000 km² yeni quru ərazinin üzə çıxmasına səbəb ola bilər — bu sahə Portuqaliyanın ölçüsü qədərdir. Xəzər dənizi 2015-ci ildən bəri həyəcan verici bir sürətlə geriləyir və son beş ildə suyun səviyyəsi təxminən 80 santimetr azalıb. Baltik sistemi üzrə Xəzər dənizinin səviyyəsinə dair məlumatlara əsasən, onun səviyyəsi −29 metr göstəricisindən aşağı enmişdir ki, bu da xüsusilə Rusiya və Qazaxıstanla həmsərhəd olan dayaz şimal hissədə daha aydın müşahidə olunur. Dənizin geri çəkilməsi nəticəsində dəniz dibinin geniş sahələri, o cümlədən bioloji cəhətdən zəngin və sıx məskunlaşmış ekosistemlərin yerləşdiyi ərazilər üzə çıxır. Son illərdə su səviyyəsinin azalması Xəzərin kövrək ekosisteminə, xüsusilə nərə balığı və Xəzər suitisi kimi nəsli kəsilməkdə olan növlərə ciddi təhlükə yaratmışdır [6, 7].

Azərbaycanın Xəzər dənizinin sahil zonalarında məskunlaşmanın və təsərrüfat fəaliyyətinin yüksək sıxlığı, neft-qaz infrastrukturu, nəqliyyat-kommunikasiya xətləri və rekreasiya obyektlərinin mövcudluğu səviyyə dəyişmələrinin nəticələrini daha da həssas edir. Bu baxımdan, dəniz səviyyəsinin dinamikasının öyrənilməsi, risklərin qiymətləndirilməsi və uyğunlaşma tədbirlərinin hazırlanması həm ekoloji təhlükəsizlik, həm də dayanıqlı regional inkişaf baxımından xüsusi əhəmiyyət daşıyır.

**Tədqiqatın obyekti** Xəzər dənizinin Azərbaycan sahilləridir.

**Təhlil və müzakirə.** Xəzər dənizinin səviyyəsində qeyri-sabit dəyişkənliklər sahilboyu ərazilərin təsərrüfat və sosial infrastrukturu üçün ciddi risklər yaradır. Bu səbəbdən uyğunlaşma strategiyaları uzunmüddətli inkişaf və risklərin azaldılması üçün mühüm əhəmiyyət kəsb edir. Xəzər dənizində suyun azalması ən əsas iqlim amilləri, temperaturun kəskin artması nəticəsində buxarlanmanın çoxalması və dənizə düşən yağıntıların, eləcə də qidalandırıcı çaylardan, xüsusən də, Volqa və Ural çaylarından suyun axınının azalması ilə əlaqələndirilir. Temperatur artımı ilə yanaşı,

külək rejiminin dəyişməsi də səviyyənin düşməsinə ciddi təsir göstərir. Xəzərin suyunun 80%-dən çoxunu təmin edən Volqa çayı yeni bəndlərin tikintisi və sahilləri boyunca kənd təsərrüfatını inkişaf etdirmək üçün suvarma sistemlərinin genişləndirilməsi səbəbindən getdikcə Xəzərə az su gətirir [4].

Son 15 ildə dənizin şərq sahil xətti bəzi hissələrdə 8-10 kilometr geri çəkilib. Qazaxıstanın Ölü Kultuk körfəzi tam quruyub, Manqışlaq körfəzi kiçilib və yerində yeni adalar əmələ gəlib. Bu müddətdə cəmi 5 metrlik dərinliyə malik Qaraboğazgöl körfəzinin şərq sahili 26 kilometr geri çəkilmişdir. Abşeron yarımadasının ətrafında sahil dərin olduğuna görə geri çəkilmə məsafələri şimaldakı qədər böyük deyil. Suyun səviyyəsinin kəskin enməsi nəticəsində sahil xətti geri çəkilərək, Zığ ərazisini Qum adası ilə birləşdirib. Abşeron Milli Parkının yerləşdiyi, yarımadanın "qartal dimdiyi" formalı qurtaracağı uzanıb və enlənib. Bakı bulvarının ən dayaz hissələrində də sahil xətti 15-20 metr geriyə çəkilib [2].

Xəzər dənizinin səviyyəsinin enməsi Abşeron, Neftçala, Lənkəran və Astara sahil zonalarında sahil xəttinin əhəmiyyətli dərəcədə geri çəkilməsi ilə nəticələnmiş, liman və balıqçılıq sektorunun fəaliyyət imkanlarını məhdudlaşdırmış və torpaq və su ekosistemlərində mühüm ekoloji dəyişikliklərə gətirib çıxarmışdır. Bu proses Azərbaycanın ekoloji təhlükəsizliyi və iqtisadi inkişafı üçün strateji əhəmiyyət daşıyan kompleks məsələ kimi qiymətləndirilə bilər. Sahilyanı ərazilərdə aparılan sahə müşahidələri və müəlliflər tərəfindən müxtəlif mövqelərdən çəkilmiş fotoşəkillər göstərir ki, geri çəkilmə prosesi əsasən dayaz akkumulyativ sahələrdə daha intensiv xarakter daşıyır (Şəkil 1a, b) [1].

.



a)



b)

**Şəkil 1. (a, b) Xəzər dənizinin geri çəkilməsi nəticəsində Abşeron yarımadasının Novxanı sahil zonasında sahil xəttinin dəyişməsi**

Dənizinin səviyyəsi son 100 ildə 3 dəfə kəskin dəyişmişdir.

1996-Dənizin orta illik səviyyəsi 1929-1977- ci illərdə 3,2 m enmiş, 1978-1995- ci illərdə 2,5 metrə qədər yüksəlmiş, 1996-2023-cü illərdə 2,0 m-ə qədər azalmış və hazırda da enməkdədir. Sonuncu qalxma prosesi nəticəsində Respublikamızın təqribən 850 km uzunluqlu sahil xətti zonasında 50 min hektara qədər torpaq sahəsi subasmaya məruz qalmışdır. 1978-1995-cı illərdə kəskin qalxması zamanı sahil zonasında yerləşən sənaye və kənd təsərrüfatı infrastrukturlarına xeyli zərər dəymişdir. Xəzər dənizinin səviyyəsi 1996-cı ildən başlayaraq enməkdədir. Əvvəllər su basmış torpaq əraziləri su altından çıxaraq sahil zonasında neqativ ekoloji halların yaranmasına səbəb olmuşdur. Təqribi hesablamalara görə Respublika üzrə bütün sahilboyu ərazidə 38 min hektara qədər torpaq sahəsi dəniz altından çıxmışdır. Bu proses nəticəsində ən böyük ziyanlar dəniz gəmiçiliyinə, kənd təsərrüfatına, neft-qaz sənayesinə, balıqçılıq təsərrüfatına, kurort-rekreasiya obyektlərinə s. sahələrə dəyir. Səviyyənin mütəmadi (fasiləsiz) olaraq azalması 2005–ci ildən başlayaraq orta hesabla ildə 10 sm sürətlə davam etməkdədir [1,3,4,5] , (Şəkil 2, cədvəl 1).

№ 1/2026 səh.40-45




**Şəkil 2. Xəzər dənizi səviyyəsinin (2005– 2022- ci illər) enməsi**

**Cədvəl 1.**

**Azərbaycan respublikasında inzibati rayonlar üzrə subasmış və su altından çıxmış sahil əraziləri (ha)**

| Rayonlar | Sahil xəttinin uzunluğu, km | Subasma sahələri 1977-1995 | Dəniz altından çıxmış sahələr 1996-2022 |
|---|---|---|---|
| | | Səviyyə -26,50 mBS | Səviyyə -28,40 mBS |
| Xaçmaz | 66,0 | 2070 | 1573 |
| Dəvəçi | 20,7 | 1040 | 790 |
| Siyəzən | 39,6 | 610 | 464 |
| Xızı | 26,1 | 510 | 388 |
| Bakı meriyası | 289,6 | 3820 | 2029 |
| Salyan | 11,7 | 60 | 46 |
| Neftçala | 94,6 | 13270 | 10085 |
| Qızılağac qoruğu | 102,0 | 23900 | 18164 |
| Masallı | 31,5 | 2670 | 2903 |
| Lənkəran | 35,1 | 410 | 312 |
| Astara | 21,1 | 90 | 68 |
| Cəmi | 738,1 | 48450 | 36822 |

Aparılmış tədqiqatlar göstərmişdir ki, Lənkəran, Neftçala və Abşeron sahillərində vaxtilə səviyyə qalxması dövründə tikilmiş sahil mühafizə qurğuları daşqın axımlarının təsiri nəticəsində zədələnmiş və onların effektivliyi əhəmiyyətli dərəcədə zəifləmişdir. Bu isə dənizlə sərhəddə yerləşən yaşayış məntəqələri və sənaye infrastrukturu üçün əlavə risklər formalaşdırmışdır. Dəniz səviyyəsinin enməsi ilə bağlı müşahidələr çay mənsəblərinin dayazlaşması, su dövranının pozulması və mənsəb ekosistemlərinin deqradasiyası kimi ciddi ekoloji nəticələr doğurmuşdur.

Xəzər səviyyəsinin dəyişkənliyinin qanunauyğunluqlarını müəyyən etmək məqsədilə aparılmış genişmiqyaslı tədqiqatlara baxmayaraq, bir çox problemli məsələlər hələ də tam həllini tapmayıb. Buna görə də bu istiqamətdə tədqiqatlar aktuallığını qoruyaraq davam etdirilməlidir.

Dəniz səviyyəsinin idarə olunması müasir şəraitdə yalnız məhdud miqyasda mümkündür. Buna görə sahil ərazilərinin təsərrüfat istifadəsində əsas prinsip səviyyənin proqnozlaşdırıla bilməyən dəyişikliklərinə adaptasiya olmalı, risklərin azaldılması üçün isə maliyyə mexanizmləri, məsələn, sığorta tətbiq edilməlidir [8].

Xəzər dənizinin səviyyə dəyişmələri qlobal iqlim dəyişmələri və hidroloji amillərlə əlaqəli olduğundan, həll imkanları məhduddur və bu problem yalnız beynəlxalq əməkdaşlıq çərçivəsində effektiv şəkildə həll edilə bilər. Azərbaycan və digər Xəzəryanı dövlətlər Xəzər dənizinin və dəniz

ətraf mühitinin mühafizəsi üçün regional əməkdaşlıq aparır. Tehran Konvensiyasında ətraf mühitin qorunması, neft çirklənməsinə qarşı mübarizə, quruda çirklənmədən mühafizə, transsərhəd ətraf mühitə təsirin qiymətləndirilməsi və biomüxtəlifliyin qorunması üzrə sahilyanı dövlətlər arasında dörd protokolu təsdiq etmişdir. Həmçinin yeni monitorinq və məlumat mübadiləsi protokolu üzərində müzakirələr davam edir, yeni fəaliyyət planları hazırlanır [9,10,11].

**Nəticə.** Azərbaycanın Xəzər dənizinin sahil ərazilərində təsərrüfat fəaliyyətlərinin əsas prinsipi su səviyyəsinin proqnozlaşdırılması çətin olan dəyişikliklərinə adaptasiya olunmaqdır. Eyni zamanda, Xəzər dənizinin səviyyə dəyişmələrinin Azərbaycan sahillərində potensial ekoloji və iqtisadi təsirləri minimuma endirməyə yönəlmiş adaptasiya yanaşmaları təqdim olunur.

*Təsərrüfat və infrastrukturun adaptasiyası*: sahilboyu yaşayış məntəqələri, limanlar və sənaye obyektlərinin dizaynında səviyyə dəyişmələrinə davamlı texnologiyalar tətbiq edilməlidir.

*Torpaq və ekosistem qorunması*: Sahil zolağının eroziya və su basmalarına qarşı təbii və süni qoruyucu sistemlər qurulmalıdır.

*Suvarma və meliorasiya sistemlərinin təkmilləşdirilməsi:* Kənd təsərrüfatında səviyyə dəyişkənliyinə uyğun fəaliyyət göstərən adaptiv suvarma sistemləri tətbiq edilməli, subartezian quyuları və kanal şəbəkələri dəniz səviyyəsinin dəyişikliklərinə uyğun şəkildə modernləşdirilməlidir.

*Risklərin maliyyə mexanizmləri ilə idarə olunması*: sığorta proqramları və maliyyə dayanıqlılığını təmin edən digər mexanizmlər risklərin azaldılmasında mühüm rol oynayır.

*İctimai maarifləndirmə və monitorinq*: dəniz səviyyəsinin davamlı monitorinqi və əhalinin məlumatlandırılması sahil zolağının idarə olunmasını effektiv edir.

## ƏDƏBİYYAT

1. Abbasova G.N. və başqaları. Xəzər dənizinin səviyyəsinin dəyişməsinin Azərbaycanın sahil ərazilərinin ekoloji və iqtisadi vəziyyətinə təsirinin qiymətləndirilməsi mövzusu üzrə SMETİ-nin elmi hesabatı. Bakı, 2025.
2. Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi. Xəzər dənizinin səviyyə dəyişmələri üzrə monitorinq hesabatları [Elektron resurs].–Bakı, müxtəlif illər.–URL: https://eco.gov.az
3. Əmir Əliyev. “Müasir dövrdə Xəzər dənizinin səviyyə dəyişmələri: səbəblər və nəticələr. “Elm və həyat” elmi jurnalı, Bakı: 2024, səh 37-41. https://igaz.az/az/news/1725
4. Aliyev A.S. Changes in the level of the Caspian sea in the modern period, The reports of national academy of sciences of Azerbaijan, 2024, VOLUME LXXX, No. 1-2 (2024), DOI:10.59423/gnr.2024.83.40.012
5. The Impact of the Envıronmental Sıtuatıon on the Landscapes of the Caspıan Sea Coast's Azerbaıjan https://doi.org/10.1051/bioconf/202515102005 BIO Web Conf.Volume 151, 2025.International Conference “Mountains: Biodiversity, Landscapes and Cultures” (MBLC-2024) Section-Climate Change and Environment (Scopus bazalı) Shafiqa Humbatova[1], Gunay Abbasova[2], and Mahmud Humbatov[3].
6. NASA Earth Observatory. (2021). The Caspian’s Shallow North. Retrieved from https://earthobservatory.nasa.gov/images/149054/the-caspians-shallow-north
7. Volga-Caspian Branch of the Caspian Fisheries Research Institute. The level of the Caspian Sea fell below −29 m (Baltic Height System) [Electronic resource]. July 2025. Based on TASS / EADaily / AzeMedia materials. – URL: https://eadaily.com
8. IPCC. Climate Change 2022: Impacts, Adaptation and Vulnerability. Cambridge University Press; 2022. https://www.ipcc.ch/report/ar6/wg2/
9. Tehran Convention Secretariat. 2025. Caspian Sea Level Decline: Joint Efforts Toward Preservation and Resilience – Declaration adopted at COP30 (Belem). Tehran Convention Secretariat. https://tehranconvention.org/en/news/caspian-sea-level-decline-joint-efforts-toward-preservation-and-resilience-event-concludes-with-declaration-at-cop30

10. Joint Declaration regarding Caspian Sea adopted in Belem (COP30, 18 Nov 2025). Mənbə: Report.az — "Joint Declaration regarding Caspian Sea adopted in Belem", ekoloji sahədə COP30 çərçivəsində qəbul olunan birgə bəyannamə barədə. https://report.az/en/ecology/joint-declaration-regarding-caspian-sea-adopted-in-belem

11. Caspian Sea Level Decline: Joint Efforts Toward Preservation and Resilience Event Concludes with Declaration at COP30 — yüksək səviyyəli tədbirin sonunda Xəzər dənizinin səviyyəsinin azalmasına dair sahilyanı ölkələr tərəfindən Bəyannamənin qəbul olunduğu bildirilir. Bu sənəd COP30 çərçivəsində müzakirə olunub və regional əməkdaşlığın gücləndirilməsini əhatə edir. https://tehranconvention.org/en/news/caspian-sea-level-decline-joint-efforts-toward-preservation-and-resilience-event-concludes

**УДК 551.465:551.583**

## АДАПТАЦИЯ ПРИБРЕЖНЫХ ТЕРРИТОРИЙ АЗЕРБАЙДЖАНА К ИЗМЕНЕНИЯМ УРОВНЯ КАСПИЙСКОГО МОРЯ

**[1]Рагимова А.Г.,[1]Алийева М.Г., [2]Ахмедова А.Р.**
**[1]Научно-исследовательский институт воды и мелиорации, г. Баку**
**[2]Институт Географии МНО АР**
**[1]afat.rahimova@smeti.gov.az, [2]e.aygün1986@mail.ru**

***Резюме.****В настоящее время уровень воды в Каспийском море — крупнейшем внутреннем водоёме мира — достиг исторического минимума. Многолетние колебания уровня Каспийского моря привели к росту экологических, социальных и экономических рисков в прибрежных районах Азербайджанской Республики. В последние десятилетия понижение уровня моря сопровождается отступлением береговой линии, обмелением портовой и транспортной инфраструктуры, засолением почв, деградацией прибрежных экосистем и сокращением биоресурсов. В статье анализируется влияние изменений уровня Каспийского моря на побережье Азербайджана и предлагаются научно обоснованные адаптационные стратегии, направленные на снижение экологических и экономических рисков. Показано, что эффективная адаптация требует комплексного подхода, объединяющего научные исследования, устойчивое управление прибрежными зонами и региональное сотрудничество.*

***Ключевые слова:*** *Каспийское море, изменение уровня, адаптационные стратегии, прибрежная зона, изменение климата.*

**UDC 551.465:551.583**

## ADAPTATION OF COASTAL AREAS OF AZERBAIJAN TO CHANGES IN THE CASPIAN SEA LEVEL

**[1]Rahimova A.H., [1]Aliyeva M.G, [2]Ahmadova A.R**
**[1]Amelioration Scientific Research Institute, Baku, Azerbaijan**
**[2]Institute of Geography MSE AR**
**[1]afat.rahimova@smeti.gov.az, [2]e.aygün1986@mail.ru**

***Summary*** *At present, the water level of the Caspian Sea, the largest inland water body in the world, has reached a historical minimum. Long-term fluctuations in the Caspian Sea level have led to increasing environmental, social, and economic risks in the coastal areas of the Republic of Azerbaijan. In recent decades, sea level decline has resulted in shoreline retreat, shallowing of port and transport infrastructure, soil salinization, degradation of coastal ecosystems, and reduction of biological resources. This article analyzes the impacts of Caspian Sea level changes on the Azerbaijani coast and proposes scientifically grounded adaptation strategies aimed at minimizing*

**№ 1/2026** **səh.40-45**

*environmental and economic risks. The findings indicate that effective adaptation requires an integrated approach combining scientific research, sustainable coastal management, and regional cooperation.*

***Keywords:*** *Caspian Sea, sea level change, adaptation strategies, coastal zone, climate change.*

Redaksiyaya daxilolma: 11.02.2026
Çapa qəbul olunma: 19.03.2026

**№ 1/2026** **səh.46-52**

| **UOT 632.1** |
|---|
| **DOI 10.30546/JIECM.2026.001.2053** |

# İQLİM DƏYİŞİKLİYİ KONTEKSTİNDƏ BİTKİLƏRDƏ GÖBƏLƏK XƏSTƏLİKLƏRİNİN QARŞISININ ALINMASI VƏ İDARƏ EDİLMƏSİ

**Nailə Həsrət qızı Cabbarlı**
**Əkinçilik Elmi Tədqiqat İnstitutunun elmi işçisi**
**tmammadova79@gmail.com**

***Xülasə.*** *Qlobal iqlim dəyişikliyi konteksində yüksək temperatur, quraqlıq və sel kimi ekstremal iqlim hadisələrinin tezliyi artmışdır. Bununla yanaşı, bitkilərin göbələk xəstəlikləri ilə yoluxması daha tez-tez və ciddi hala gəlmişdir. Beləliklə də məhsulun böyüməsi və qida istehsalı ciddi şəkildə təhdid altında olduğu müəyyən edilmişdir. Bu məqalədə iqlim dəyişikliyi ilə əlaqəli məhsul göbələk xəstəliklərinin kəskinləşməsinə diqqət yetirilmişdir. İqlim dəyişikliyinin torpaqla keçən göbələk xəstəliklərinə, hava ilə keçən göbələk xəstəliklərinə və toxumla keçən göbələk xəstəliklərinə təsiri ilə bağlı aparılan tədqiqatlardakı nəticələr ümumiləşdirilmiş və məhsulda göbələk xəstəliklərinin diaqnozu üçün istifadə olunanənənəvi metodlar müzakirə olunmuşdur. Müqayisəli təhlil əsasında ekoloji nəzarət konsepsiyası təklif olunmuşdur. Ekoloji nəzarət məhsul-xəstəliyin biologiyası-torpağın dinamik balansını qoruya, məhsulların sağlam böyüməsi üçün yaxşı mühit təmin edə və iqlim dəyişikliyi kontekstində yeni göbələk xəstəliklərinə nəzarət metodu təqdim edə bilər.*

***Açar sözlər:*** *iqlim dəyişikliyi; bitkilər; göbələk xəstəlikləri; irəliləyişlər*

**Giriş.** Dünya əhalisinin sürətlə artması və verilən proqnozlaar göstərir ki, bu say 2050-ci ilə qədər 9,7 milyardı keçəcək və insanların qidaya tələbatı artmağa davam edəcəkdir. Lakin, qlobal miqyasda bitki məhsuldarlığı xəstəliklər səbəbindən ciddi şəkildə azalır və demək olar ki, məhsul itkisinin böyük hissəsi təxminən 70-80%-i göbələklərdən qaynaqlanır [1]. Dünya miqyasında təxminən 1,5 milyon göbələk növü mövcuddur ki, bunlardan yalnız Fusarium 100-dən çox məhsulda, məsələn, pomidor solması [3], qarğıdalı pası və buğda fusarium baş çürüməsinə [5] səbəb olur. Həqiqətən də, əksər məhsullar göbələk xəstəliklərinə həssasdır, düyü çürüməsi [6], buğdada pas, düyüdə və buğdada [9] 10-35% və 15-20% məhsul itkisinə səbəb olur. Göbələk xəstəlikləri artıq qlobal ərzaq təhlükəsizliyinə ciddi təhlükə yaratsa da [10], iqlim dəyişikliyinin irəliləməsi bu təhlükəni daha da dərinləşdirib və bunun insanlar üçün yaratdığı çətinliyin mürəkkəbliyini göstərir.

İqlim dəyişikliyinin qida bitkilərinin məhsuldarlığını azaltmaq potensialına malik olduğu geniş şəkildə qəbul edilmişdir [4]. Sənaye inqilabından bəri qlobal orta temperatur 1,5°C artmışdır. Model proqnozlaşdırır ki, temperaturun 1,6°C-3°C artması kartof məhsuldarlığının 18-32% azalmasına səbəb olacaq [15], bu da xüsusilə narahatlıq doğuran məslələrdəndir, çünki qlobal orta temperatur 2100-cü ildə 2,6°C-3,1°C artacaqdır. Beləliklə, bu onu göstərir ki, bu günə qədər məhsuldarlığın azalması gələcəkdə daha da ciddiləşə bilər. Bundan əlavə, iqlim dəyişikliyi məhsullar üçün patogen olan göbələklərin böyüməsini stimullaşdırır və göbələk xəstəliklərinin yayılmasını artırır. Daha yüksək temperatur qlobal miqyasda əksər göbələk patogenlərinin nisbi bolluğunu artıracaq [7] və göbələk patogenləri daha yüksək temperaturda daha aqressiv şəkildə davranacqlar (Şəkil 1). Daşqınlar həmçinin torpaq axını vasitəsilə patogen göbələklərin yayılmasını təşviq edən digər amillər arasındadır. Məsələn, Colletotrichum-un yağışın yuyulması yolu ilə soğan becərilən sahələrə çatdıqdan sonra sürətlə yoluxduğu və xəstəliyin geniş yayılmasına səbəb olduğu göstərilmişdir [9]. Bundan əlavə, daşqınlar səbəbindən nisbi rütubətin artması qış buğdasında yarpaq ləkəsi və ya digər göbələk xəstəliklərinin alovlanmasına səbəb ola bilər . Həmçinin bildirilmişdir ki, quraqlıq və duz stresi şəraitində lobya kök çürüməsinin yoluxma nisbəti 25-100%-ə qədər artırır [2].

Ümumiyyətlə, qlobal iqlim dəyişikliyi kontekstində bitkilərin göbələk xəstəlikləri daha sürətlə yayılır, daha geniş əraziyə yayılır və daha çox zərər verir. Bundan əlavə, hazırda ən çox istifadə edilən

**№ 1/2026** **səh.46-52**

kimyəvi pestisidlər artıq yetərli deyil, çünki onlar bitkilərə zərər verir və patogen göbələklərin davamlılıq qazanmasına və ətraf mühitin çirklənməsinə səbəb olur. Bu mənzərə tədqiqatçıları göbələk xəstəliklərinin ekoloji qarşısının alınması və nəzarətinə nail olmaq üçün mikrob-bitki-torpaq qarşılıqlı təsirlərini bütövlükdə yenidən nəzərdən keçirməyə sövq etmişdir. Bu məqalədə iqlim dəyişikliyi ilə əlaqəli bitkilərin yetişdirilməsində göbələk xəstəliklərinin kəskinləşməsinə diqqət yetirilir; iqlim dəyişikliyinin torpaqla, hava ilə və toxumla keçən göbələk xəstəliklərinə təsiri ilə bağlı tədqiqatlar ümumiləşdirilmiş; məhsul göbələk xəstəliklərinin diaqnozu metodları müzakirə olunmuş və bu cür yanaşmaların müqayisəli təhlillərinə əsaslanaraq məhsul sağlamlığının qorunması, məhsul göbələk xəstəliklərinin qarşısının alınması və nəzarətdə saxlanılması üçün ekoloji qarşısının alınması və nəzarət metodları təklif olunmuşdur.




**Şəkil 1. İqlim, bitkilər və göbələk patogenləri arasındakı əlaqə**

**Tədqiqatın materialları və metodları.** Göbələk patogenlərinin ətraf mühit faktorlarından asılı olmaqla dəyişkənliyi riyazi vasitələrdən istifadə etməklə ədəbiyyat mənbələrin təhlili əsasında həyata keçirilmişdir

**Nəticələr və müzakirə.**

**İqlim dəyişikliyi bitkilərdə göbələk xəstəliklərini daha da kəskinləşdirir.** Quraqlıq, daşqınlar və yüksək temperatur kimi iqlim dəyişikliyi səbəbindən baş verən ekstremal hava hadisələrinin tezliyinin artması, bitki göbələk xəstəliklərinin yayılmasını həyəcan verici dərəcədə artırıb. Bu da öz növbəsində bitkilərin böyümə dövrünə, məhsuldarlığına və keyfiyyətinə təsir göstərib [5].

**Quraqlıq bitkilərdə göbələk xəstəliklərini kəskinləşdirir.** Quraqlıq stressi məhsulun incə köklərini və torpaq mikrob müxtəlifliyini azaldır və xəstəlik yaradan göbələklərin bitkilərə daha asan yoluxmasına imkan verir [6]. Tədqiqatlar göstərir ki, noxud kök çürüməsini və üzümdəki xəstəlikləri şiddətləndirir. Quraq ərazilərdə torpaqla ötürülən patogenlərin qarşısını almaq və nəzarət etmək üçün diqqət və səylərin olmaması onların ciddi ziyan vurma ehtimalını artırır. May-iyun aylarında baş verən illik quraqlığın Polşada qış buğdasında paslanma hallarını əhəmiyyətli dərəcədə artırdığı bildirilmişdir [3]. Bundan əlavə, quraqlıq stressinin yaratdığı torpaq şoranlaşmasının bitkilərin patogenlərə qarşı həssaslığını artırdığı və göbələk bitki xəstəliklərinin yayılmasını təşviq etdiyi bildirilmişdir. Bitki duz stressi ilə patogen infeksiyası arasındakı qarşılıqlı təsir patogenin növündən və sahib bitki növündən asılıdır. Məsələn, duz stressi şəraitinə məruz qalan soğanlar duz stressinə məruz qalmayanlara nisbətən *Fusarium oxysporum* ilə daha ağır yoluxmadan əziyyət çəkir [4].

**Daşqın və yüksək rütubət bitki göbələk xəstəliklərini kəskinləşdirir.** Həddindən artıq yağıntı tez-tez daşqınlara və patogen göbələklərin artmasına səbəb ola bilər. Məsələn, yağıntı və ya torpaq axıntısı torpaqda və havada patogen göbələklərin sporları vasitəsilə xəstəliyin yayılmasına kömək edə

**№ 1/2026** **səh.46-52**

bilər. Uzun müddət davam edən yağış Fusariumun buğdaya yoluxmasını asanlaşdırır, bu da qonur pas xəstəliyinə daha çox həssasdır. Həqiqətən də, daşqından sonra Phytophthora, Fusarium və Pythium kimi patogenlərin səviyyəsində kəskin artımlar bildirilmişdir [8]. Bundan əlavə, *Epicoccum tritici* göbələk sporlarının daşınması və toplanmasının suyun kondensasiyası və buxarlanması ilə təşviq edildiyi aşkar edilmişdir. Bundan əlavə, şəkər qamışının yüksək yağıntı və ya yüksək rütubət şəraitində yalançı sekaspora daha çox həssas olduğu məlumdur. Nəhayət, düyü yarpaqlarının zədələnməsi və qəhvəyi ləkənin eyni vaxtda baş vermə ehtimalının torpaq suyunun miqdarının artması ilə artdığı aşkar edilmişdir [14].

**Yüksək temperatur bitki göbələk xəstəliklərini kəskinləşdirir.** Yüksək temperatur iqlim dəyişikliyinin ən birbaşa təzahürlərindən biridir və uzun müddət davam edən yüksək temperatur bitki xəstəliklərinin yayılmasını və şiddətini artıra bilər [7]. Məsələn, yüksək temperatur patogen sporlarının cücərməsinə, məhsul köklərinin zədələnməsinə və həssas bitkilərdə xəstəliyin artmasına səbəb ola bilər. Məsələn, üzümdə boz cürümə xəstəliyinin törədicisi kimi Botrytis cinerea-nın cücərmə müddətinin yüksək temperaturda daha qısa olduğu aşkar edilmişdir [11] və bu xəstəliyi daha da şiddətləndirmişdir. Yüksək temperaturun kərəvizdə kök çürüməsinin artmasına səbəb olduğu da göstərilmişdir, əsasən Fusarium müqavimətinin azalması səbəbindən. Soyanın 30°C-də *Fusarium solani* tərəfindən törədilən kök xəstəliklərinin daha yüksək yayılmasından əziyyət çəkdiyi də bildirilmişdir [9] və soyanın 37°C-də qısa müddətdə baş verən məhvə daha çox həssas olduğu, xəstəliyin ötürülməsinin temperatura həssas olduğunu göstərir. Temperatur dəyişiklikləri ləkələrin böyüməsinə, infeksiya səmərəliliyinin artmasına, sporın əmələ gəlməsinə səbəb olur, eyni zamanda sabit temperaturdakı nisbətlərlə müqayisədə dəyişkən temperatur şəraitində infeksiya səmərəliliyinin, ləkə böyümə sürətinin və spora əmələ gəlməsinin artmasına səbəb olur . Bundan əlavə, yüksək saxlama temperaturu məhsul göbələk xəstəliklərini də şiddətləndirir, düyü kif populyasiyasında əhəmiyyətli bir artım 40°C-də 16 həftəlik saxlamadan sonra aşkar edilir [12]. Bundan əlavə, 10°C saxlama temperaturunda yerkökündə çürümə baş verməsə də, çürümə temperatur 35°C-yə yüksəldikdə daha yüksək olmuşdur. Həmçinin, saxlama temperaturunun 2°C-dən 25°C-yə qaldırılmasının nektarinlərin qəhvəyi çürüklə yoluxma riskini 60 dəfədən çox artırdığı aşkar edilmişdir [3].

**İqlim dəyişikliyinin müxtəlif yollarla bitki göbələk xəstəliklərinə təsiri.** Bitki göbələk xəstəlikləri əsasən ötürülmə yoluna görə torpaqla keçən göbələk xəstəlikləri, hava ilə keçən göbələk xəstəlikləri və toxumla keçən göbələk xəstəlikləri kimi təsnif edilir. İqlim dəyişikliyi yoluxma yerlərini, xəstəlik səviyyələrini və göbələklərin müxtəlif ötürülmə yolları ilə zərər vermə mexanizmlərini dəyişdirə bilər.

**7. Mövcud problemlər və çatışmazlıqlar.**Nəqliyyat vasitələrinin keyfiyyətinin idarə edilməsində bir sıra problemlər və çatışmazlıqlar mövcuddur. Bu problemlər nəqliyyat vasitələrinin təhlükəsizliyinə, texniki sazlığına, xidmət keyfiyyətinə və iqtisadi səmərəliliyinə mənfi təsir göstərir. Müasir dövrdə nəqliyyat sektorunun sürətli inkişafına baxmayaraq, bir çox müəssisələr keyfiyyət idarəetmə sisteminin tam şəkildə tətbiqində çətinliklərlə qarşılaşırlar. Əsas problemlər aşağıdakılardır:

*Köhnə nəqliyyat vasitələrinin istifadəsi.* Bir çox nəqliyyat müəssisələrində istismar müddəti başa çatmış və texniki cəhətdən köhnəlmiş nəqliyyat vasitələrindən istifadə olunur. Bu nəqliyyat vasitələri tez-tez nasazlıqlara səbəb olur, yanacaq sərfiyyatını artırır və təhlükəsizlik risklərini yüksəldir. Köhnə texnologiyalar müasir ekoloji standartlara cavab vermədiyindən ətraf mühitə də mənfi təsir göstərir [3,4 ].

*Texniki xidmətin zəif təşkili.*Texniki xidmətin düzgün təşkil olunmaması nəqliyyat vasitələrinin keyfiyyət göstəricilərinin aşağı düşməsinə səbəb olur. Müntəzəm texniki baxışların keçirilməməsi, profilaktik tədbirlərin vaxtında görülməməsi və diaqnostika işlərinin zəif aparılması texniki nasazlıqların artmasına gətirib çıxarır. Bu isə yol-nəqliyyat hadisələrinin riskini artırır.

*Maliyyə çatışmazlığı.* Müasir texnologiyaların tətbiqi, yeni nəqliyyat vasitələrinin alınması və texniki xidmət bazasının yenilənməsi böyük maliyyə vəsaiti tələb edir. Bir çox müəssisələrdə maliyyə imkanlarının məhdud olması keyfiyyət idarəetmə sisteminin inkişafını çətinləşdirir. Maliyyə çatışmazlığı həmçinin innovativ texnologiyaların tətbiqini ləngidir.

№ 1/2026 səh.69-79

*Kadr hazırlığının aşağı səviyyəsi.*Nəqliyyat sahəsində çalışan texniki personalın və sürücülərin peşə hazırlığının kifayət qədər olmaması da əsas problemlərdən biridir. Müasir texnologiyalarla işləmək üçün yüksək ixtisaslı mütəxəssislərə ehtiyac vardır. Təlim və ixtisasartırma proqramlarının zəif təşkili texniki səhvlərin və idarəetmə problemlərinin yaranmasına səbəb olur.

*Kibertəhlükəsizlik problemləri.* Müasir nəqliyyat vasitələrində rəqəmsal texnologiyaların və elektron idarəetmə sistemlərinin geniş tətbiqi kibertəhlükəsizlik risklərini artırmışdır. GPS sistemləri, avtomatlaşdırılmış idarəetmə proqramları və elektron məlumat bazaları kiberhücumlara məruz qala bilər. Bu isə nəqliyyat vasitələrinin idarə olunmasına və məlumat təhlükəsizliyinə ciddi təhlükə yaradır[ 4,10 ].

Beləliklə, nəqliyyat vasitələrinin keyfiyyət idarə edilməsində mövcud problemlərin aradan qaldırılması üçün müasir texnologiyaların tətbiqi, texniki xidmətin gücləndirilməsi, maliyyə təminatının artırılması və peşəkar kadr hazırlığının inkişaf etdirilməsi vacib hesab olunur.

**8. Problemlərin həlli yolları.** Nəqliyyat vasitələrinin keyfiyyətinin idarə edilməsində mövcud problemlərin aradan qaldırılması üçün kompleks və müasir yanaşmaların tətbiqi vacibdir. Keyfiyyət göstəricilərinin yüksəldilməsi, təhlükəsizliyin təmin olunması və xidmət səviyyəsinin artırılması məqsədilə bir sıra mühüm tədbirlərin həyata keçirilməsi zəruridir. Bu tədbirlər nəqliyyat sisteminin daha səmərəli və dayanıqlı fəaliyyətinə imkan yaradır. Əsas həll yolları aşağıdakılardır:

*Müasir texnologiyaların tətbiqinin genişləndirilməsi.* Müasir texnologiyaların tətbiqi nəqliyyat vasitələrinin keyfiyyət idarəetmə sisteminin inkişafında mühüm rol oynayır. Süni intellekt, rəqəmsal diaqnostika sistemləri, sensor texnologiyaları və avtomatlaşdırılmış idarəetmə proqramları texniki nasazlıqların vaxtında müəyyən edilməsinə imkan verir. Yeni texnologiyaların tətbiqi texniki xidmətin keyfiyyətini artırır, istismar xərclərini azaldır və təhlükəsizlik səviyyəsini yüksəldir [4,10 ].

*Elektron monitorinq sistemlərinin inkişaf etdirilməsi.* Elektron monitorinq sistemləri nəqliyyat vasitələrinin fəaliyyətinə real vaxt rejimində nəzarət etməyə imkan yaradır. GPS və telematik sistemlər vasitəsilə marşrutların izlənilməsi, yanacaq sərfiyyatına nəzarət və sürücülərin fəaliyyətinin təhlili həyata keçirilir. Bu sistemlər nəqliyyat vasitələrinin daha səmərəli idarə olunmasına və qəza risklərinin azaldılmasına kömək edir.

Beynəlxalq standartların tətbiqi.ISO 9001 və ISO 39001 kimi beynəlxalq standartların tətbiqi keyfiyyət idarəetmə sisteminin təkmilləşdirilməsində mühüm əhəmiyyət daşıyır. Bu standartlar xidmət keyfiyyətinin artırılmasına, təhlükəsizlik tədbirlərinin gücləndirilməsinə və idarəetmənin optimallaşdırılmasına şərait yaradır. Beynəlxalq standartların tətbiqi müəssisələrin rəqabət qabiliyyətini də artırır.

*Texniki personalın peşə hazırlığının artırılması.* Nəqliyyat sahəsində çalışan mütəxəssislərin bilik və bacarıqlarının artırılması keyfiyyət idarəetmə sisteminin əsas şərtlərindən biridir. Müasir texnologiyalarla işləmək üçün texniki personalın davamlı təlim və ixtisasartırma proqramlarına cəlb olunması vacibdir. Peşəkar kadr hazırlığı texniki səhvlərin azalmasına və xidmət keyfiyyətinin yüksəlməsinə səbəb olur.

*Ekoloji standartlara uyğun nəqliyyat vasitələrinin istifadəsi.*Ətraf mühitin qorunması məqsədilə ekoloji standartlara cavab verən nəqliyyat vasitələrinin istifadəsi genişləndirilməlidir. Az yanacaq sərf edən, zərərli qaz emissiyası aşağı olan və alternativ enerji mənbələri ilə işləyən nəqliyyat vasitələri ekoloji təhlükəsizliyin təmin olunmasına kömək edir. Elektrik və hibrid avtomobillərin tətbiqi həm ekoloji, həm də iqtisadi baxımdan mühüm üstünlüklər yaradır. Beləliklə, qeyd olunan tədbirlərin həyata keçirilməsi nəqliyyat vasitələrinin keyfiyyət göstəricilərinin yüksəldilməsinə, təhlükəsizliyin təmin edilməsinə və nəqliyyat sisteminin müasir tələblərə uyğun inkişafına mühüm töhfə verir.

**9. Nəqliyyat vasitələrinin keyfiyyətinin iqtisadi əhəmiyyəti.**Keyfiyyətli nəqliyyat vasitələri yanacaq sərfiyyatını azaldır, texniki xidmət xərclərini minimuma endirir və daşımaların effektivliyini artırır. Bu isə həm müəssisələrin gəlirlərinin artmasına, həm də iqtisadi inkişafın sürətlənməsinə səbəb olur.

№ 1/2026 səh.69-79

Keyfiyyətin idarə edilməsi sistemlərinin və müasir diaqnostika vasitələrinin tətbiqi nəqliyyat müəssisələrinə aşağıdakı iqtisadi səmərəni verir:

- Cari təmir xərclərinin 8-12% azalması.
- Ehtiyat hissələrinin sərfinin 10-12% aşağı düşməsi.
- Yanacaq sərfinin 2-5% (bəzi hallarda 15%-ə qədər) azalması.
- Nəqliyyat vasitələrinin texniki hazırlıq əmsalının 3-5% yüksəlməsi.

## NƏTİCƏ VƏ TƏKLİFLƏR.

**Ümumi nəticə olaraq,** aparılan tədqiqat nəticəsində müəyyən edilmişdir ki, nəqliyyat vasitələrinin keyfiyyətinin idarə olunması təhlükəsizliyin təmin olunması, iqtisadi səmərəliliyin artırılması və ekoloji problemlərin azaldılması baxımından mühüm əhəmiyyətə malikdir. Müasir texnologiyaların və beynəlxalq standartların tətbiqi keyfiyyət göstəricilərinin yüksəldilməsinə geniş imkan yaradır.

**Təkliflər:**

- Müasir diaqnostika sistemləri geniş tətbiq olunmalıdır;
- GPS və elektron monitorinq sistemləri inkişaf etdirilməlidir;
- Nəqliyyat müəssisələrində ISO standartları tətbiq edilməlidir;
- Texniki personalın ixtisasartırma proqramları təşkil olunmalıdır;
- Ekoloji cəhətdən təhlükəsiz nəqliyyat vasitələrinin istifadəsi genişləndirilməlidir.

## ƏDƏBIYYAT


1. Avtosfer.az - Yeni avtomobillərdə təhlükəsizlik funksiyaları.
2. Avtosfer.az - İntellektual Nəqliyyat Sistemləri haqqında araşdırma.
3. Bağırov B.M. Nəqliyyat vasitələrinin təhlükəsizliy. AKTA, Gəncə: 2016.-388s.
4. İbrahimov E. Müasir nəqliyyat sistemləri və təhlükəsizlik. Bakı, 2022.-248s.
5. ISO 9001-2015 Beynəlxalq standartı, "Keyfiyyəti idarəetmə sistemləri - Tələblər"..
6. IATF 16949-2016 Avtomobil Keyfiyyət İdarəetmə Sistemi Sertifikatı, EUROLAB..
7. ISO 9001 keyfiyyət idarəetmə sistemi üzrə beynəlxalq standart.
8. ISO 39001 yol hərəkəti təhlükəsizliyi idarəetmə sistemi üzrə beynəlxalq standart.
9. Logistex.az - GPS İzləmə Sistemi və Sürücü Nəzarəti.
10. Tağızadə Ə.H., Bayramov R.P. Yol hərəkətinin təşkili və təhlükəsizliyi. Bakı: Çaşıoğlu,2002.-243s.


**УДК 629.017:658.562**

# МЕТОДЫ И СРЕДСТВА УПРАВЛЕНИЯ КАЧЕСТВОМ ТРАНСПОРТНЫХ СРЕДСТВ

**Расмия Аслан кызы Рзаева**
**Азербайджанский Технологический Университет**
**resmiyye-rzayeva@mail.ru**

***Резюме.*** *В данной статье подробно рассматриваются методы и инструменты управления качеством транспортных средств. Анализируются методы управления, применяемые для обеспечения технического состояния транспортных средств, повышения уровня безопасности,*

*соблюдения экологических норм и повышения экономической эффективности. Объясняется важность применения современных цифровых технологий, международных стандартов и автоматизированных систем мониторинга в сфере транспорта.*

***Ключевые слова:*** *Транспортные средства, управление качеством, технический контроль, стандарты ISO, безопасность, логистика, цифровые технологии, системы мониторинга, автоматизация, транспортная инфраструктура.*

**UDC 629.017:658.562**

# METHODS AND MEANS OF QUALITY MANAGEMENT OF TRANSPORT VEHICLES

**Rasmiyya Aslan Rzayeva**
**Azerbaijan Technological University**
**resmiyye-rzayeva@mail.ru**

***Summary.*** *This article extensively examines the methods and tools of vehicle quality management. The management methods applied to ensure the technical condition of vehicles, increase the level of safety, maintain compliance with environmental standards, and increase economic efficiency are analyzed. The importance of applying modern digital technologies, international standards, and automated monitoring systems in the field of transport is explained.*

***Keywords:*** *Vehicles, quality management, technical control, ISO standards, safety, logistics, digital technologies, monitoring systems, automation, transport infrastructure.*

Redaksiyaya daxilolma: 20.02.2026
Çapa qəbul olunma: 19.03.2026

№ 1/2026 səh.80-86

| UOT62 (621) |
| --- |
| DOI 10.30546/JIECM.2026.001.2065 |


# ŞAMAXI -QOBUSTAN ÇÖKƏKLİYİNİN NEFT-QAZ SİSTEMLƏRİNİN FORMALAŞMASINDA STRUKTUR-TEKTONİK VƏ GEOKİMYƏVİ TƏKAMÜLÜN MODELLƏŞDİRİLMƏSİ

**İsmət Novruz oğlu Məmmədov**
**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti**
**Bakı şəhəri, Azərbaycan**
**vakilashirov54@gmail.com**

***Xülasə.*** *Məqalənin əsas məqsədi Şamaxı-Qobustan çökəkliyinin neft-qaz sistemlərinin formalaşmasında struktur-tektonik və geokimyəvi təkamülün modelləşdirilməsinin aparılmasıdır. Obyekt olaraq Şamaxı-Qobustan çökəkliyindən strukturlar götürülmüşdür. Şamaxı-Qobustan çökəkliyində neft-qaz sistemlərinin formalaşmasında struktur-tektonik və geokimyəvi təkamülün modelləşdirilməsi aparılmışdır.*

***Açar sözlər:*** *neft-qaz, struktur-tektonik, çöküntü, geokimyəvi, modelləşmə.*

**Giriş.** Hövzə modelləşdirməsi çöküntü hövzələrində geoloji proseslərin geoloji vaxt ərzində dinamik modelləşdirilməsidir Hövzə modeli ən qədim təbəqənin çöküntüsündən başlayaraq bütün təbəqələr ardıcıllığı çökənə və hövzənin çöküntü örtüyünün indiki vəziyyətinə çatana qədər geoloji zamanla modelləşdirilir. Hər zaman pilləsində bir neçə geoloji proseslər hesablanır və yenilənir, bunlardan ən mühümləri yağıntı, sıxılma, istilik axınının təhlili, karbohidrogen əmələ gəlməsi, yerdəyişmə, faza həlli, miqrasiya və akkumulyasiyadır.

**Tədqiqatın obyekti və metodikası.** Tədqiqatın obyekti Şamaxı-Qobustan çökəkliyinin geoloji quruluşu və onun neft-qaz potensialı təşkil edir.

Tədqiqat aparıldıqdan sonra təhlil metodundan istifadə edilərək yazılmışdır.

**Tədqiqatın nəticələrinin müzakirəsi və təhlili.** İlk hövzə modelləşdirmə proqramı təxminən 1980-ci ildə hazırlanmışdır. Əsas konsepsiya çoxölçülü istilik axınının modelləşdirilməsini və qayaların yetkinliyini qiymətləndirmək üçün neft hasilatı və yerdəyişmə xəritələrini yaratmaq üçün sonrakı geokimyəvi modelləri əhatə edirdi. 1990-cı ildən 1998-ci ilə qədər hövzə modelləşdirmə proqramının yeni nəsli sənaye standartına çevrildi. Ən mühüm yeni xüsusiyyət üç fazalı maye axını modellərinin tətbiqi idi: su, neft və qaz ikiölçülü modellərdə. Hesablama gücündə irəliləyişlər 1998-ci ildə əksər hesablamaları tam 3D-də yerinə yetirə bilən yeni nəsil modelləşdirmə proqram təminatının buraxılmasına imkan verdi. Yeni funksiyaların bir çoxu neft miqrasiyası və layların xarakteristikası ilə bağlı idi (2).

Hövzə təhlili çoxlu sayda müxtəlif növ məlumatların toplanması və inteqrasiyasını tələb edir. Modelləşdirmədə ilk addım ümumi və regional geoloji biliklərdən, quyulardan, müxtəlif karotaj üsullarından və hər şeydən əvvəl seysmik tədqiqatlardan məlumat əldə etməkdir. Süxur təbəqələrinin ardıcıl həndəsi düzülüşü və onların xronostratiqrafiyasının düzgün təhlili hövzənin təkamülü zamanı ən mühüm geoloji hadisələrin zaman ardıcıllığını təyin etmək üçün əsas rolunu oynayır. Belə hadisələr sedimentasiya, çökmənin dayandırılması və eroziya prosesləridir. Bu hadisələrin tərifi mütləq geoloji yaşlara əsaslanan ciddi zaman ardıcıllığı ilə birlikdə konseptual hövzə modelinin əsasını təşkil edir (4). Mənbə süxurların, quyuların müəyyən edilməsi, eləcə də mühüm material parametrlərinin (məsələn, kerogenin miqdarı və növü, litologiyanın növü, məsaməlilik, keçiricilik) müəyyən edilməsi də onun mühüm hissəsidir.

Hövzənin doldurulmasının konseptual modeli müəyyən edildikdən sonra sukeçiricilik və məsaməlilik, istilik xassələri və üzvi maddələrin yetişməsi kimi süxur xassələrində dəyişikliklərə səbəb olan çökmədən sonrakı prosesləri nəzərə almaq lazımdır. Bütün bunlar hövzənin istilik tarixini, neft

№ 1/2026 səh.80-86

hasilatı, istilik və maye nəqlini başa düşmək üçün çox vacibdir. Hövzənin təkamülünün müxtəlif fərziyyələrini yoxlamaq üçün yerinə yetirilən ədədi simulyasiyaların nəticələri mövcud geoloji məlumatlarla kalibrləmə üçün ölçülmüş dəyərlərlə müqayisə edilməlidir.

Ərazilərin neft və qaz potensialının müəyyən edilməsi və aydınlaşdırılması ilə bağlı problemlərin həlli üçün neft və qaz yığılmalarının yaranma vaxtını və yerlərini proqnozlaşdırmaq prosedurunu təkmilləşdirməyə imkan verən müasir hövzə modelləşdirmə texnologiyalarından geniş istifadə olunur (5). Karbohidrogenlərin miqrasiyası proseslərinin modelləşdirilməsinə xüsusi diqqət yetirildiyinə görə, bu texnologiya kəşfiyyat işlərinin riskini qiymətləndirmək üçün strateji alət və bütün iri neft və qaz hasilatı şirkətlərində qərarların qəbulunu dəstəkləyən vasitədir (6). Karbohidrogen sisteminə təkcə ana süxurlar, məhsuldar birləşmələr, geoloji elementlər daxil deyil, həm də karbohidrogen miqrasiyası ilə ərazinin struktur və tektonik inkişafı arasında əlaqəni müəyyən edir. Çöküntü hövzəsinin kəsiyində müəyyən termodinamik şəraitə uyğun gələn intensiv neft və qaz əmələgəlmə zonalarının olması, çöküntü hövzələrinin tarixinin paleotektonik və paleogeotermal rekonstruksiyalarının aparılmasının mümkünlüyü neft əmələgəlmə tarixinin yenidən qurulması üçün nəzəri əsas yaradır (3).

Şamaxı-Qobustan çökəkliyi Cənubi Xəzər neft-qaz vilayətinin tərkibinə daxil olan mürəkkəb geoloji strukturdur. Rayon aktiv tektonik aktivlik, mürəkkəb litoloji və stratiqrafik arxitektura və əhəmiyyətli karbohidrogen potensialı ilə səciyyələnir. Struktur-tektonik və geokimyəvi təkamülün kompleks modelləşdirilməsi neft və qaz potensialının qiymətləndirilməsi üçün mühüm vasitədir.




**Şəkil 1. ŞAMAXI -QOBUSTAN yatağının faktiki materialının sxemi**
**1 - kəşfiyyat quyuları; 2 - quyu nömrəsi; 3 - iş sahəsinin konturu; 4 - 2D seysmik kəşfiyyat profilləri;**
**5 - 3D seysmik kəşfiyyatın konturu; 6 - bölmə xətti A-B.**

**№ 1/2026** **səh.80-86**

ŞAMAXI -QOBUSTAN yatağının karbohidrogen yataqlarının əmələ gəlməsi proseslərinin modelləşdirilməsi Schlumberger şirkətinin PetroMod proqram paketində yatağın geoloji inkişaf tarixini və karbohidrogen yataqlarının əmələ gəlmə imkanlarının qiymətləndirilməsi ilə çöküntü süxurların və üzvi maddələrin yığılması və çevrilməsi mərhələlərini müşayiət edən bütün proseslərin yenidən qurulmasına yönəldilib. Modelin yaradılmasının əsas mərhələləri bunlardır:

- Struktur çərçivənin yaradılması (əsas seysmostratiqrafik horizontlar üçün struktur xəritələrinin qurulması),
- litoloji blokun təsviri (litoloji göstərici xəritələrinin qurulması və onların fasiya xəritələrinə çevrilməsi),
- neft mənbəyi təbəqələrinin təsviri (süxurların ümumi üzvi maddələrin Corg və karbohidrogen potensialının xəritələrinin qurulması HI),
- paleoiqlim və paleotemperatur şəraitinin blokunun təsviri və qurulması (geoloji vaxt ərzində bu parametrlərin dəyişmə tendensiyalarından istifadə etməklə çöküntülərin paleodepliklərinin, çöküntü səthində paleotemperaturaların və istilik axınının xəritələrinin qurulması (1).

Hövzə modelləşdirməsi çöküntü hövzələrinin təkamülünü yenidən qurmaq üçün seysmik, stratiqrafik, geokimyəvi, petrofiziki və quyu məlumatlarına riyazi alqoritmləri tətbiq edir. Hövzələrin modelləşdirilməsinin mərhələlərindən biri də geoloji zamanın müxtəlif mərhələlərində neft və qazın mənşəyi, miqrasiyası, yığılması və itkisi haqqında anlayışı təmin edən karbohidrogen sisteminin modelləşdirilməsidir. Modelləşdirilmiş əsas proseslər çökmə, qırılma, çökmə, kerogen yetişmə kinetikası və çoxfazalı maye axınıdır. Hövzə və karbohidrogen sisteminin modelləşdirilməsi üçün giriş parametrləri toplusuna stratiqrafiya, litologiya, çöküntü təzyiqi və temperatur şəraiti, süxur üzvi maddələrinin və mayelərin geokimyası haqqında məlumatlar daxildir.

Hövzənin modelləşdirilməsi iterativ prosesdir və ölçülmüş məlumatlarla modelləşdirmə nəticələrinin kalibrlənməsi modeli dəqiqləşdirməyə imkan verir. GOCAD-də üçölçülü geoloji modelləşdirmə maye dinamikası proseslərini geoloji miqyasda yenidən yaratmağa və lay süxurlarının xüsusiyyətlərini proqnozlaşdırmağa imkan verir. GOCAD proqram paketində təbii hövzələrin parametrlərinin hesablanması, histoqramların, xəritələrin, korrelyasiya sxemlərinin və modellərinin qurulması üçün aşağıdakı verilənlər toplusundan istifadə edilmişdir: quyu ağzının koordinatları, hündürlüklər, inklinometriya, stratiqrafik qırılmalar, quyuların karotajı əyriləri və onların şərhinin nəticələri, əsas məlumatlar, struktur məlumatlarının kəşfiyyatı və səthi kəşfiyyatı əsasında aparılan kəşfiyyat. Geoloji modelləşdirmənin bütün prosesi bir neçə ardıcıl mərhələni təmsil edir: məlumatların toplanması, təhlili, hazırlanması və yüklənməsi; struktur modelləşdirmə; şəbəkə yaradılması; fasiya modelləşdirilməsi; petrofiziki modelləşdirmə; karbohidrogen ehtiyatlarının hesablanması.

Çöküntü örtüyünün qalınlığı 25 km-ə qədər və ya daha çox olan, 10-11 km-i Pliosen-Dördüncü dövr kompleksi olan ŞAMAXI -QOBUSTAN çökəkliyi üçün anomal aşağı temperatur şəraiti xarakterikdir: istilik axını 25-51 mVt/m$^2$, orta temperatur qradiyenti isə 2ºC/100m-dən çox deyil. ŞAMAXI -QOBUSTAN çökəkliyində onun tektonik quruluşuna uyğun gələn, qırılmalar və sualtı palçıq vulkanları ilə mürəkkəbləşmiş termal sahənin mürəkkəb mənzərəsi var. Mərkəzə doğru daldırma istiqamətində azalan aşağı geotermal qradiyentin fonunda antiklinal qalxmalar və neft-qaz yataqları ilə bağlı lokal müsbət anomaliyalar aşkar edilir ki, bu da ümumi keçirici istilik ötürülməsi fonunda konvektiv istilik ötürülməsinin geotermal sahəyə də təsir etdiyini göstərir. ŞAMAXI - QOBUSTAN çökəkliyi geotermal sahəsinin fərqləndirici xüsusiyyəti Pliosen-Dördüncü dövr çöküntülərinin çox aşağı qızması (6000 m dərinlikdə temperatur 110-120°C-dən çox deyil) və temperaturların və onların qradientlərinin dərinliyə görə paylanmasının spesifik xarakteridir.

ŞAMAXI -QOBUSTAN çökəkliyi istilik sahəsinin təkamülünün modelləşdirilməsi, OM-nin istilik çevrilməsinin modelləşdirilməsi ilə birlikdə süxurların OM-nin yetkinlik dərəcəsini qiymətləndirməyə imkan verdi. Modelləşdirmə nəticələri ŞAMAXI -QOBUSTAN çökəkliyinin ən çox su altında qalan hissəsində, o cümlədən intensiv qaz hasilatı zonasında 5-6,5 km yuxarı sərhəd və 13-16,5 km aşağı sərhəd ilə son dərəcə genişlənmiş maye istehsal intervalını göstərir. Nümunəvi konstruksiyalar ŞAMAXI -QOBUSTAN çökəkliyində mezozoy, paleogen-miosen və aşağı pliosen

**№ 1/2026** **səh.80-86**

çöküntülərində bir neçə stratiqrafik, hipsometrik və yanal təcrid olunmuş maye əmələgəlmə mərkəzlərinin mövcudluğunu göstərir. Çökəkliyin mərkəzinə doğru batdıqda, maye istehsal mərkəzləri geotermal gradientin azalması ilə əlaqəli daha böyük bir hipsometrik qapalılığa malikdir.




**Şəkil 2. Modelləşdirmə üçün istifadə olunan profil xətləri ilə ŞAMAXI -QOBUSTAN çökəkliyi çöküntülərinin və strukturlarının planı.**

Karbohidrogenlərin əmələ gəlməsinin modelləşdirilməsi bizə geoloji zamanın müxtəlif mərhələlərində neft və qazın əmələ gəlməsinin əsas zonalarının paylanmasını və süxurların yetişmə prosesini retrospektiv təhlil etməyə imkan verdi. Qərb istiqamətində miqrasiya edən karbohidrogen əmələgəlmə mərkəzləri müəyyən edilmişdir. ŞAMAXI -QOBUSTAN çökəkliyində karbohidrogen generasiya mərkəzlərinin fəzada paylanması mozaik xarakter daşıyır və tektonik quruluşa, ayrı-ayrı stratiqrafik komplekslərin litoloji heterojenliyinə və generasiya potensialına, istilik və geobarik yataqların heterojenliyinə uyğundur. Karbohidrogen generasiya mərkəzlərinin təkamülünün məkan və zaman üzrə modelləşdirilməsi neft və qaz mənbəyi təbəqələrinin karbohidrogen generasiya potensialının reallaşma dərəcəsini müəyyən etməyə imkan verdi.

Sahilə yaxın hissədə eosen çöküntüləri əsas neft hasilatı zonasında yerləşir və çökmə ilə intensiv qaz hasilatı zonasına daxildir. Onların karbohidrogen istehsal potensialının reallaşma dərəcəsi ŞAMAXI -QOBUSTAN çökəkliyinin sahilə yaxın hissəsində 40-50%, sualtı hissəsində isə 80-90% təşkil edir. Sahilə yaxın hissədə Oliqosen-Aşağı Miosen yataqları ilkin neft hasilatı zonasına təzəcə daxil olub, generasiya potensialının reallaşma dərəcəsi 20%-dən çox deyil. Sualtı hissədə Maikop seriyası neft istehsalının gec mərhələsindədir və generasiya potensialının demək olar ki, 60-70%-ni reallaşdırmışdır. Sahilə yaxın hissədə Orta və Üst Miosen çöküntüləri karbohidrogen istehsalı üçün yetişməmişdir. Sualtı hissədə bu yataqlar ilkin neft hasilatı mərhələsindədir, generasiya potensialının reallaşma dərəcəsi 20-25% təşkil edir.

Aşağı Pliosen çöküntüləri 6,5-7 km dərinlikdə arxipelaqın sualtı hissəsində erkən neft istehsal zonasına daxil olmuşdur.

Modelləşdirmə nəticələri ŞAMAXI -QOBUSTAN çökəkliyinin mezozoy-kaynozoy çöküntülərində PT kollektorlarının neft və qazla doymasına töhfə verə biləcək beş maye əmələ gətirən intervalı müəyyən etməyə imkan verdi: Eosen, Oliqosen-Aşağı Miosen (Maykop seriyalı çöküntülər), Orta Miosen (Çokrak-Spirialis Miosen) və Ortalitosen (Aşağı-Kenozoy layları) və U. (PT-nin alt hissəsi).

**№ 1/2026** **səh.80-86**

Yaranma və miqrasiya hesablamaları ana süxurların karbohidrogenlərinin litoloji tərkibini, qalınlığını və maksimum doymasını nəzərə almaqla kerojenin parçalanmasının kinetik sxemlərinə əsaslanır. Karbohidrogenlərin ana süxurdan emiqrasiyası generasiya prosesinin başlanğıcına nisbətən vaxt dəyişikliyi ilə baş verir. PetroMod proqramı emmiqrasiya həddini təmsil edən maksimum HC konsentrasiyalarını xarakterizə edir və bu həddə çatdıqda HC neft və qaz mənbəyi təbəqələrini tərk edir. HC-nin tələlərə miqrasiyası petrofiziki xüsusiyyətlər və təzyiq nəzərə alınmaqla hesablanır. Yığım ilk növbədə üzəri süxurların litoloji xüsusiyyətlərindən asılıdır. Modelləşdirmə nəticələrinə görə, Paleogen-Miosen mənbə süxurlarından HC emiqrasiya vaxtı Pliosendir və miqrasiya ən böyük intensivliyinə Pleystosendə çatır.

ŞAMAXI -QOBUSTAN çökəkliyi su anbarlarının doymasında həm şaquli, həm də üfüqi miqrasiya müəyyən rol oynayır, yəni şaquli pilləli miqrasiya baş verir. Şaquli miqrasiya palçıq vulkanlarının qırılmaları və püskürmələri boyunca davamlı olaraq baş verir, yəni seysmotektonik aktivləşmə dövründə güclənən pulsasiyaedici-inyeksiya xarakteri daşıyır. Horizontal miqrasiya karbohidrogenlər yüksək məsaməli və keçirici lay süxurlarına daxil olduqda baş verir. Təzyiq fərqləri və qravitasiyanın yuxarı qalxma qüvvələri nəticəsində karbohidrogenlər lay süxurlarında batmış hissədən hündür hissələrə doğru, yəni layların regional qalxması istiqamətində miqrasiya edirlər (şək. 3).




**Şəkil 3. Quyuların karotaj məlumatlarının (a) və ŞAMAXI -QOBUSTAN çökəkliyi yataqlarının struktur modelinin (b) şərhinin nəticələri**

Litofasiya modelinin təhlili göstərir ki, nəzərdən keçirilən horizontlar regional planda yaxşı izlənilmiş və müəyyən edilmişdir (şək. 4, a). Nəzərdən keçirilən horizontların ümumi və effektiv qalınlığında və qumluluğunda SCB-nin mərkəzinə doğru daldırma ilə artım müşahidə olunur. Ümumi qalınlıq 20-30%, effektiv qalınlıq 1,5 dəfə artır, qumun tərkibi 46-dan 59% -ə qədər artır ki, bu da bölmədə su anbarlarının həcminin artmasının göstəricisidir. Məsaməliliyin petrofiziki modeli hər bir litofasiya üçün məsaməliliyin şaquli və üfüqi dəyişkənliyinin geoloji qanunauyğunluqları nəzərə alınmaqla qurulur (şək. 4, b). Petrofiziki modelləşdirmə ŞAMAXI -QOBUSTAN çökəkliyi quyularının filtrasiya-tutumlu xassələrindəki dəyişikliyi izləməyə imkan verdi. SCB-nin mərkəzi istiqamətində məsaməlilik və keçiriciliyin azalması qeyd olunur ki, bu da süxurların daldırma ilə sıxılması ilə əlaqələndirilir. Ayrı-ayrı sahələr üzrə məsaməlilik qiymətlərindəki dəyişikliklərin təhlili bu göstəricinin struktur planından asılılığını göstərir. Əzilmə zonalarında məsaməliliyin müəyyən qədər artması da qeyd olunur. Qeyd etmək lazımdır ki, su anbarının xassələrinin sahələr üzrə dəyişməsi bölmələrə görə daha çox nəzərə çarpır.




**Şəkil 4. Şamaxi -Qobustan çökəkliyi sahələrinin üçölçülü litofasiya modeli (a) və petrofiziki məsaməlilik modeli (b).**

Hövzə modelləşdirməsinin faktiki nəticəsi karbohidrogen yataqlarının yerini, resurs həcmlərinin ehtimal dəyərlərinin intervallarını və mayenin tərkibinə dair keyfiyyətli məlumatları təsvir edən ən ehtimal olunan ssenaridir. Modelləşdirmə nəticəsində əldə edilən müşayiətedici məlumatlar hövzənin təkamülü və bir çox petrofiziki və geokimyəvi parametrlərin qiymətlərinin həm indiki mərhələdə, həm də onun inkişaf tarixində hövzənin həcmində paylanmasına dair məlumatlardır. Modelləşdirmənin üstünlükləri böyük miqdarda geoloji məlumatı təhlil etmək və fərdi xüsusiyyətlərə deyil, bütün məlumat toplusuna əsaslanaraq seçim etmək imkanıdır; çoxsaylı ssenarilər yaratmaq və başlanğıcda məlum olmasa belə, giriş parametrlərinin ən çox ehtimal olunan diapazonunu seçməklə məlumat çatışmazlığını kompensasiya etmək; bir neçə mütəxəssisin subyektiv təcrübəsinə deyil, bir çox mütəxəssislərin təcrübəsinə və işinə, həmçinin fiziki, kimyəvi və statistik qanunauyğunluqlara əsaslanaraq ən obyektiv nəticə vermək.

**Nəticə.** Beləliklə, Şamaxı-Qobustan yatağının neft-qaz əmələgəlmə proseslərinin modelləşdirilməsi göstərdi ki, tədqiq olunan ərazidə ən böyük model yığımları məkan baxımından Şamaxı-Qobustan yatağının real karbohidrogen yataqları ilə üst-üstə düşür. Neft və qaz potensialının kəmiyyət qiymətləndirilməsi yataqda faktiki ümumi karbohidrogen ehtiyatlarına uyğundur ki, bu da aparılan hesablamaların adekvatlığını təsdiq edir.

## ƏDƏBİYYAT

1. Юсифов Х.М. Нефтегазоносность и неантиклинальные ловушки палеоген-миоценовых отложений ШамахыГобустана. – Баку: Марс Принт, 2016. – 204 с.

2. Юсифов Х.М., Рахманов Р.Р., Мамедов С.Б., Эфендиев А.А.// Геологичесие основы поисков нефтегазовых месторождений в палеоген-миоценовых отложениях Восточного Азербайджана / Геолог Азербайджана. – 2006. – № 1. – С. 46–63.

3. Юсифов Х.М., Рахманов Р.Р. Выбор направления поисковоразведочных работ и уточнение геологического строения и перспективности мезокайнозойских отложений ЮгоВосточного Гобустана-Западного Абшерона: заключительный отчет научно-исследовательской работы НИИГНКАР. – Баку, 2008. – 208 с.

4. Prognosis of Baku archipelago hydrocarbon potential by types of mud volcanoes / N.R. Narimanov, G. Gahramanov, M.S. Babayev, S.G. Shpirco, G.J. Nasibova, K.Z. Mukhtarova // Вестник Киевского национального университета имени Т. Шевченко. Геология. – 2019. – № 4 (87). – С. 55–62.

5. Hantschel T., Kauerauf A. Fundamentals of Basin and Petroleum Systems MoCenozoic stag of development of local structures of the Lower Kura Depression and Baku Archipelago related to their oil and gas perspectivity / N.R. Narimanov, N.A. Babayev, G. Gahramanov, Z. Javad-Zadeh // Geological Journal. – 2018, 2 July. – № 10. – P. 337–341.

6. Mukhtarova K.Z., Nasibova G.J., Ahmadov M.G. The role of South-Eastern Gobustan and Absheron depressions clays with rheologically active properties in formation of structures and mud volcanism // American Association Educational Researcher, Washington. – 2016, December. – № 9. – P. 673–678.

**№ 1/2026** **səh.80-86**
**УДК 62 (621)**

## МОДЕЛИРОВАНИЕ СТРУКТУРНО-ТЕКТОНСКОЙ И ГЕОХИМИЧЕСКОЙ ЭВОЛЮЦИИ В ФОРМИРОВАНИИ НЕФТЕГАЗОВЫХ СИСТЕМ ШАМАХИ-ГОБУСТАНСКОГО МЕСТОРОЖДЕНИЯ

**Исмат Новруз Мамедов**
**Азербайджанский Государственный Нефтегазовый Университет**
**ismatmammadovv1@gmail.com**

***Резюме.****Целью статьи является моделирование структурно-тектонической и геохимической эволюции при формировании нефтегазоносных систем Шемахино-Гобустанской впадины. В качестве объектов исследования были взяты структуры Шемахино-Гобустанской впадины. Проведено моделирование структурно-тектонической и геохимической эволюции при формировании нефтегазоносных систем Шемахино-Гобустанской впадины.*

***Ключевые слова:*** *нефть и газ, структурно-тектонический, осадочный, геохимический, моделирование.*

**UDC 62 (621)**

## MODELIZATION OF STRUCTURAL-TECTONIC AND GEOCHEMICAL EVOLUTION IN THE FORMATION OF OIL AND GAS SYSTEMS OF THE SHAMAKHI-GOBUSTAN DEPOSITARY

**Ismat Novruz Mammadov**
**Azerbaijan State Oil and Industry University**
**ismatmammadovv1@gmail.com**

***Summary.*** *The purpose of the article is to conduct modeling of structural-tectonic and geochemical evolution in the formation of oil and gas systems of the Shamakhi-Gobustan depression. Structures from the Shamakhi-Gobustan depression were taken as objects. Modeling of structural-tectonic and geochemical evolution in the formation of oil and gas systems in the Shamakhi-Gobustan depression was conducted.*

***Keywords:*** *oil and gas, structural-tectonic, sediment, geochemical, modeling.*

Redaksiyaya daxilolma: 25.02.2026
Çapa qəbul olunma: 19.03.2026

№ 1/2026 səh.87-93

| UOT 677.025:687.01:659.153 |
| --- |
| DOI 10.30546/JIECM.2026.001.2069 |


# QURULUŞUNDA MƏQSƏDYÖNLÜ QÜSURLAR OLAN KOPUNLARDAN HAZIRLANMIŞ TRİKOTAJ MƏMULATLARININ XÜSUSİYYƏTLƏRİ

**Cahangir Əhməd oğlu Hacıyev, Anaxanım İntiqam qızı Rzazadə**
**Azərbaycan Texnologiya Universiteti**
**Gəncə şəhəri, Ş.İ. Xətai pr. 103**
**j.hajioglu@rambler.ru, anakhanimrzazade@gmail.com**

***Xülasə.*** *Bu məqalədə quruluşunda planlı qüsurları olan kuponların (hissələrin) istehsalına və onlardan da çoxsaylı qüsurları olan məhsulun hazırlanmasına ehtiyacın yaranma səbəbləri araşdırılmışdır. Bunun üçün öncə adi texnologiya ilə alınan kuponların quruluşu təhlil edilmişdir. Daha sonra nəticələr başqa bir texnologiya ilə alınan və quruluşunda planlı qüsurları olan və naxış effektləri kimi təqdim olunan kuponlarla müqayisə edilmişdir. Məlum olmuşdur ki, planlı qüsurları olan, zay və keyfiyyətsiz kuponlardan (hissələrdən) məmulat hazırlamaqda əsas məqsəd istehsalçının mənfəətini qorumaq olmuşdur. O da bilinmişdir ki, istehsalçılar müəssisədə yığılmış və böyük tullantıya (qırıntıya) səbəbiyyət verən keyfiyyətsiz kuponlardan aldadıcı dəb (moda) adı ilə jaket, cemper, sviter və b. bu kimi məhsullar istehsal etmişlər.*

***Açar sözər:*** *qüsurlar, kupon (hissə), dəb (moda), məmulat, keyfiyyətsiz*

***Giriş.*** Üst trikotaj istehsalında məmulatların 3 üsulla alındığı məlumdur [1, səh. 86, 87; 2, səh. 201–203; 3, səh. 183, 184]. Trikotaj məmulatları əsasən biçmə, nizamlı və yarımnizamlı üsullarla istehsal olunur.

Biçmə üsulunda məmulatın bütün hissələrinin konturu bıçaqla kəsilmiş olur və sonra tikmə prosesində açıq tərəflər sökülməmək üçün bükülür və s. Alt trikotaj məmulatlarının 90%-dən çoxu, üst trikotaj məmulatlarının yarısına qədəri və əlcək məmulatlarının çox hissəsi bu üsulla alınır. Bu üsulun əsas fərqləndirici cəhəti biçmə prosesində qırıntıların 23%-ə qədər, bəzi hallarda isə, məmulatın modelindən asılı olaraq daha çox olmasıdır.

Nizamlı üsulun üstünlüyü məmulat istehsalında ümumi tullantının aşağı olmasıdır. Nizamlı üsulla istehsal olunan trikotaj məmulatlarının hissələrinin ətəyi sökülməyən, kənarları isə ülgünün konturuna uyğun hörüldüyündən demək olar ki, biçmə prosesinə ehtiyac qalmır, bu üsulda xammala qənaət olunur və tikmə əməliyyatları azalır. Məsələn, "Kometa", "FCM" dairəvihörücü avtomatında (İngiltərənin "Bentli" firması) sviter, "JET-2F" səthifanq maşınında (İsveçrənin "Dübye" firması) cemper, sviter, jaket, dairəvi corab avtomatlarında corab, əlcək avtomatlarında əlcək (əllik) və bir çox trikotaj məmulatları ayrı-ayrı avadanlıqlarda nizamlı üsulla istehsal olunur.

Yarımnizamlı üsulda sözügedən tullantının miqdarı xeyli çox olsa da, biçilmə üsulu ilə alınan məmulatlardan alınan ümumi qrıntıların miqdarından azdır. Yarımnizamlı üsulla istehsal olunan məmulatların ətək hissəsi və bəzi məmulatlarda, məsələn, jaketlərdə, kuponun eni məmulatın eninə uyğun gələrsə, yan tərəflərin də biçilməsinə və tikilməsinə ehtiyac qalmır. Biçmə üsulu ilə müqayisədə modeldən asılı olaraq, qırıntı 2–10% azalır, biçmə-tikmə proseslərində əmək məhsuldarlığı xeyli yüksəlir, vaxt sərfi isə 8–11% az olur. Yarımnizamlı üsulun nizamlı üsula nisbətən əsas üstünlüyü istehsal olunan məmulatların çeşidinin çoxluğu, istifadə olunan maşın parkının böyüklüyü və hörmə prosesində əmək məhsuldarlığının yüksək olmasıdır. Bu amillər üst trikotaj məmulatları istehsalında yarımnizamlı üsula daha çox yer verir.

Hal-hazırda yarımnızamlı üsul ilə alınan bəzi məmulatların texnologiyasında, dəblə əlaqədar olaraq, müəyyən dəyişikliklər edilmişdir. Bunların nəticəsində, məmulatın səthində planlaşdırılmaya uyğun olaraq qüsurlu sahələr alınır. Halbuki, standartın normalarına görə məmulatlarda belə qüsurlara yol verilməməlidir və qüsurları olan məmulatlar keyfiyyətsiz sayılır. Baxılan halda isə məmulatın

**№ 1/2026** **səh.87-93**

üzərində qüsurlu sahələr olsa da bu "qüsurlu" sayılmır. Keyfiyyətsiz məhsul keyfiyyətli kimi ortaya qoyulur. Belə yanaşma bir paradoks effekti yaradır.

Bilindiyi kimi parçadan olan qüsurlu cins materialdan əsasən böyüklər üçün qadın və kişi şalvarları, don, ətək və gödəkçələr hazırlanır [4]. Tədqiqatlar və təhlillər nəticəsində müəyyən edilmişdir ki, bu cür qüsurlu materiallardan dəb (moda) adı altında sözügedən məmulatların hazırlanmasının səbəbi anbarlarda yığılıb qalmış qüsurlu cins parçaların işə keçirilməsidir. Qarşıya qoyulan fikri (ideyanı) həyata keçirməkdə əsas məqsəd elmi tərəqqi deyil, əksinə sahibkarların mənafeyinə xidmətdir. Burada "işbazlar"ın qayəsi texnoloq və dizaynerlərin bilik və düşüncələrindən faydalanaraq, müəssisədə yığılan qüsurlu materialları məhsula dönüşdürməklə, istehlakçıların aldadılması üzərindən əlavə gəlir əldə etmək olmuşdur. İstehsalçılar cırıq-cırıq cins materialdan hazırlanmış məhsulları dəbə mindirərkən düşünmə qabiliyyəti qüsurlu olan, zəif xarakterli və ətrafdakıların fikrinə əhəmiyyət verməyən insanların alıb geyinəcəklərini dəqiq hesablamışlar.

Bilindiyi qədəri ilə nizamlı tam birqat trikotajda jakkard ilmələrinin arxasından keçən birləşmələrin sayı və uzunluğu artdıqca uzun birləşmələrin istismar zamanı qırılmaları mümkündür. Eyni zamanda birləşmələrin uzunluğunun artması ilə trikotajın dartılması da azalır. Ona görədə sözügedən hörmə ilə alınan trikotajın naxışları və ya şəkilləri kiçik ölçülü olmalıdır [5, səh. 114, 115]. Qırılmalar əsasən məmulat geyinilən və soyunulan zaman birləşmələrin məs., düyməyə, qarmağa ilişməsi nəticəsində olur. Trikotaj məmulatı yuxarıda qeyd olunan jakkard hörməsindəndirsə, istehlakçı birləşmənin və ilişə biləcək elementlərin (düymənin və s.) ölçülərinə diqqət etməlidir. Bu iş əslində məmulatı istehsal edən müəssisənin texnoloq və dizaynerinin məsuliyyətindədir. Onların satışa çıxartdığı məhsul istismar zamanı istehlakçının komfortuna – rahatlığına əlavə problem yaratmamalıdır.

Trikotaj məmulatlarında planlı şəkildə qüsurlu yerlərin olması və belə məmulatların dəb (moda) adı ilə insanlar üçün nəzərdə tutulmasının qayəsinin aşkarlanması mühüm əhəmiyyət kəsb edir və mövzunun aktuallığını göstərir.

**Mövzunun aktuallığı.** Adi texnologiya ilə alınan və planlı qüsurlarla alınan kuponlardan (hissələrdən) hazırlanmış trikotaj məmulatlarının quruluşunun hər bir variantı – nümunəsi araşdırılmalı, onların xarakterik cəhətləri üzə çıxarılmalıdır. Planlı qüsurlarla alınan kuponlardan (hissələrdən) hazırlanmış trikotaj məmulatlarına yaranan ehtiyac müəyyən edilməlidir. Bu baxımdan sözügedən mövzunun aktuallığı onun həllini tələb edir.

**Tədqiqatın məqsədi.** Planlı qüsurlarla alınan kuponlardan (hissələrdən) hazırlanmış trikotaj məmulatlarının nümunələri araşdırılmalı, onların adi texnologiya ilə alınan məmulatlardan fərqli: mənfi və müsbət cəhətləri müəyyən edilməlidir.

**Tədqiqat obyekti.** Adi texnologiya ilə alınan və planlı qüsurlarla alınan kuponlardan (hissələrdən) hazırlanmış trikotaj məmulatlarının fərqli nümunələri tədqiqat obyekti olaraq seçilmişdir.

**Tədqiqat metodları.** Adi texnologiya ilə alınan və planlı qüsurlarla alınan kuponlardan (hissələrdən) hazırlanmış trikotaj məmulatlarının müxtəlif variantları üzərində aparılan araşdırmalarda nəzəri yanaşmalarla bərabər, təcrübi nəticələr qarşılıqlı müqayisə edilməlidir.

## Materiallar və müzakirələr

Planlı qüsurları olan kuponların (hissələrin) istehsalına və onlardan da çoxsaylı qüsurları olan məhsulun hazırlanmasına ehtiyacın yaranma səbəbini müəyyənləşdirmək üçün öncə normal və mövcud texnologiya ilə alınan kuponların (hissələrin) xüsusiyyətlərinə baxaq.

Yarımnizamlı üsulla məmulatlar boruvari və açıq – səthi (müstəvi) kuponlardan alınır. Kuponlar uyğun dairəvihörücü və səthihörücü maşınlarda hörülür. Kuponların hörülməsinin texnologiyasından məlumdur ki, alınmış kuponun üç – kəmər (ətək) 1, bədən 2, keçid (ayırıcı) cərgələri 3 hissələri olur (şəkil 1) [3, səh. 185, 186]. ПВКМ (Rusiya) tipli səthihörücü maşınlarda (SHM) məmulat hissəsinin ülgüsünün konturuna nisbətən uyğun (şəkil 1, *a*), "Universal MC-M" tipli səthihörücü maşınlarda isə düzbucaqlı, müstəvi şəklində açıq kuponlar (şəkil 1, *b*) hörülür.

Dairəvihörücü maşınlarda (DHM) hörülən kuponlar boruvari olurlar. Çoxsistemli dairəvihörücü maşınlarında kuponların hörülməsinin xüsusiyyətləri imkan verir ki, boruvari

kuponlarda üç hissə əvəzinə dörd – yəni kəmər (ətək) 1, bədən 2, keçid (ayırıcı) cərgələri 3 və qüsurlu 4, şərti yan hissələrinin olduğu göstərilsin (şəkil 1, c).




**Şəkil 1. Səthihörücü və dairəvihörücü maşınlarında alınan məmulat hissəsinin (*a*) və kuponun (*b*), (*c*) sxemi**

Boruvari kuponların başlanğıc cərgələri kəmər (ətək) 1 hörməsinin növündən, hörmədə iştirak edən hörücü sistemlərin sayından asılı olaraq, birinci və sonuncu sistemlərin yaratdıqları ilmə cərgələri yivvari xətt üzrə sürüşmüş alınır. Bu maşında hörücü sistemlərin klinlərinin (pazlarının) vəziyyətlərini dəyişmə xəttinə uyğun yerdə, kuponun doğuranı boyu qüsurlu 4 yan hissəsini əmələ gətirir.

Boruvari kuponun çertyojunda 1, 2, 3 hissələri nazik xətlə qüsurlu 4 hissəsi isə qalan hissələrdən fərqli olaraq qalın xətlə qeyd olunur (şəkil 1, c). Qüsurlu 4 hissəsi iki cür qüsurla xarakterizə olunur.

Kuponlarda qüsurlu hissə təkcə göstərilən yerlərdə deyil onun, ətəyində 1, bədənində 2 olur. Amma bu qüsurlar hörülmə prosesində texnoloji tələbata uyğun olaraq həyata keçirilir.

Sual oluna bilər ki, nəyə görə yeni texnologiya ilə hazırlanmış bəzi məmulatlarda bilə-bilə əlavə qüsurlara yol verilir? Qarşıya qoyulan sualın cavabını tapmaq üçün indi də planlı qüsurları olan kuponların (hissələrin) istehsalına və onlardan məmulat hazırlanmasına aparan niyyəti müəyyən etmək lazımdır. Bu iki texnologiyanın nəticəsində alınan kuponların (məmulatların) müqayisəsini apardıqdan sonra ancaq doğru-düzgün təkliflər vermək olar.

Məlum olduğu kimi, kuponun (hissənin) çoxrəngli və birrəngli saplarla hörülməsi müxtəlif hörmələrdən istifadə olunmaqla yerinə yetirilir. Rəngli saplarla hörülən kupon və ya hissələr daha çox jakkard, pres-jakkard, pyuş, ajur və s. hörmələrlə istehsal edilir. Birrəngli saplardan olan kuponlar (hissələr) üçün hörmə seçiminə: Reps, Milan lastiki, Fransız, İsveçrə, Holland pikeləri və digər çoxsaylı hörmələr daxildir. Qüsurlu kuponlar (hissələr) almaq üçün müəyyən planlaşdırılmış texnoloji gedişlər nəzərdə tutulur. Məmulatda yol verilən qüsurlar, müxtəlif xarakterli cırıq yerlər nəzarətdə saxlanılır.

Bu məqsədlə görüləcək işlərə aşağıdakıları aid etmək olar:

1. İlmələrin köçürülməsi yerinə yetirilmiş sahələrdə deşiklərin alınması;
2. İlmələrin köçürülməsi yerinə yetirilməmiş sahələrdə ilmələrin cərgələrdə qismən iynədən tullanması;
3. İlmələrin köçürülməsi yerinə yetirilmiş sahələrdə müəyyən ilmə sütunlarında ilmələrin alınması baş vermir və onların yerində birləşmələrin – kəsiklərin (sapın) alınması;
4. Trikotajın səthində müxtəlif xarakterli deşiklərin alınması;
5. Astar ilmələrinin tullanması ilə üz ilmələrinin həm formasının, həm də ölçülərinin dəyişməsi və s.

Yuxarıda qeyd olunanların alınma texnologiyası aşğıdakıları özündə ehtiva edir:

1. İlmələr əmələ gətirilmir: Bu istehsalatda tədbiq olunan əsas üsuldur. Bəzi iynələr işdən çıxarılır – həmin yerlərdə sap düz xətt kimi keçir və materialda ilmələrdən fərqli quruluş əmələ gətirir (ştrixlər şəklində və onların arasında boşluq). Sonralar həmin düz xətt şəklində olan sapları xüsusi bıçaq, ulgüc, qayçı və s. ləvazimatlarla kəsib onların yerində deşiklər və sap uclarından alınan effekt yaratmaq olar. Cərgələri birləşdirən düz xətt şəklindəki sapları müəyyən ardıcıllıqda, məs., bir sapdan bir, iki sapdan bir, sapların hamsı kəsilməklə "qüsur – naxış" əmələ gətirmək olar.

**№ 1/2026** **səh.87-93**

2. Hörülmədən sonra bəzi ilmə sütunlarının sökülməsi: Bunun üçün xüsusi ləvazimatlarla ardıcıl və ya müəyyən ardıcıllıqlarla ilmə sütunlarında sapların kəsilməsi;
3. Hörülməyə xüsusi sapların daxil edilməsi (xüsusi sap olaraq əriyən saplardan istifadə olunur).

Araşdırmalar göstərir ki, səthində cırıq – qüsurlu yerlər olan və ən çox istifadə olunan məmulatlar qadınlara aid olan jaket, cemper və sviterdir. Bu məhsulların istehsalında əsasən yun, pambıq, kətan, viskoza kimi iplik və saplar yer alır.

Triotaj kuponları hörülərkən onun ətək və bədən hissələrində sap qırılmasından qüsurlar alınır. Belə kuponlar istehsalatda yığılaraq qalır. Yaxşı halda onları qismən sap halına salmaq olur, ya da doğrayıb kiçik hissələr (cib, yaxalıq və s.) əldə edirlər. Bunlara baxmayaraq alınan tullantının miqdarı çox olur. İstər-istəməz tullantını azaltmaq üçün yollar axtarılmalıdır. İşbazlar çıxış yolunu burada da cins parçada faydalandıqları aldatma üsulunda görüblər.

Baxmayaraq ki, həm cır-cındır və ya el arasında deyildiyi kimi it ağzından çıxmış cins geyimlər, həm də müxtəlif xarakterli deşikləri və cırıq yerləri olan trikotaj məmulatları (cemperlər, jaketlər və s.) keyfiyyətli sayılmırlar, amma onlar keyfiyyətli kimi istehlak olunurlar. Belə məmulatların qüsurları aşağıdakı şəkillərdə də görünür (şəkil 2). Şəkil 2, *a*-da dəbdə olan keyfiyyətli sayılan, lakin ətəyində və qollarında qüsurları olan keyfiyyətsiz qadın cemperinin, şəkil 2, *b* və şəkil 2, *c*-də isə qollarında qüsurları olan başqa bir keyfiyyətsiz qadın cemperinin fotosu göstərilmişdir [6].

Trikotajın keyfiyyət göstəricilərində aydın yazılır ki, keyfiyyət materialların xüsusiyyətləri ilə, daha doğrusu onların xassələrinin göstəriciləri ilə əlaqədardır. Hər hansı konkret bir materialın keyfiyyəti qiymətləndirilərkən bu göstəricilər onların səviyyəsinə qoyulan tələblərlə müqayisə edilir. Bu zaman, materialın təyinatı, üzrə düzgün istifadə olunub – olunmaması nəzərə alınmalıdır. Standart, məhsulun keyfiyyətini onun təyinatına uyğun olaraq, müəyyən tələbləri təmin etmək üçün, onun yararlığını şərtləndirən xassələrin məcmusu (toplusu) kimi təyin edir [7, səh. 7, 8; 8, səh. 237; 9, səh. 33–36].



a) b) c)

**Şəkil 2. Dəbdə olan aşağı keyfiyyətli üst trikotaj məmulatlarının üzərində alınmış planlı qüsurlar**

Zaman ərzində məhsul keyfiyyətinin dəyişməsi azalan xətt üzrə davam edir [10]. Materiallara qoyulan tələblər, istifadə sahələri və şərtləri dəyişir, uyğun olaraq, onların xassələrinin göstəricilərinin səviyyələri də dəyişir. Lakin müəyyən şəraitdə bu səviyyənin tələblərə uyğun gəlməsinə, yəni keyfiyyətin yüksək olmasına çalışmaq lazımdır.

İşin keyfiyyəti, əsasən, xammalın və məhsulun keyfiyyətindən asılıdır, burada isə onların quruluşu və xassələri mühüm rol oynayır. Hazır məhsul keyfiyyət göstəricilərinin toplusu ilə xarakterizə olunur. Məhsulun təyinatından və istehlakçı tərəfindən ona qoyulan tələblərdən asılı olaraq keyfiyyəti müəyyənləşdirən xassələr fərqli olur.

İki texnologiya ilə istehsal olunan kuponların (hissələrin) və onlardan hazırlanan məmulatların keyfiyyətə uyğunluğu yoxdur. Adi – ənənəvi texnologiya ilə alınan məmulatların keyfiyyəti əsasən aşağıdakılarla səciyyələnir:

təyinat göstəriciləri; texniki və ya texnolojilik göstəriciləri; erqonomik göstəricilər; estetik göstəricilər; standartlaşdırma və unifikasiya (vahid şəklə salma) göstəriciləri; hüquqi – patent göstəriciləri; iqtisadi göstəriciləri; etibarlılıq göstəriciləri; ekoloji göstəricilər; gigiyenik və ya təhlükəsizlik göstəriciləri.

Trikotaj məmulatlarının keyfiyyət göstəriciləri standartla aşağıdakı kimi qruplaşdırılır:

1. Təyinat göstəriciləri, xammalın növü və tərkibi, onun xətti sıxlığı, məmulatın xətti ölçüləri, hörmənin növü, trikotajda ilmələrin sıxlığı, trikotajın səthi sıxlığı;

2. İstismar göstəriciləri, qırılma yükü, qısalma, sürtülməyə davamlıq, keçələnməyə davamlıq, ilmələrin dartılmaya davamlığı, boyağın (rəngin) davamlığı, məmulat hissələrinin dartılması, formadavamlılıq;

3. Estetik göstəriciləri, rəng tərtibatı (işləri), naxış (şəkil), hörmə, quruluş, ağlılıq;

4. Gigiyenik göstəriciləri, hiqroskopiklik, havakeçirmə, ümumi istilik müqaviməti, xüsusi elektrik müqaviməti, preparasiyanın olması.

Bilindiyi kimi, keyfiyyət dəyişməyən anlayış deyildir . Qumaşının hörmə quruluşundan da görünür ki, qüsurlu trikotaj məmulatı əvvəlcədən – istismara başlanan ilk gündən keyfiyyətsisdir. Onun zaman ərzində keyfiyyətinin daha da pisləşəcəyi müşahidə olunacaqdır.

Qüsurlu kuponlarda yaradılan "planlı qüsurlar" qumaşın hörmə quruluşunu dəyişməklə yanaşı, materialın xassələrini mənfi yöndə dəyişir, məs., ilmələr alınmayan yerlərdə birləşmələrin olması adi – ənənəvi texnologiya ilə alınan məmulatların keyfiyyətində olan şərtlərin pozulması ilə müşayiət olunur. Trikotajın dartılması pisləşir – zəifləyir. Sürtünməyə davamlılığından söz belə gedə bilməz, çünki trikotajın səthində qüsurlu yerlər əvvəlcədən var. Belə trikotajdan istifadə təhlükəsiz deyildir, materialın səthində olan deşiklərin və ya sapların ətrafdakı müxtəlif xarakterli çıxıntılı yerlərə ilişməsi qaçılmazdır və s., və i.a.

Məlumdur ki, kuponların (hissələrin) istehsal prosesində özü-özünə yaranan, uzunluğu və eni dəyişən kuponlardan alınan tullantılardan (qırıntılardan) və sap qırılması və başqa səbəblərdən alınan qüsurlu kuponlardan daha səmərəli istifadə etmək çətin olur. Yuxarıda qeyd olunanları da nəzərə almaqla, birmənalı olaraq, belə qənaətə gəlmək olar ki, planlı qüsurları olan kuponların (hissələrin) istehsalına və onlardan da çoxsaylı qüsurları olan məhsulun hazırlanmasına ehtiyacın qayəsi sahibkarların mənafeyinə xidmət etməkdir. Burada əsas meyar dəb (moda) adı altında istehlakçıları aldadaraq, müəssisələrdə istehsal prosesində alınan qüsurlu kuponların (hissələrin) daha səmərəli istifadəsidir.

Infrared imaging, one of the NDT techniques, is a powerful tool for detecting problems in machines [13]. In the confectionery industry, thermography can be used to identify overheating parts such as motors, rollers, or mixers. Excessive friction or improper lubrication often causes parts to overheat, and IR cameras can quickly detect temperature changes between different machine components.

Ultrasonic testing is another widely used NDT technique that uses high-frequency sound waves to detect internal defects in metal components. Ultrasonic sensors can be used to assess the thickness of major machine parts under investigation without dismantling them. By assessing the integrity of the material, ultrasonic testing can identify hidden wear patterns, such as cracks or material thinning, which are not visible with traditional methods.

**Conclusion.** To sum up, mechanical wear of specific parts of machines used not only in confectionery production machines, but also in the food industry, has a significant impact on production efficiency, operating costs, and most importantly, product quality. Targeted strategies, including the use of advanced materials, precise maintenance schedules, and modern monitoring technologies, are essential to overcome these problems. Paying attention to the longevity of key components such as mixers, molds, cutting blades, and conveyor systems can lead to improved operational performance. By adopting these methods, the confectionery manufacturing industry can maintain high-quality production standards while minimizing downtime and costs.

## REFERENCES

1. Swain, B., Bhuyan, S., Behera, R., Mohapatra, S. S., & Behera, A. (2020). Wear: a serious problem in industry. *In IntechOpen eBooks*. https://doi.org/10.5772/intechopen.94211
2. Storchak, M., Möhring, H., & Stehle, T. (2021). Improving the friction model for the simulation of cutting processes. *Tribology International*, *167*. https://doi.org/10.1016/j.triboint.2021.107376
3. Weihe, T., Schnabel, U., Winter, H., Möller, T., Stachowiak, J., Neumann, S., Schlüter, O., & Ehlbeck, J. (2021). Reduce and refine: Plasma treated water vs conventional disinfectants for conveyor-belt cleaning in sustainable food-production lines. *Journal of Applied Physics, 129(22).* https://doi.org/10.1063/5.0047112
4. Šmídová, I., Čopíková, J., Maryška, M., & Coimbra, M. (2003). Crystals in hard candies. *Czech Journal of Food Sciences, 21(5),* 185–191. https://doi.org/10.17221/3497-cjfs
5. Konyashin, I. (2014). Cemented carbides for mining, construction and wear parts. *In Elsevier eBooks (pp. 425–451).* https://doi.org/10.1016/b978-0-08-096527-7.00015-5
6. Kain, V. (2011). Corrosion-Resistant materials. *In Elsevier eBooks* (pp. 507–547). https://doi.org/10.1016/b978-0-12-385142-0.00012-x
7. Ardashev, D. V., & Degtyareva-Kashutina, A. S. (2022). Technological aspects of applying high-quality hard chrome coating to titanium parts for the oil and gas industry. *Proceedings of Oil Gas Scientific Research Projects Institute SOCAR.* https://doi.org/10.5510/ogp2022si100699

8. Chintada, V. B., Koona, R., & Bahubalendruni, M. V. a. R. (2021). State of Art review on Nickel-Based Electroless Coatings and materials. *Journal of Bio- and Tribo-Corrosion, 7(4).* https://doi.org/10.1007/s40735-021-00568-7
9. Deshwal, D., Belgamwar, S. U., & Bekinal, S. I. (2024). Tribological characterization of PTFE composites for ball bearing applications. *Cogent Engineering, 11*(1). https://doi.org/10.1080/23311916.2024.2434625
10. Namhata, N. P., Naskar, N. S. K., Bose, N. D., & Chatterjee, N. S. (2021). Risk Priority Number (RPN) assessment in design failure modes and effective analysis for the Automobile Plant using factor analysis. *Instant Journal of Mechanical Engineering*, 20–24. https://doi.org/10.36811/ijme.2021.110006
11. Ozilgen, S. (2012). Failure Mode and Effect Analysis (FMEA) for confectionery manufacturing in developing countries: Turkish delight production as a case study. *Food Science and Technology, 32(3),* 505–514. https://doi.org/10.1590/s0101-20612012005000083
12. Huseynzade, E., & Abdullayev, H. (2024). Usefulness of vibration analysis techniques and sensors to improve the monitoring of industrial equipment. *Journal of Innovations in Business and Industry, 2(4),* 217–222. https://doi.org/10.61552/jibi.2024.04.004
13. Huseynzade, E., & Abdullayev, H. (2024). Infrared imaging analysis as non-destructive maintenance of food processing equipment. *Journal of Materials and Engineering, 2(4),* 315–322. https://doi.org/10.61552/jme.2024.04.009

**UOT 664.1**

## AVADANLIQLARIN NASAZLIĞININ ŞİRNİYYAT MƏMULATLARI İSTEHSALI ƏMƏLİYYATLARINA TƏSİRİ

**Həmid Şahmar oğlu Abdullayev**
**Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC)**
**hamid_abdullayev@unec.edu.az**

***Xülasə.*** *Şirniyyat maşınlarının xüsusi hissələrinin mexaniki yeyilməsi əməliyyat səmərəliliyinə, məhsulun keyfiyyətinə və ümumi məhsuldarlığa əhəmiyyətli təsir göstərir. Mikserlər, qəliblər, kəsici bıçaqlar, konveyer lentləri kimi əsas maşın komponentləri abraziv yeyilmə, adheziya və yorğunluq problemləri səbəbindən yeyilməyə məruz qalır. Bu məqalə yeyilmənin yaratdığı əməliyyat problemləri, qabaqcıl materiallara və təkmilləşdirilmiş proqnozlaşdırıcı texniki qulluq sistemlərinə diqqət yetirərək aşınmanı minimuma endirməyə yönəlmiş strategiyaları araşdırır.*

***Açar sözlər:*** *Mexaniki yeyilmə, Şirniyyat maşınları, Əməliyyat səmərəliliyi, Məhsulun keyfiyyəti, Proqnozlaşdırılmış texniki qulluq, Qabaqcıl materiallar, Kəsmə bıçaqları, Mikserlər*

**УДК 664.1**

## ВЛИЯНИЕ ВЫХОДА ИЗ СТРОЯ ОБОРУДОВАНИЯ НА ПРОЦЕСС ПРОИЗВОДСТВА КОНДИТЕРСКИХ ИЗДЕЛИЙ

**Хамид Шахмар оглы Абдуллаев**
**Азербайджанский Государственный Экономический Университет (UNEC)**
**hamid_abdullayev@unec.edu.az**

***Резюме.*** *Механический износ отдельных частей кондитерских машин оказывает существенное влияние на эффективность работы, качество продукции и общую производительность. Основные компоненты машин, такие как смесители, матрицы, режущие лезвия и конвейерные ленты, подвержены износу из-за абразивного износа, адгезии и*

**№ 1/2026** **səh.111-121**

*усталости. В статье рассматриваются эксплуатационные проблемы, связанные с износом, стратегии, направленные на минимизацию износа, с упором на современные материалы и усовершенствованные системы предиктивного обслуживания.*

***Ключевые слова:*** *Механический износ, Кондитерское оборудование, Эффективность эксплуатации, Качество продукции, Прогностическое обслуживание, Современные материалы, Режущие лезвия, Миксеры*

Redaksiyaya daxilolma: 15.01.2026
Çapa qəbul olunma: 19.03.2026

№ 1/2026 səh.122-127

| |
|---|
| УДК 621.9:664 |
| DOI 10.30546/JIECM.2026.001.2084 |

# ПОВЫШЕНИЕ ИЗНОСОСТОЙКОСТИ ДЕТАЛЕЙ И РАБОЧИХ ОРГАНОВ ПИЩЕВОГО ОБОРУДОВАНИЯ

**Конул Расим кызы Гасанова**
**Азербайджанский Технологический Университет**
k_qasanova@mail.ru

***Резюме.*** *В статье рассматриваются проблемы повышения износостойкости деталей и рабочих органов технологического оборудования пищевой промышленности. Проведен анализ причин изнашивания, влияния трения и агрессивных сред на эксплуатационные характеристики машин. Особое внимание уделено современным методам повышения надежности оборудования за счет применения новых материалов, технологий поверхностного упрочнения и рациональных конструктивных решений. Представлены практические рекомендации по снижению износа и увеличению срока службы оборудования.*

***Ключевые слова:*** *пищевая промышленность, износ, трение, надежность, долговечность, упрочнение поверхности, материалы, оборудование.*

**Введение.** Во всех отраслях промышленности Азербайджана ставится цель максимально устранять потери и нерациональные расходы не ремонт и запасные части оборудования.

Бесперебойность работы оборудования важна для каждого промышленного предприятия, в особенности для пищевых предприятий.

Характерной особенностью современного пищевого производства является интенсификация технологических процессов и повышение производительности оборудования. Эта особенность влечёт за собой увеличение скорости изнашивания поверхностей деталей, ы в результате нарушение нормальной работы всего оборудования [60]. В конечном итоге предприятия несут убытки не только от простоя оборудования, но и от порчи продуктов.

Поэтому повышение износостойкости трущихся деталей пищевых оборудований является одной из основных задач в проблеме увеличения срока службы и надёжности работы машин, используемых в пищевой промышленности.

В настоящеем время особое внимание уделяется разработке средств борьбы изнашиванием, базирущихся не только на тщательно анализе износа деталей оборудования предприятей пищевого прозводства, но и подборе технологических сред, в которых они работают.

Для решения данной проблемы рекомендуются следующие мероприятия **[1]:**

1. разработка конструкций, рациональных с точки зрения уменьшения интенсивности изнашивания. Оно направлено на улучшение условий работы трущихся сопряжений и облегчения ремонта;

2. выбор материала деталей, обладающего достаточной износостойкостью в данных условиях эксплуатации (например, использование легированных сталей и качественных чугунов намного повышает износостойкость оборудования);

3. технологические улучшения свойств трущихся поверхностей, повышающие износостойкость в данных условиях эксплуатации;

4. эксплуатационные мероприятия, снижающие интенсивность изнашивания (например, своевременная и качественная смазка трущихся поверхностей).

Из-за отсутствия необходимых рекомендаций выбор материалов для изготовления трущихся деталей, а также методов технологической их обработки очень часто не обоснован,

№ 1/2026 səh.122-127

носит случайный характер, что всегда приводит к сокращению долговечности деталей оборудования.

Анализ надёжности оборудования ряда предприятий пищевой промышленности показал, что причиной отказов в 80% случаев является катастрофический износ поверхности рабочих органов.

Установлено, что в результате износа рабочих органов пищевых машин производительность снижается в 1,5-2 раза и более чем в 2 раза возрастает расход электроэнергии и ухудшается качество перерабатываемого сырья. Достигнутый уровень износостойкости рабочих органов крайне низок и на наиболее нагруженных деталях не превышает 100-150 часов их непрерывной работы Пищевая промышленность играет важную роль в обеспечении населения качественными продуктами питания и является одной из ключевых отраслей экономики. В условиях роста объемов производства и внедрения высокопроизводительных технологий возрастает значение надежности и долговечности технологического оборудования.

Как показывает анализ эксплуатации машин, основной причиной их выхода из строя является износ деталей и рабочих органов, возникающий под воздействием трения, нагрузок и агрессивных сред . Это приводит к увеличению затрат на ремонт, снижению производительности и ухудшению качества продукции.

**Актуальность исследования.** Актуальность темы обусловлена необходимостью повышения эффективности работы оборудования пищевой промышленности, снижения эксплуатационных расходов и увеличения срока службы машин. В современных условиях особое значение приобретает борьба с износом, который является основной причиной отказов оборудования.

Установлено, что до 80% отказов оборудования связано с износом рабочих поверхностей . При этом производительность оборудования снижается в 1,5–2 раза, а энергопотребление значительно возрастает.

**Цель и задачи исследования.** Цель исследования — повышение износостойкости деталей и рабочих органов пищевого оборудования путем применения современных методов упрочнения и рационального выбора материалов.

Задачи исследования:
- анализ причин и механизмов изнашивания;
- исследование факторов, влияющих на трение и износ;
- разработка методов повышения износостойкости;
- оценка эффективности применения новых материалов и технологий.

Объект и предмет исследования. Объект исследования — детали и рабочие органы оборудования пищевой промышленности, функционирующие в условиях трения и воздействия агрессивных сред.

Предмет исследования — процессы изнашивания, методы их снижения и повышения надежности оборудования.

Научная новизна. Научная новизна работы заключается в:
- комплексном анализе факторов, влияющих на износ деталей пищевого оборудования;
- обосновании выбора материалов с учетом условий эксплуатации;
- разработке рекомендаций по повышению износостойкости рабочих поверхностей;
- применении современных методов упрочнения для увеличения срока службы оборудования.

Расчеты деталей на прочность. Около 90 лет изучают явления усталости, однако их физическая сущность ещё далеко не ясна. наиболее достоверной теорией разрушения от усталости является статическая теория усталостной прочности Н. Н. Афанасьева, устанавливающая диалектический характер процессов упрочнения и разупрочнения металла под действием переменных нагрузок.

№ 1/2026 səh.122-127

Кривая усталости, показывающая зависимость числа циклов нагружений от величины напряжения, представляет собой гиперболическую кривую высшего порядка. В области напряжений, обычно принимаемых для деталей машин, она незначительно наклонена к оси числа циклов нагружений, следовательно, даже небольшое уменьшение действующего напряжения должно приводить к значительному увеличению числа циклов. Небольшой наклон кривой усталости позволил учёным в средине прошлого столетия принять за предел числа циклов нагружений 10 млн. нагружений и полагать, что для любого числа выше принятого предела напряжение не уменьшается.

В то время, когда было сделано это допущение, скорости движения деталей машин были малы и число 10 млн. циклов казалось очень большим. С ростом скоростей движения деталей машин многие из них испытывают 100 и более млн. циклов перемен напряжений, что в десятки и сотни раз превосходит принятую за базу величину 10 млн. циклов. До сих пор для определения средней долговечности детали машины приходится изготовлять серию образцов детали машины приходится изготовлять серию образцов детали в натуральную величину и испытывать их на те нагрузки, которые к ним приложены.

Ученые Д. Н. Решетов, С. В. Серенсен, Л. А. козлов и др. уже несколько лет занимаются вопросами так называемой ограниченной долговечности при малых числах циклов, в области которых кривая усталости имеет более заметный наклон при снижении напряжения. Однако, наибольший интерес представляло бы общее решение этой задачи для любого числа циклов, что в первом приближении и дается в первой части этой книги.

Решение этой задачи осложняется существующим представлением о пределе усталости, как напряжении, при котором разрушения не произойдет, сколько бы раз напряжение не меняло свою величину. По существующим взглядам деталь при напряжении, равном пределу усталости , может выдержать бесконечно большее число циклонов нагружений. Деталь в этом случае окажется "вечной". "Такая трактовка предела усталости не подтверждается результатами массовых опытов по изучению усталостной прочности деталей машин", -пишет проф. В.Н. Трейер и указывает, что "результаты многочисленных опытов по изучению усталостной прочности подшипников качения никогда не давали повода для такого предположения", хотя эти детали наиболее изучены в смысле усталостной прочности.

Введение при счёте деталей машин "запаса прочности" и снижение практически действующих в них напряжений приводит к увеличению числа циклов и "мнимой беспредельный долговечности деталей". В. Н. Трейер указывает, что "современный расчёт деталей машин на долговечность требует решительного отказа от трактовки предела усталости в качестве напряжения, которое деталь может выдержать бесконечно большее число раз".

Автором на основании опытных характеристик механических свойств мате-риалов и известного из квантовой физики закона монотонного убывания теплоёмкости с паданием температуры предложено определять работоспособность материала, как функцию поперечного сжатия и прочности образца при испытании на разрыв, при этом показано, что работоспособность с падением температуры монотонно убывает вместе с темлоёмкостью.

Из опытных данных следует, что работоспособность при данной пониженной температуре равна разности между работоспособность при температуре +20 0 С и количеством тепла, снятого у тела при охлаждении его от +20 0 С до данной температуры. Но раз деталь обладает определенной для данной температуры работоспособностью, то сумма потер, вызванных остаточными деформациями под нагрузкой, должна быть величиной постоянной, не зависящий от величины и числа нагружений ее до разрушения. Это открывает возможность суммировать потери работоспособности, возникающие при всякой переменной нагрузке. Создание метода расчета деталей машин на долговечность, поскольку каждая новая машина несёт с собой повышение производительности труда в промышленности, отвечает насущным задачам ближайшего будущего в развитии социалистической промышленности и сельского хозяйства.

№ 1/2026 səh.122-127

Обновление машинного парка при социализме должно производиться скорее, чем при капитализме. Вследствие высоких темпов роста производительности труда, машины быстрее "старятся морально ", поэтому, чтобы не допускать физического недоиспользования машин, целесообразно строить их с учетом заранее выбранной и экономически оправданной долговечности.

На основе предложенной энергетической гипотезы, совершенно не входящей в противоречие с гипотезой Н.Н. Афанасьева, рассматривающей другую, чисто физическую сторону причин распространения трещин усталости, автор приходит к выводу, что кривая усталости в области больших циклов не может быть параллельна оси циклов, и предлагает приближенный метод расчета деталей машин на долговечность.

Кривые усталости, положенные в основу этого метода расчета, располагается ниже действительной кривой усталости и определяют тем самым расчет с некоторым запасом долговечности. Однако этот метод, в основе которого лежит дифференцированный подход к допускаемым напряжениям в зависимости от числа цикло нагружений, позволяет, хотя и приближенно, определит проектную долговечность деталей, а поэтому имеет большое значение для машиностроения.

Явление усталости металлов, как физическое явление, графически выражается пологой кривой при значительном рассеянии результатов опытов, что делает приближенным существующий метод расчетов на усталостьи долговечность. Поэтому принятый на основе предлагаемый автором теории работоспособности уклон кривой усталости позволяет получить результат ближе к истине, чем существующее положение о возможности существования "вечных" деталей, которые при напряжении, равном пределу усталости, могут выдержать число циклов, большее любого наперед заданного числа.1. Причины изнашивания деталей. Износ является результатом сложного взаимодействия механических, физико-химических и тепловых процессов. Основными причинами изнашивания являются:

- силы трения;
- высокие нагрузки;
- агрессивные среды;
- недостаточная смазка;
- вибрации и ударные нагрузки.

Исследования показывают, что интенсивность изнашивания зависит от давления, скорости движения и свойств материалов. При этом отсутствует прямая пропорциональность между износом и работой сил трения .

Методы повышения износостойкости

Для повышения долговечности оборудования применяются следующие методы:

Конструктивные меры:

снижение контактных напряжений;

равномерное распределение нагрузки;

защита узлов от загрязнений.

Практическая значимость

Практическая значимость работы заключается в разработке рекомендаций по:

- увеличению срока службы оборудования;
- снижению затрат на ремонт;
- повышению производительности машин;
- улучшению качества продукции.

Применение предложенных решений позволяет значительно повысить эффективность работы предприятий пищевой промышленности.

**Заключение.** Таким образом, повышение износостойкости деталей и рабочих органов является важнейшим фактором обеспечения надежности и эффективности пищевого оборудования. Комплексное применение современных материалов, технологий упрочнения и рациональных конструктивных решений позволяет существенно снизить износ и увеличить срок службы машин.

## ЛИТЕРАТУРА

1. Abasov İ.D. Azərbaycan kənd təsərrüfatı. Bakı: Elm və təhsil, 2010, 590
2. Авдеева А.В. Коррозия в пищевых производствах и способы защиты. М.: Пищевая промышленность, 1972, 276 с.
3. Авдеенко А.П., Поляков А.Е., Юсина А.Л., Гончарова С.А. Коррозия и защита металлов. Краматорск: ДГМА, 2004, 112 с.
4. Ажогин Ф.Ф. Коррозионное растрескивание и защита высокопрочных сталей. М.: “Металлургия”, 1974, 256 с.
5. Азаров Б. М., Лисовенко А. Т., Мачихин С. А. Технологическое обо¬ру¬до-вание хлебопекарных и макаронных предприятий. М.: Агро¬пром¬издат, 1986, 263 с.
6. Алексеев С.Н. Борьба с вибрациями и шумами в промышленности. М., «Экономика», 1969. 56 с.
7. Андреева М.А., Андреева Н.Ю., Андреева А.И., Паншин Ю.А.. Низко¬мо-лекулярный высокодисперсный фторлон-4 ⁄⁄ Пластические массы, 1979, № 5, с. 11–12.
8. Андреев И.Н., Валеев Н.Н. Алгоритм расчета защитной способности многослойных гальванических покрытий//Прикладная электрохимия. Казань. 1982. с. 46 – 47.
9. Анурьев В.И. Справочник конструктора-машиностроителя. М., «Машино-строение», 1967. 688 с.
10. Арзамасов Б. Н., Сидорин И. И., Косолапов Г. Ф. и др. Материало¬ве-де¬ние: Учебник для высших технических учебных заведений ⁄ Под общ. ред. Б. Н. Арзамасова. 2-е изд., испр. и доп. М.: Машино¬строение, 1986, 384 с.

**UOT 621.9:664**

# QİDA AVADANLIQLARININ DETALLARININ VƏ İŞÇİ ORQANLARININ AŞINMAYA DAVAMLILIĞININ ARTIRILMASI

**Könül Rasim qızı Həsənova**
**Azərbaycan Texnologiya Universiteti**
**k_qasanova@mail.ru**

***Xülasə.****Məqalədə qida sənayesində istifadə olunan texnoloji avadanlıqların detallarının və işçi orqanlarının aşınmaya davamlılığının artırılması problemləri araşdırılır. Aşınmanın əsas səbəbləri, həmçinin sürtünmə proseslərinin və aqressiv mühitlərin maşın və mexanizmlərin istismar göstəricilərinə təsiri kompleks şəkildə təhlil edilir. Avadanlıqların etibarlılığının artırılmasının müasir üsullarına, o cümlədən innovativ materialların tətbiqinə, səthin möhkəmləndirilməsi texnologiyalarına və rasional konstruktiv həllərə xüsusi diqqət yetirilir. Aşınma intensivliyinin azaldılması və texnoloji avadanlıqların xidmət müddətinin uzadılması istiqamətində praktiki tövsiyələr təqdim olunur.*

***Açar sözlər:*** *qida sənayesi, aşınma, sürtünmə, etibarlılıq, uzunömürlülük, səthin möhkəmləndirilməsi, materiallar, texnoloji avadanlıq.*

№ 1/2026 səh.122-127
UDC 621.9:664

**IMPROVING THE WEAR RESISTANCE OF PARTS AND WORKING ELEMENTS OF FOOD EQUIPMENT**

**Konul Rasim Hasanova**
**Azerbaijan Technological University**
**k_qasanova@mail.ru**

***Summary***.*The article addresses the акmyal problems of improving the wear resistance of parts and working elements of technological equipment used in the food industry. A comprehensive analysis of the main causes of wear, as well as the effects of friction and aggressive environments on the operational characteristics of machines and mechanisms, is carried out. Special attention is paid to modern methods of enhancing equipment reliability, including the use of innovative materials, surface hardening technologies, and rational design solutions. Practical recommendations aimed at reducing wear intensity and extending the service life of technological equipment are presented.*

***Keywords:*** *food industry, wear, friction, reliability, durability, surface hardening, materials, technological equipment.*

Redaksiyaya daxilolma: 25.01.2026
Çapa qəbul olunma: 19.03.2026

**№ 1/2026** **səh.128-132**

**UOT 677.21:677.017.4**
**DOI 10.30546/JIECM.2026.001.2088**

# XAM PAMBIQ ELEMENTLƏRİNİN NƏMLİYİNİN QİYMƏTLƏNDİRİLMƏSİ

**Hüsnü Qədir oğlu Kərimov, Aynurə Tofiq qızı Əliyeva**
**Azərbaycan Texnologiya Universiteti, Xəzər Universiteti**
kerimov_husnu@mail.ru, aynura.aliyeva@khazar.org

***Xülasə.*** *Məqalədə xam pambığın nümunəsində çoxkompomentli cisimlərin nəmliyinin təyin olunması analitik olaraq qiymətləndirilmişdir. Bu qiymətləndirmə xam pambıq elementlərinin quru kütlə və nəmlik göstəricilərinə görə aparılmışdır. Respublikamız nəm klimatik zonada yerləşdiyindən belə qiymətləndirmənin aparılması vacib hesab olunur.*

*İstər emal müəssisələrinə, istərsə də tədarük məntəqələrinə fermer təsərrüfatları tərəfindən satılan xam pambıq konditsiya kütləsinə əsasən həyata keçirilir. Yəni əvvəlcə onun nəmlik və zibillik göstəriciləri müəyyən edilir. Nəzər alsaq ki, son zamanlar Respublikamızda yerli pambıq sortları ilə yanaşı introduksiya olunmuş müəyyən morfoloji xüsusiyyətlərə məxsus xarici sortlar da əkilir, eyni zamanda Pambıq Emalı müəssisələrində texnoloji prosesin ardıcıllığı reqlamentli texnoloji prosesə uyğun olaraq seçilir, onda belə qiymətləndirilmənin aparılması aktual hesab olunur.*

*Tədqiqatın məqsədi pambığın tərkib elementləri olan – lif, çiyid, ulyuk (yetişməmiş çiyid) və kənar qarışıqların nəmlik göstəricilərini qiymətləndirməklə xam pambığın nəımliyini təyin etmək olmuşdur. İstər tədarük zamanı və istərsə də texnoloji emalda nəmlik vacib göstərici olduğundan mövzu aktualdır.*

***Açar sözlər:*** *komponent, xam pambıq. nəmlik, quru kütlə, konditsiya kütləsi*

**Giriş.** Son zamanlar respublikamızda iqlim şəraitinə uyğun olaraq Muğan, Salyan bölgəsində Gəncə - 110, Mil Qarabağ bölgəsində Gəncə - 114, Gərb bölgəsində Gəncə - 160, Şirvan bölgəsində isə Gəncə - 182 pambıq sortları əkilir. Bununla yanaşı, xarici introduksiya olunmuş BA – 440 (Türkiyə pambığı), Prime PRG 9811 (Yunanıstan pambığı), Namanqan 34 (Özbəkistan pambığı) və digər ölkələrin sortları da rayonlaşdırılıb. Ölkəmiz nəm iqlim şəraitində olduğundan yetişdirilən pambığın texnoloji göstəriciləri fərqli olmaqla standart normativlərdə nəmlik göstəriciləri digər ölkələrə nisbətən 1 % artıq götürülür. Ona görə də xam pambıq həm tədarük və həm də emal olunarkən onun nəmlik göstəricilərinin qiymətləndirilməsi vacib sayılır [1,2,3,4,5].

Fermer təsərrüfatlarından xam pambıq qəbul edilərkən pambığın nəmliyi düzgün qiymətləndirilmədikdə alqı – satqı zamanı mübahisələrin yaranmasına səbəb olur. Bu zaman məcburi başqa texnoloji göstəricilərin təyin olunması lazım gəlir. Bu isə artıq vaxt itkisi və əlavə maliyə xərcləri tələb edir. Bundan başqa pambığın nəmliyi emal zamanı texnoloji maşınların seçilməsində vacib hesab olunur. Nəmlik normadan aşağı olduqda lifin kövrəkliyi artaraq onun qırılmasına, çox olduqda isə lifin rənginin dəyişməsinə, çiyidin isə cücərmə qabiliyyətinin azalmasına, həm də sonrakı texnoloji proseslər – təmizləmə və cinləmə proseslərinə mənfi təsir göstərir [6,7].

**Mövzunun aktuallığı.** Xam pambığın tədarük məntəqələrində konditsiya kütləsinə görə qəbulu və texnoloji prosesdə avadanlıqların reqlamentli texnoloji prosesə uyğun olaraq seçilməsini nəzərə alaraq pambıq komponentlərinin nəmliyini təyin etməklə onun nəmliyinin qiymətləndirilməsi baxımından tədqiqat işinin mövzusu aktualdır.

**Tədqiqatın məqsədi.** Respublikamızın Pambıq Emalı müəssisələrində tədarük və emal olunan çoxkomponentli pambıq bitkisinin komponentlərinin – lif, çiyid, ulyuk (yetişməmiş çiyid) və kənar qarışıqların nəmlik göstəricilərini qiymətləndirməklə xam pambığın nəımliyini təyin etmək olmuşdur.

**Tədqiqat obyekti və metodları**. Tədqiqat obyekti olaraq MKT Bərdə Pambıq Emalı müəssisəsində tədarük və emal olunan pambıq sortları götürülmüşdür. Fermer təsərrüfatlarından

müəssisəyə gətirilən pambıq əvvəlcə müəssisə daxili və müəssisə xarici tədarük məntəqələrinə təhvil verilir. Bu zaman müəssisənin laborantı tərəfindən nümunə götürülərək onun konditsiya kütləsini müəyyən etmək üçün laboratoriya şəraitində analiz aparılır. Bu analizi aparmaq üçün VXS, USX və VTS analizatorları fəaliyyət göstərir. İlk iki cihazla pambığın nəmliyi təyin olunur, lakin alqı satqı zamanı mübahisə yaranarsa bu zaman VTS analizatoru arbitraj olmaqla yekun nəticə müəyyən olunur. Əvvəlcə pambığın komponentlərinin nəmliyi təyin olunur, sonra isə ümumi nəmlik qiymətləndirilir [8,9,10].

**Materiallar və müzakirələr.** Xam pambıq çoxkomponentli cisimlər kateqoriyasına aid olduğundan onun nəmiliyinin qiymətləndirilməsi istər nəzəri, istərsə də praktiki cəhətdən maraq doğurur. Adətən praktikada xam pambığın nəmliyi birkomponentli cisim götürülərək aşağıdakı kimi təyin olunur [12,13].

$$W = \frac{C_o - C_q}{C_q} \cdot 100\,, \qquad (1)$$

$$W_s = \frac{C_o}{C_1}(100 + W) - 100, \qquad (2)$$

burada $C_o$ – nümunə götürülən andakı kütlə,

$C_q$ – quru xam pambığın kütləsi,

$C_1$ – saxlanıldıqdan sonra nəmliyi təyin olunacaq pambıq nümunəsi,

W – xam pambıqdan nümunə götürülən zaman faizlə nəmliyi,

$W_s$ – xam pambığın saxlanıldıqdan sonrakı nəmliyi

(1) və (2) düsturların yazılışı fərqli olsa da mənası eynidir. Onda yaza bilərik

$$W_1 = \frac{C_{o1} - C_q}{C_q} \cdot 100, \qquad (3)$$

Burada: $C_{o1}$ - (1) düsturu ilə təyin olunan və $t_o$ - zamanından fərqli olaraq xam pambıqdan t - zamanında götürülmüş nümunənin kütləsidir,

$W_1$ – xam pambıqın t – zamanındakı nəmliyidir.

(3) düsturundan aşağıdakını yaza bilərik:

$$C_q = \frac{C_{o1} \cdot 100}{W_1 + 100}\,, \qquad (4)$$

(4) düsturunu (1) – də yerinə yazsaq alarıq:

$$W = W_{o1}\,\frac{C_o - \frac{100 \cdot C_{o1}}{W_1 + 100}}{\frac{100 \cdot C_{o1}}{W_1 + 100}} \cdot 100, \qquad (5)$$

buradan isə yaza bilərik:

$$W_s = \frac{C_o}{C_{o1}} \cdot (W_1 + 100) - 100, \qquad (6)$$

Lakin xam pambıq çoxkomponentli bitkidir. Fərz edək ki, n – komponentli mühitin hər bir komponentinin nəmliyi aşağıdakı kimi (7) düsturu ilə təyin olunur.

$$W_i = \frac{Coi - C_{qi}}{C_{qi}} \cdot 100, \qquad (7)$$

Burada: $C_{oi}$ – i komponentli nümunənin qurutmadan əvvəlki kütləsi,

$C_{qi}$ – i komponentinin quru kütləsidir.

i – komponentli nümunədə nəmlik kütləsini təyin edək

$$P_{in} = \frac{W_i}{100} \cdot P_i \qquad (8)$$

**№ 1/2026** **səh.128-132**

burada i – nümunədəki quru kütlədir.
Onda n – komponentdə cəmləşən nəmliyi təyin edə bilərik:

$$P_n = \frac{1}{100} \cdot \sum_{i=1}^{n} P_i\, W_i, \qquad (9)$$

n – komponentli cismin quru kütləsini də təyin edə bilərik

$$C_q = C_o - P_n = \sum_{i=1}^{n} P_i\,, \qquad (10)$$

burada n – komponentli qarışığın n – sayda nümunəsinin kütləsidir. Onda n – komponentli cismin nəmliyini aşağıdakı düsturla təyin edə bilərik:

$$W = \frac{C_o - C_q}{C_q} \cdot 100\% = \frac{\sum_{i=1}^{n} P_i\, W_i}{\sum_{i=1}^{n} P_i}\,, \qquad (11)$$

Bu düsturu xam pambıq komponentləri – lif, çiyid, ulyuk və kənar qarışıqlar üçün tətbiq etsək yaza bilərik:

$$W_{x/p} = \frac{P_{ql}\, W_l + P_{qç}\, W_ç + P_{qu}\, W_u + P_{qz}\, W_z}{P_{ql} + P_{qç} + P_{qu} + P_{qz}}\,, \qquad (12)$$

burada: $W_l$, $W_ç$, $W_u$ və $W_z$ uyğun olaraq lif, çiyid, ulyuk və zibil qarışıqlarının nəmlik faizi, $P_{ql}$, $P_{qç}$. $P_u$ və $P_{qz}$ isə uyğun olaraq lif, çiyid, ulyuk və kənar qarışıqların quru kütləsidir.

Ulyukun miqdarı az olduğundan onu çiyidə əlavə etsək xətanı azaltmış olarıq, bu halda yaza bilərik

$$W_{xp} = \frac{P_{ql}\, W_l + P_{qç}\, W_ç + P_{qz}\, W_z}{P_{ql} + P_{qç} + P_{qz}}, \qquad (13)$$

Tərkibində kənar qarışıqların miqdarı az olan xam pambıq üçün $P_{qz}$ – i çiyidin kütləsinə əlavə etsək yaza bilərik.

$$W_{xp} = \frac{P_{ql}\, W_l + P_{qç}\, W_ç}{P_{ql} + P_{qç}}, \qquad (14)$$

Əgər $W_{ql} = W_ç$ olduğunu təxmini qəbul etsək onda, $W_{xp} = W_l = W_ç$ olar. Ancaq həqiqətdə $W_l \neq W_ç$ olmalıdır ona görə də $W_{xp} \neq W_l$ yaza bilərik [14].

Praktiki nöqteyi nəzərindən (11) düsturu ilə istənilən n – komponentinin nəmliyini təyin edə bilərik. Bununla, xam pambıq nümunəsinin quru kütləsinə görə onun sortunu da təyin etmək mümkün olacaqdır. Mil Qarabağ bölgəsində yerləşən Bərdə Pambıq Emalı müəssisəsində emal olunan nəmliyi 8%, çiyidinin nəmliyi isə 8,5% olan birinci sort Gəncə - 114 seleksiya sortuna baxaq [11]. 100 qram xam pambıq nümunəsi götürsək, onda quru xam pambığın kütləsini təyin edə bilərik.

$$8 = \frac{100 - C_q}{C_q} \cdot 100,$$

buradan isə $C_q$ = 92,6 qr. alarıq.

Əgər xam pambıqda təxminən 35% lif və 65% çiyid olduğunu qəbul etsək, onda $C_{ql} \approx$ 32,4 qr. və $C_ç \approx$ 60,2 qr. alarıq. Bu qiymətləri (14) düsturunda yerinə yazsaq pambıq lifinin nəmliyi $W_l \approx$ 7% olar. İndi isə üçüncü sort maşınla yığılmış Gəncə - 114 sortunu fraksiyalar üzrə (1) və (12) düsturları ilə ilə hesablasaq 0,01% fərqləndiyini görərik. Bunu 40 qr. götürülmüş nümunə üçün aşağıdakı cədvəldə göstərək.

№ 1/2026 səh.128-132

Cədvəl 1.

**40 qr. xam pambıq nümunəsində mütləq quru kütlə və nəmliyin miqdarı**

| Mütəq quru kütlə, qramla | Nəmlik, % - lə |
|---|---|
| 36,74 | 8,92 |
| 36,63 | 9,22 |
| 36,53 | 9,51 |
| 36,12 | 10,73 |
| 35,33 | 13,23 |

Bu qiymətləri (12) düsturunda xam pambığın nəmliyini W = 10,2% alarıq, bu hesabatı (1) düsturu ilə hesabladıqda isə W = 10,19% alınırdı.

**Nəticə**

Təklif olunan **(**12) düsturunu analiz etdikdə belə nəticəyə gəlirik ki, xam pambığın komponentlərinin nəmlik faizini ayrılıqda təyin etməklə, onun konditsiya kütləsini daha dəqiq və buna uyğun lif çıxımını təyin etmək mümkün olur.

**Tədqiqat işinin tətbiqi əhəmiyyəti.** Pambıq Emalı müəssisələri xam pambığı fermer təsərrüfatlarından konditsiya kütləsinə görə qəbul edirlər. Bu zaman nəmlik göstəricilərini praktiki cəhətdən daha dəqiq təyin etmək üçün onun ayri ayri komponentlərinin nəmliyini təyin edərək ümumi xam pambığın nəmliyini təyin edə bilərik ki, bunun da nəticəsində alqı satqı zamanı mübahisələrə son qoymaq olar.

**Tədqiqat işinin iqtisadi səmərəliliyi.** Alqı satqı zamanı xam pambıq konditsiya kütləsinə görə qəbul edildiyini nəzərə alsaq nəmliyin çox cüzi faizlə səhv təyin olunması ilə müəssisəyə külli miqdarda ziyan dəyə bilər. Ehtimal olunan ziyanı aradan qaldırmaq üçün tədqiqat işi iqtisadi cəhətdən səmərəlidir.

**ƏDƏBİYYAT**


1. AZS 151 – 2023 Pambıq mahlıcı. Texniki şərtlər
2. AZS 157 – 2005 Pambıq mahlıcı nümunələrinin götürülmə metodları
3. AZS 147 – 2005 Xam pambığın istehsalı. Terminlər və təriflər.
4. AZS 148 – 2005 Toxumluq pambıq şiyidi. Texniki şərtlər.
5. AZS 155 – 2005 Xam pambıq. Pambıq mahlıcının xassələrinin müəyyən edilmə metodları
6. AZS 163 – 2005 Toxumluq pambıq çiyidi. Nəmliyin kütlə payının müəyyən olunma metodu
7. Hüseynov V.N. Pambığın ilkin emalının texnologiyası. Dərslik: Bakı – 2015. 283s.
8. Hüseynov V.N. Pambığın ilkin emalının texnologiyasıvə avadanlıqları kursundan laboratoriya praktikumu. Dərs vəsaiti. Bakı: -2015. 88s.
9. Hüseynov V.N., Sailov R.A. Xam pambığın qurudulması. Dərs vəsaiti. Bakı: - 2017. 168s.
10. Kərimov H.Q. İplik istehsalının sənaye dizaynı.Dərs vəsaiti. Bakı – 2025.- 296s.
11. Tağıyev Ə., Namazova N., Əliyeva N., Abbasova K. İntroduksiya olunmuş pambıq sortlarının biomorfoloji xüsusiyyətlərinin və təsərrüfat qiymətli əlamətlərinin öyrənilməsi. BM və TB elmi tədqiqat institutu. Respublika Elmi-Praktiki Konfransının materialları . Gəncə 2024. Səh.313-316
12. Оренбах И. Сушка хдопка – сырца. Учебное пособие. Ташкент 2007. 1968 стр.
13.Севостьянов А.Г. Методы и средства исследования механико – технологических процессов текстильной промышленности М., 1980. с.312
14. Sailov R.A., Veliev F.A., Karimov H.K. Recearch into the process of mechanical formation of the upper part of a raw cotton bundle. 4/1 (88) p.56-63. EASTERN EUROPEAN journal of enterprise technologies. 2017 Scopus

№ 1/2026 səh.128-132
УДК 677.21:677.017.4

## ОЦЕНКА ВЛАЖНОСТИ ЭЛЕМЕНТОВ ХЛОПКА-СЫРЦА

**Усни Гадир оглы Керимов, Айнуре Тофиг Алиевой**
**Азербайджанский Технологический Университет, Хазарский Университет**
**kerimov_husnu@mail.ru, aynura.aliyeva@khazar.org**

***Резюме.*** *В статье аналитически оценивается определение влажности многокомпонентных объектов на образце хлопка-сырца. Эта оценка проводилась на основе сухой массы и влажности элементов сырого хлопка. Поскольку наша республика расположена во влажной климатической зоне, такая оценка считается важной.*

*Она проводится на основе кондиционной массы хлопка-сырца, продаваемого фермерскими хозяйствами как перерабатывающим предприятиям, так и заготпуиктам. То есть, сначала определяются его показатели влажности и засоренности. Учитывая, что в последнее время наряду с местными сортами хлопка в нашей Республике высаживаются и интродуцированные сорта с определенными морфологическими характеристиками, и одновременно, последовательность технологического процесса на хлопкоперерабатывающих предприятиях выбирается в соответствии с регулируемым технологическим процессом, такая оценка считается актуальной.*

*Целью исследования было определение влажности хлопка-сырца путем оценки влажности составляющих элементов хлопка – волокна, семена, улюка (незрелого семена) и посторонних примесей. Поскольку влажность является важным показателем как при закупке, так и при технологической переработке, тема актуальна.*

***Ключевые слова:*** *компонент, хлопок-сырец, влажность, сухой вес, кондиционная масса*

**UDC 677.21:677.017.4**

## EVALUATION OF MOISTURE CONTENT OF RAW COTTON ELEMENTS

**Husnu Kadir Karimov, Aynura Tofig Aliyeva**
**Azerbaijan Technological University, Khazar University**
**kerimov_husnu@mail.ru, aynura.aliyeva@khazar.org**

***Summary:*** *This article provides an analytical assessment of the moisture content of multi-component samples of raw cotton. This assessment was conducted based on the dry mass and moisture content of raw cotton components. Since our republic is located in a humid climate zone, this assessment is considered important.*

*It is conducted based on the certified mass of raw cotton sold by farmers to both processing plants and harvesting centers. This means that moisture and impurity content are first determined. Considering that introduced varieties with specific morphological characteristics have recently been planted in our republic alongside local cotton varieties, and that the technological process sequence at cotton processing plants is selected in accordance with the regulated technological process, this assessment is considered relevant.*

*The aim of the study was to determine the moisture content of raw cotton by assessing the moisture content of its constituent elements—fiber, seeds, uluk (unripe seeds), and foreign matter. Since moisture content is an important indicator for both purchasing and processing, this topic is relevant.*

***Keywords:*** *component, raw cotton, moisture content, dry weight, approved weight*

Redaksiyaya daxilolma: 07.02.2026
Çapa qəbul olunma: 19.03.2026

№ 1/2026 səh.133-140

UOT 656:658.7

DOI 10.30546/JIECM.2026.001.2094

# KOMBINƏEDILMIŞ DAŞIMA TEXNOLOGIYALARININ MÜASIR İNKIŞAF İSTIQAMƏTLƏRI

**Elmira Natiq qızı Babayeva**
**Azərbaycan Texnologiya Universiteti**
**elmirababayeva.atu@gmail.com**

***Xülasə.****Bu elmi məqalədə kombinəedilmiş daşıma texnologiyalarının müasir nəqliyyat və logistika sistemlərində rolu geniş şəkildə təhlil edilir. Intermodal və multimodal daşımaların alt sistemi kimi çıxış edən kombinəedilmiş daşıma texnologiyalarının formalaşması, intermodal nəqliyyat vahidlərinin (İNV) funksional xüsusiyyətləri, şaquli və üfüqi yükləmə texnologiyaları, həmçinin bu texnologiyaların iqtisadi və texnoloji səmərəliliyə təsiri araşdırılır. Məqalədə müasir beynəlxalq təcrübə və inkişaf tendensiyaları nəzərə alınmaqla kombinəedilmiş daşımaların perspektivləri qiymətləndirilir.*

***Açar sözlər:*** *kombinəedilmiş daşıma, intermodal nəqliyyat, multimodal daşımalar, logistika, İNV, nəqliyyat texnologiyaları*

**Giriş.** Qloballaşma meyillərinin intensivləşməsi, beynəlxalq ticarət münasibətlərinin dinamik inkişafı və qlobal tədarük zəncirlərinin struktur baxımından mürəkkəbləşməsi nəqliyyat sistemlərinin funksional və institusional transformasiyasını zəruri etmişdir. Müasir iqtisadi şəraitdə yük axınlarının artması, çatdırılma müddətinə və logistika xərclərinin optimallaşdırılmasına dair tələblərin yüksəlməsi ənənəvi, birnövlü (monomodal) daşıma modellərinin effektivliyini məhdudlaşdırır.

Bu kontekstdə müxtəlif nəqliyyat növlərinin vahid logistika mexanizmi çərçivəsində inteqrasiyasını nəzərdə tutan kombinəedilmiş daşıma texnologiyaları nəqliyyat-logistika sistemlərinin səmərəliliyinin artırılması baxımından prioritet istiqamət kimi formalaşmışdır. Belə yanaşma resurslardan daha rasional istifadəni təmin etməklə yanaşı, tranzit müddətinin azaldılması və ümumi daşıma xərclərinin optimallaşdırılması üçün əlverişli imkanlar yaradır.

Kombinəedilmiş daşımalar yüklərin iki və ya daha artıq nəqliyyat növünün ardıcıl və qarşılıqlı əlaqələndirilmiş şəkildə istifadəsi ilə daşınmasını nəzərdə tutur. Bu prosesdə əsas funksional elementi intermodal nəqliyyat vahidləri (konteynerlər, yarımqoşqular və digər standartlaşdırılmış yük vahidləri) təşkil edir ki, bu da yüklərin yenidən yüklənmədən bir nəqliyyat növündən digərinə ötürülməsini təmin edir. Belə yanaşma nəqliyyat əməliyyatlarının texnoloji cəhətdən optimallaşdırılmasına, logistika xərclərinin azaldılmasına və ekoloji təsirlərin minimuma endirilməsinə şərait yaradır.

Müasir mərhələdə kombinəedilmiş daşıma texnologiyaları intermodal və multimodal daşımaların struktur alt sistemi kimi qiymətləndirilir. Bu texnologiya səmərəli nəqliyyat-logistika xidmətlərinin təşkili məqsədilə, xüsusilə dəmir yolu və avtomobil nəqliyyatının texniki və infrastruktur elementlərinin – rabitə və informasiya sistemlərinin, terminalların, hərəkət heyətinin – həmçinin intermodal nəqliyyat vahidlərinin kompleks və inteqrasiya olunmuş istifadəsini əhatə edir.

Beləliklə, kombinəedilmiş nəqliyyat texnologiyası yalnız müxtəlif nəqliyyat növlərinin mexaniki birləşdirilməsi deyil, eyni zamanda vahid idarəetmə, koordinasiya və informasiya mühitində fəaliyyət göstərən, sistemli və çoxkomponentli logistika mexanizmi kimi xarakterizə olunur.

Nəqliyyat-logistika xidmətlərinin səmərəliliyi operatorun bazar mühitində rəqabətqabiliyyətliliyinin təmin olunması ilə səciyyələnir və bu, tətbiq olunan texnologiyanın adekvatlığı, xidmətin qiymət siyasəti və tələb olunan əməliyyat xərcləri arasında optimal nisbətin formalaşdırılması nəticəsində müsbət iqtisadi göstəricilərin əldə olunmasını nəzərdə tutur. Başqa sözlə, xidmətin səmərəliliyi yalnız daşınma prosesinin texniki icrası ilə deyil, həm də onun iqtisadi əsaslandırılması və bazar tələblərinə uyğunlaşdırılması ilə müəyyən edilir.

Qeyd olunan məqsədə nail olmaq üçün kombinəedilmiş nəqliyyat texnologiyalarının struktur əsasını təşkil edən intermodal nəqliyyat vahidlərinin funksional xüsusiyyətlərinin, texniki-parametrik göstəricilərinin və onların daşınma texnologiyalarının inkişaf meyillərinin sistemli şəkildə tədqiqi zəruridir. Bu istiqamətdə aparılan araşdırmalar intermodal həllərin tətbiq imkanlarının genişləndirilməsinə, logistika proseslərinin optimallaşdırılmasına və ümumi nəqliyyat sisteminin dayanıqlı inkişafının təmin edilməsinə elmi əsas yaradır.

**Tədqiqatın məqsədi.**Təqdim olunan tədqiqatın əsas məqsədi kombinəedilmiş daşıma texnologiyalarının müasir nəqliyyat-logistika sistemlərində rolunun elmi-nəzəri və praktiki aspektlər üzrə kompleks şəkildə araşdırılmasıdır. Bu çərçivədə kombinəedilmiş daşımaların struktur xüsusiyyətləri, funksional üstünlükləri və iqtisadi səmərəliliyə təsiri təhlil edilmişdir. Tədqiqat prosesində sistemli yanaşma prinsipi əsas götürülmüş, müqayisəli təhlil metodu və mövcud elmi ədəbiyyatın icmalı vasitəsilə nəzəri və empirik məlumatlar ümumiləşdirilmişdir.

**Tədqiqatın metodologiyası.**Məqalədə tətbiq olunan metodoloji yanaşma analitik və təsviri xarakter daşıyır. Araşdırma zamanı kombinəedilmiş daşıma texnologiyalarına dair yerli və xarici elmi mənbələr, normativ-hüquqi sənədlər və praktiki tətbiq nümunələri sistemləşdirilərək təhlil edilmişdir. Eyni zamanda, əldə edilən elmi nəticələr müqayisəli qiymətləndirmə əsasında ümumiləşdirilmiş və müasir nəqliyyat-logistika sistemlərinin inkişaf meyilləri kontekstində şərh olunmuşdur.

**Kombinəedilmiş daşıma anlayışı və mahiyyəti.**Kombinəedilmiş daşıma texnologiyası intermodal və multimodal daşımaların struktur komponenti kimi çıxış edərək, əsasən dəmir yolu və avtomobil nəqliyyatının texniki vasitələrinin, terminalların və intermodal nəqliyyat vahidlərinin kompleks və əlaqələndirilmiş istifadəsinə əsaslanır. Bu texnologiya çərçivəsində müxtəlif nəqliyyat növləri vahid logistika mexanizmi daxilində inteqrasiya olunur və idarə edilir.

Kombinəedilmiş daşımaların başlıca məqsədi nəqliyyat xidmətlərinin rəqabətqabiliyyətliliyinin artırılması, logistika proseslərinin optimallaşdırılması və minimal resurs sərfi ilə maksimal iqtisadi səmərənin əldə edilməsidir. Bununla yanaşı, qeyd olunan yanaşma nəqliyyat əməliyyatlarının təhlükəsizliyinin yüksəldilməsinə, tranzit müddətinin azaldılmasına və ekoloji dayanıqlılığın təmin olunmasına da xidmət edir.

Kombinəedilmiş daşımaların mahiyyəti ondan ibarətdir ki, yüklər daşınma prosesi ərzində boşaldılmadan eyni intermodal nəqliyyat vahidi (İNV) daxilində müxtəlif nəqliyyat növləri vasitəsilə ardıcıl şəkildə daşınır. Bu yanaşma yüklərin fiziki bütövlüyünün və təhlükəsizliyinin qorunmasına xidmət etməklə yanaşı, yükləmə-boşaltma əməliyyatlarının sayının minimuma endirilməsini təmin edir. Nəticə etibarilə, əməliyyat xərcləri və vaxt itkiləri azalır, logistika prosesinin ümumi səmərəliliyi yüksəlir.

Müasir kombinəedilmiş nəqliyyat texnologiyalarının formalaşması və inkişafı bir sıra kompleks və çoxşaxəli amillərlə şərtlənir. Bu amillər struktur və institusional xarakter daşımaqla texnoloji həllərin xüsusiyyətlərinə birbaşa təsir göstərir. Həmin amillərə aşağıdakılar aid edilə bilər:

- Dəmir yolu və avtomobil nəqliyyatının tarixən müstəqil inkişaf etməsi və bu sahələrdə tətbiq olunan texniki standartların fərqliliyi;
- Beynəlxalq daşımalar zamanı müxtəlif ölkələrdə nəqliyyat infrastrukturunun və texnoloji yanaşmaların qeyri-bərabər inkişaf səviyyəsi;
- İntermodal nəqliyyat vahidlərinin ölçü, konstruktiv xüsusiyyət və texniki parametrlər baxımından müxtəlifliyi;
- Nəqliyyat avadanlığı istehsalçıları ilə operatorlar arasında mövcud olan bazar rəqabəti və innovativ həllərin tətbiqi meyilləri;

Müxtəlif bazar seqmentlərində yük sahiblərinin və istifadəçilərin nəqliyyat xidmətlərinə dair diferensial tələbləri.

